Bu bir xalq qəzetidi
ƏDALƏT

Alimdən Ramiz Mehdiyevə etiraz: "İstefa verəcəm..."

"20 yanvar Ümumxalq Hüzn Günü ərəfəsində AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin ştat cədvəli üzrə 250-dən çox elmi və texniki personalı olan Tarix İnstitutu, o cümlədən baş direktor kimi haqqımda söylədiyi hüquqi baxımdan ziddiyyətli və həqiqəti əks etdirməyən fikirlərindən çox böyük təəssüf hissi keçirirəm".

Adalet.az xəbər verir ki, bunu AMEA-nın Tarix İnstitutunun Baş direktoru tarix elmləri doktoru, professor Kərim Şükürov akademiyanın prezidenti Ramiz Mehdiyevin ötən gün Rəyasət Heyətinin iclasında institutla bağlı səsləndirdiyi fikirlərə münasibət bildirərkən deyib.

Bax:səh-3

MÜƏLLİFLƏRİN ŞAGİRDLƏRƏ VURDUĞU SİLLƏ

Müəllimin vurduğu sillə uzaqbaşı, bir on-on beş dəqiqə şagirdi ağrıda bilər. Amma müəlliflərin dərsliklərdə vurduğu "sillə" daha ağır olar və şagirdin ürəyinə xal salar.

İndi oxuyuram ki, orta məktəblərin rus bölmələri üçün yazılmış 4-cü sinif üçün "Rus dili" dərsliyində dərsliyi hazırlayanlar şagirdlərə elə bir sillə vurublar ki, yarası uzun müddət sağalmaz.

Və əslində bir sillə də bu kitabın çapına icazə vermiş Təhsil Nazirliyinə vurublar.

Nədir məsələ? 1990-cı il 20 Yanvar faciəsi ilə bağlı çox ciddi bir ittiham irəli sürülüb. Mətndə qeyd edilir ki, Bakıda həmin qanlı gecədə şəhid olmuş dinc sakinlər Sovet ordusu ilə AXC silahlı dəstələr arasında baş verən atışmada həlak olub.

Hamımızın şahidi olduğumuz bir tarixi, bir faciəni necə belə təqdim etmək olar? Bu dərsliyi yazanlar o atışmanı harda görüb, kimdən eşidib?

Uzaq keçmiş deyil ki? Sovet ordusu yanvar ayının 19-dan 20-nə keçən gecə və 20-də Bakıya soxulub və dinc əhalini gülləbaran edib, nə qədər insan ölüb, nə qədər insan yaralanıb. Amma bir Sovet əsgərinin də burnu qanamayıb.

Ümumiyyətlə, dərslik yazılandan sonra nazirlikdə müvafiq şöbə buna necə göz yumub, yoxsa oxumadan icazə veriblər?

İndi müəllim şagirdə tənbeh üçün bir sillə vurur dara çəkirik, işdən çıxarırıq, sosial şəbəkələrdə linc edirik. O sillə ağırdır, yoxsa dərslik müəlliflərinin vurduğu bu "sillə"?

DİN-də Kollegiya iclası keçirildi

Bax:səh-3

Maşında narkotik daşıyan şəxs: "Polisin atəş açacağını gözləmirdim"

Əvvəllər Cinayət Məcəlləsinin 177-ci (oğurluq) və 234-cü (narkotik vasitələrin qanunsuz dövriyyəsi) maddələri ilə məhkum olunan Lənkəran şəhər sakini, 1981-ci il təvəllüdlü Vüsal Hüseynov "Daewoo" markalı avtomobillə narkotik daşıyıb.

Bu barədə Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev məlumat verib.

Bildirib ki, dünən Binəqədi RPİ-nin 7-ci Polis Bölməsinin əməkdaşları tərəfindən həyata keçirilən tədbir zamanı şübhəli şəxs avtomobili polis əməkdaşlarının üzərinə sürüb, qaçmağa cəhd edib. Onun bu cəhdi uğursuz olub: "Polis əməkdaşları xidməti silahdan istifadə etməklə onun avtomobilinin təkərinə açdıqları atəş nəticəsində nəqliyyat vasitəsini saxlayıblar.

O bildirib ki, "gözləmirdim polis atəş aça bilər. Polisin narkotiklə mübarizədə inadkarlığını gördüm...".

Onun üzərindən və idarə etdiyi avtomobildən külli miqdarda narkotik vasitə olan heroin, eləcə də psixotrop maddələr aşkarlanaraq götürülüb".

"Zeynalabdin Tağıyev Azərbaycanın inkişafına böyük töhfələr vermişdir"

Yanvar ayının 18-də xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Bakıda ucaldılan abidəsinin açılış mərasimi olub. Prezident İlham Əliyevin Sərəncamı ilə metronun "İçərişəhər" stansiyasının qarşısındakı meydanda ucaldılan abidə büründəndir. Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyətinin 2019-cu ildə heykəlin hazırlanması üzrə elan etdiyi açıq müsabiqədə layihələr arasından Xalq rəssamı Xanlar Əhmədovun əsəri qalib seçilib. Abidənin önündə Heydər Əliyev Fondu tərəfindən Azərbaycan və ingilis dillərində hazırlanan müvafiq məlumat lövhəsi quraşdırılıb.

Bax:səh-2

SALAMLAŞMADAN YUMRUQLAŞMAYA KEÇDİK

Belə deyirlər ki, insanların əllə salamlaşma səbəbi o imiş ki, qədim zamanlarda insanlar bir-birinə yaxınlaşanda əllərini açıb göstərərmişlər ki, bax, əlimdə daş yoxdu, silah yoxdu və əl-ələ tutarmışlar, sülh rəmzi kimi. Amma indi baxıram, deyəsən, dünyada barış day bitib. İndi pezidentlərdən tutmuş nazirlərə qədər dünyanın bütün sammitlərində, iclaslarında, müşavirələrində, görüşlərində day salam-kəlam yoxdu, birbirləriylə yumruqlaşırlar. O yumruğun içində nə var, onu heç kəs bilmir.

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 3 (5940) 22 yanvar 2022-ci il | Qiyməti 30 qəpik

İlham Əliyev və Mehriban Əliyeva Şəhidlər Xiyabanını ziyarət etdilər

Qanlı 20 Yanvar faciəsindən 32 il ötür. Sovet imperiyasının Bakıda törətdiyi qanlı qırğının 32-ci ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanını ziyarət ediblər.

Adalet.az xəbər verir ki, dövlətimizin başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva ölkəmizin azadlığı uğrunda həlak olanların əziz xatirəsini ehtiramla yad ediblər. Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsi önünə əklil qoyub. Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Polis fədakarlıq etdi, bəs xəstəxana...

Deməli, mətbuatda oxudum ki, 21 yaşlı bir gənc avtoqəzaya uğrayıb. Abşeron rayon Dövlət Yol Polisinin əməkdaşı, polis kapitanı Vaqif Sadıqov yaralını dərhal Təcili Tibbi Yardıma çatdırıb. Amma orada qəbul etmədilər ki, xəstə xeyli qan itirib. Bundan sonra polis kapitanı gənci Semaşkoya çatdırıb. Təəssüf ki, xəstənin vəziyyətinin ağır olduğunu bilib qəbul etmədilər. Daha sonra Vaqif Sadıqov xəstəni Travmatalogiya İnstitutuna çatdırıb. Allaha şükür, burada qəzaya uğramış gənci əməliyyat ediblər, qanaxması dayanıb və polis kapitanı yaralı özünə gələnədək gözləyib.

Bəli, polis işçisi bir insanı ölümdən xilas edib. Amma bizi məsələnin başqa tərəfi maraqlandırır. Birincisi, Təcili Yardıma çatdırıb, amma yuxarıda dediyi kimi çoxlu qan itirdiyindən qəbul etməyiblər. Ola bilər ki, Təcili Yardımda belə şərait olmasın, amma Azərbaycanda Xüsusi Təcili Yardım Ambulansları var ki, onda ən ağır xəstəni əməliyyat etmək üçün şərait var. Nə isə, Təcili Yardımı unudaq.

Bəs Semaşko xəstəxanasına sözünüz nədir? Necə yəni, xəstənin vəziyyəti ağırdır, qəbul etmirəm. Bəs sən hansı xəstəni qəbul edirsən?

Bəlkə polis kapitanı yaralını xəstəxanalar boyunca gəzdirənəcən iş işdən keçəydi. Bəs onda nə olacaqdı? Məsuliyyət kimin üstündə qalacaqdı?

Yenə şükürlər olsun ki, hər şey yaxşı qurtarıb. Semaşko xəstəxanasının rəsmi açıqlamasını gözləyirik ki, niyə xəstəni qəbul etməyib.

XANIM PEKRESS ÖZÜNÜ CIRIQ-CIRIQ ELƏDİ

Fransanın prezidentliyə namizədi xanım Pekress ermənilərə girmək üçün Xankəndinə səfər etmişdi. Cənab prezident də bununla bağlı fikirlərini bildirmişdi.

İndi bu xanım özünü cırıq-cırıq edir ki, Azərbaycan prezidenti onu hədələyib və Makron susur. Özünü cırıq-cırıq edən bu xanım özü bütün beynəlxalq qanunları pozaraq icazəsiz bir ölkəyə səfər edir, beynəlxalq aləm də susur, bunu görməzlikdən gəlir, eləcə də Makron da. Amma bizi hədələyir. Arxalı qancıq qurdu basmaq istəyir, amma bu mümkün deyil.

Bir cəza da biz təklif edirik

Deməli, Hacı Zeynalabdin Tağıyevin heykəlinə zərər vuranlar - Vüqar Tağızadə və Allahverdi Məmmədlinin Səbail Rayon Polis İdarəsi əməkdaşlarının operativliyi nəticəsində elə gecə ilə saxlandıqları xəbərini oxudum. İndi onlara qarşı cinayət məcəlləsinin 221-ci (xuliqanlıq) və 246-cı (tarixi və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlama) maddələri ilə cinayət işi başlanıb.

Yəqin ki, layiqli cəzalarını alacaqlar. Bunu istintaq müəyyənləşdirəcək. Amma biz təklif edirik ki, həbsdə olduqları müddətdə onları hər gün səhər bu heykəlin yanına gətirməli, heykələ qulluq eləməlidilər. Camaat da onları görməlidi və bu da digərlərinə görk olmalıdır.

Tağıyevin heykəli niyə yerdə qoyulub

Xanlar Əhmədovdan açıqlama

"Orada memarlar da çalışırdı. Təkliflər var idi ki, heykəli postament üzərinə qoyaq. Dairəvi, düzbucaqlı, kvadrat olsun, yəni müxtəlif fikirlər və təkliflər var idi. Sonra qərara alındı ki, Tağıyev xalqın atası olduğuna görə, yerdə, xalqın içində olsun, onlarla təmasda olsun. Bu fikirlə heykəl bu cür qoyuldu. Heykəldi, yerdən də qoyula bilər. Burada hansısa bir problem yoxdur.

Avropada postamentsiz heykəl nümunələri çoxdur".

Mehman CAVADOQLU

Üçüncü cəhd

Ötən həftənin sonlarında Türkiyənin Vaşinqtondakı keçmiş səfiri Sərdar Qılıcla Ermənistan parlamentinin sədr müavini Ruben Rubinyanın keçirdikləri təkbətək görüşlə iki ölkə arasındakı münasibətlərin normallaşdırılması istiqamətində növbəti üçüncü cəhdə start verildi. Xatırladaq ki, Türkiyə sovetlərin çöküşünün ilk aylarından sonra yaranmış müstəqil Ermənistan dövlətini tanıyan ilk ölkələrdən biri olsa da həmin vaxt qarşı tərəfdən adekvat reaksiya görməmişdi. Çünki öz uydurduqları saxta tarixin psixoloji gərginliyi və şoku altında sadomazoxist bir qövmə çevrilmş "qarşı tərəf" bitmək bilməyən hikkəsinin, soyumaq bilməyən qisasçılıq hissinin başgicəlləndirici təsirindən ayıla bilmirdi. Həmin vaxt yeni (deyəsən, həm də köhnə) Ermənistan tarixinin hələ ki ağlı başında olan yeganə siyasətçisi Levon Ter-Petrosyan Türkiyədən gələn nümayəndə heyətiylə yalnız ticarət və iqtisadi əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparmış, siyasi müstəvidə konkret hər hansı müzakirəni mümkünsüz saymışdı. Lakin Kəlbəcərin işğalından sonra Türkiyənin təşəbbüsüylə iqtisadi və ticari əməkdaşlıq sahəsindəki bütün kövrək gəlişmələrin üstündən də xətt çəkildi, sərhədlər tamamilə qapandı, təzə-təzə yaranan əlaqələr tamamilə kəsildi.

Bax: səh.3

GÜNÜN LƏTİFƏSİ

Vəli Xramçaylı səhər-səhər xaşla babat vurub səndəliyə-səndəliyə səki ilə gedir. Qabağına çıxan Əbülfət Mədətoğlu:

- Vəli qağa, bu vəziyyətdə evə gedib çıxa biləssən?

Vəli:

- Ayə nə ev, hələ işə gedeyrəm.

Xalid Kazımlı: Ara yerdə tırkaya gedənlər qırıldı...

Qazaxıstanda baş verən hadisələrin mahiyyəti nə rus işğalıdır, nə də xalq üsyanı-filan. Bu, saray çevrilişdir. Nazarbayevin qohum-qardaşını vəzifələrdən bir-bir dənləyir, yerinə Tokayevin adamlarını təyin edirlər. Vəssalam. Ara yerdə tırkaya gedənlər qırıldı...

BİABIRÇILIQ

Soçidə kevenşiklərin yarışı keçirilir. Bizim kevenşiklər də komandalarının adını "Şuşa" qoyublarmış. Ermənilər etiraz ediblər, bizimkilər də tez adını dəyişib "Buta" qoyublar. Əslində isə ad dəyişmək əvəzinə tüpürməliydilər və yarışdan çəkilməliydilər.

Bu barədə Akif Xansultanlı sosial şəbəkədə bir paylaşım edib və qəşəng bir P.S. yazıb: "Ayə, sizə yüz dəfə deyiblər ki, bu BAYRAĞI Biləcəridən o tərəfdə qaldıra bilmirsizsə, özünüzlə aparmayın".

DİLÇİLİKDƏ İNQİLAB

Azərbaycan dilinin orfoqrafiya lüğətində "hörümçək" sözü çıxarılıb "spayder" sözü ilə əvəzlənib.

O filmdə nə təhər deyilir: "Bir ətək pul alırlar, oynamaqlarına bax".

Aqil ABBAS
aqilabbas@rambler.ru

QIRILAN RUS VƏ UKRAYNALI OLACAQ, AMERİKALI YOX

Jirinovskiyə adətən yüngül xasiyyətli, çılğın bir adam kimi baxırlar. Və elə biz də. Əslində isə ağıllı adamdı. Dediyi sözlər də heç də öz sözü deyil, Putinin fikirləşdikləri və onun diliylə söylədikləridi.

Ukraynadakı vəziyyət hamımıza məlumdur, dalana dirənib. Əgər çıxış yolu tapmasalar, güman ki Rusiya Ukraynanı işğal edəcək. ABŞ başda olmaqla NATO Saakaşvilinin dalından necə qaçmışdısa, güman ki Zelenskinin də dalından elə qaçacaq. Uzaqbaşı, bir-iki bəyanat və Rusiyaya müəyyən sanksiyalar tətbiq ediləcək.

40 ildi İrana sanksiya tətbiq ediblər, amma İran yaşayır, hərbi qüdrətini də artırır, yəni ölməyib. Rusiyaya da tətbiq ediləcək sanksiyalar ölkədə müəyyən fəsadlar yaratsa da, sanksiya ilə Rusiyanı məhv etmək olmaz. Nəhəng ölkədir və kartofu, kələmi varsa ac qalmayacaq. Belə bir söz var, ac qılınca çapar. Uzaqbaşı, Rusiya qılıncını sıyıracaq, bu da dünya savaşı deməkdir.

Qayıdaq Jirinovskiyə. Jirinovski "Rossiya" telekanalında canı yayımda Rusiyanın nə edəcəyini birbir açıqladı.

Bildirdi ki, əvvəl-əvvəl SSRİ-ni bərpa edəcəyik, Orta Asiya respublikalarını, Moldovanı, Ukraynanı, Pribaltikanı birləşdirəcəyik. Yenə sağ olsun, dedi ki, Zaqafqaziyaya sonra baxarıq. Və daha sonra söylədi ki, Avropa ölkələrini darmadağın edəcəyik, qoy yansınlar. Hələ ABŞ-ın şəhərlərinə də nüvə bombası atacayıq. ABŞ-ı və Avropanı Rusiyaya tabe etdirəcəyik. Deyir ki, Avropada dövlətlər var, İngiltərə, Fransa, Almaniyanı çıxandan sonra? Yerdə qalan dövlətlərin bir şapalaqlıq canı var.

Bax: səh.2

YANVAR HAVASI

Bax: səh.7

İlham Əliyev və Putin Qarabağı müzakirə etdilər

Azərbaycan Prezidenti İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putinin telefon danışığı olub.

Adalet.az xəbər verir ki, bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb.

Bildirilir ki, telefon danışığı zamanı prezidentlər Qarabağdakı vəziyyəti müzakirə ediblər.

Əliyevlə Putin, həmçinin, Ukraynadakı vəziyyəti və Rusiya Federasiyasının ABŞ və NATO ilə təhlükəsizlik təminatlarına dair danışıqları, Ukraynanın daxili nizamlanması məsələləri barədə fikir mübadiləsi aparıblar.

Ceyhun Bayramov ATƏT-in forumunda Ermənistan nümayəndəsinin əsassız iddialarını rədd edib

19 yanvar 2022-ci il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumunun (TƏF) Azərbaycanın sədrliyi ilə keçirilən açılış iclasında çıxış edib.

Xarici İşlər Nazirliyindən Adalet.az-a verilən məlumata görə, çıxış zamanı Azərbaycanın TƏF sədrliyinin prioritet məsələlərindən və müəyyən edilmiş Təhlükəsizlik Dialoqlarından danışan nazir, aşağıdakı vacib məsələləri səsləndirib:

- Azərbaycanın TƏF-də sədrliyi sonuncu dəfə 17 il bundan öncə olub və o vaxtdan bəri ATƏT regionunda ümumi təhlükəsizlik mühitini mürəkkəbləşdirən bir çox hadisələr baş verib. Dəyişilməz qalan isə bizim həm ATƏT, həm də TƏF çərçivəsində əməkdaşlığımızın təməl prinsipləridir.

Buraya, Helsinki Yekun Aktından başlayaraq ATƏT-in əsas sənədlərində təsbit olunmuş fundamental normalara, prinsiplərə və öhdəliklərə qeyd-şərtsiz hörmət, xüsusilə dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət edilməsi daxildir.

- Dövlətlərarası davranışın əsas prinsiplərinin kobud şəkildə pozulması nəticəsində Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədləri təhlükə altına düşmüşdü. Lakin, 2020-ci ilin payızında silahlı qüvvələrimiz tərəfindən həyata keçirilən əks-hücum əməliyyatı bu vəziyyətə son qoydu.

- Azərbaycanın sədrlik gündəliyinə TƏF üçün yüksək əhəmiyyət kəsb edən və aktual məsələlər üzrə Təhlükəsizlik Dialoqlarının həyata keçirilməsi daxil edilib. Belə ki, ilk Təhlükəsizlik Dialoqu gələn həftə beynəlxalq humanitar hüquqa riayət olunması və mülki şəxslərin müdafiəsi mövzusu üzrə keçiriləcək. Biz, bu Təhlükəsizlik Dialoqu vasitəsilə dövlətlərin beynəlxalq humanitar hüquq və ATƏT-in müvafiq öhdəliklərinə əməl etməsini təşviq etmək və gücləndirməyi, habelə onların pozuntularına görə cavabdehliyin vacibliyi məsələsinin müzakirəsini təşkil etməyi hədəfləyirik.

- Digər iki Təhlükəsizlik Dialoqunu Yüngül və Atıcı Silahların və Adi Sursat Ehtiyatlarının müxtəlif aspektlərinə həsr edəcəyik. Onlardan biri əldə edilmiş təcrübəyə diqqət yetirməklə, ATƏT-in müvafiq öhdəliklərinin yerinə yetirilməsi mövzunu əhatə edəcək. Digər Təhlükəsizlik Dialoqu minalarla mübarizə məsələsinə diqqət yetirəcək.

- ATƏT-in hərtərəfli və çoxölçülü təhlükəsizlik konsepsiyası nöqteyi-nəzərindən, praktiki yardım layihələrinin həyata keçirilməsi digər təhlükəsizlik sahələrində, məsələn, məcburi köçkünlərin öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtmasının asanlaşdırılması ilə bağlı öhdəliklərimizin yerinə yetirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

- ATƏT-in 'hərbi-siyasi bloka qoşulmayan' iştirakçı dövləti olan Azərbaycan, həmişə ATƏT-i ümumavropa təhlükəsizlik arxitekturasının əsas sütunu kimi görüb və hesab edib ki, ATƏT-in fundamental sənədlərində dəstəklənən təhlükəsizliyin bölünməzliyi qorunmalıdır. Sədrliyimiz çərçivəsində Təhlükəsizlik Dialoqlarından biri də, heç bir siyasi-hərbi alyansa daxil olmayan ölkələrin Avropa təhlükəsizlik arxitekturasındakı yeri və roluna, eləcə də ATƏT məkanında təhlükəsizlik və sabitliyə töhfə verməklə bağlı yanaşma və təcrübələrinə həsr olunacaq.

- Sədrliyimizin növbəti Təhlükəsizlik Dialoqu terrorizmin bütün forma və təzahürləri ilə mübarizəyə həsr olunacaq. ATƏT özünün unikal hərtərəfli təhlükəsizlik konsepsiyasına əsaslanaraq, terrorizmin maliyyələşdirilməsi, xarici terrorçu döyüşçülər fenomeni və terrorizm, o cümlədən çirkli pullarla muzdluların və terrorçuların maliyyələşdirilməsi, habelə separatizm və zorakı ekstremizm, mütəşəkkil cinayətkarlıq və digər qeyri-qanuni fəaliyyətlər arasında əlaqələr daxil olmaqla, vahid yanaşma vasitəsilə terrorizmlə mübarizə və onun qarşısının alınması üçün yaxşı mövqeyə malikdir.

- Növbəti Təhlükəsizlik Dialoqumuz adi silahlara nəzarət, eləcə də etimad və təhlükəsizliyin möhkəmləndirilməsi tədbirlərini əhatə edəcək. Azərbaycan öz təcrübəsinə əsaslanaraq, bu sahədə mövcud olan təhlükə və çağırışlara yaxşı bələddir. Son otuz ilə yaxın müddətdə biz, ərazilərimizin işğalı ilə bağlı status-kvonu gücləndirmək kimi yanlış cəhdlər çərçivəsində bütün tətbiq edilən silahlara nəzarət rejimlərinə, habelə etimad və təhlükəsizlik tədbirlərinə qəsdən məhəl qoyulmadığının və onlardan boyun qaçırıldığının şahidi olduq. Bu təcrübəyə əsaslanaraq, biz əminik ki, dövlətlərin mövcud rejimlər altında silahlara nəzarət və etimad və təhlükəsizliyin möhkəmləndirilməsi tədbirlərinə dair öhdəliklərini yerinə yetirməsi həm sözdə, həm də əməldə ATƏT regionunda sülh, təhlükəsizlik və sabitliyə mühüm töhfə verə bilər.

- Nəhayət, yekun Təhlükəsizlik Dialoqumuz münaqişədən sonrakı yenidənqurma məsələlərinə diqqət yetirəcək və ATƏT regionunda əldə edilmiş təcrübəyə əsaslanacaq. ATƏT-in münaqişə dövrü ilə bağlı alətləri Təşkilatın münaqişədən sonrakı yenidənqurmada geniş və əhatəli şəkildə iştirakı üçün əsası təmin edir.

- Azərbaycan TƏF sədrliyi müddətində Təşkilatın əsasını təşkil edən fundamental prinsiplərə hörməti təmin etməklə yanaşı, ümumi siyasi və hərbi öhdəliklərimizin həyata keçirilməsini təşviq etmək və gücləndirmək üçün digər iştirakçı dövlətlərlə fəal şəkildə işləyəcək.

İclasın sonunda nazir Ceyhun Bayramov Azərbaycanın TƏF sədrliyini təbrik edən, Azərbaycanın prioritetlərini dəstəkləyən və bu istiqamətdə Azərbaycanla birgə işləməyə hazır olduğunu ifadə edən bütün iştirakçılara minnətdarlığını ifadə etdi, səsləndirilmiş bir sıra rəy və təkliflərə münasibət bildirdi. Eyni zamanda, müzakirələr zamanı Ermənistan nümayəndəsi tərəfindən səsləndirilən əsassız iddialar rədd edildi və Azərbaycanın regional təhlükəsizliklə bağlı beynəlxalq hüquqa əsaslanan mövqeyi iştirakçıların diqqətinə çatdırıldı.

"Zeynalabdin Tağıyev Azərbaycanın inkişafına böyük töhfələr vermişdir"

Yanvar ayının 18-də xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Bakıda ucaldılan abidəsinin açılış mərasimi olub. Prezident İlham Əliyevin Sərəncamı ilə metronun "İçərişəhər" stansiyasının qarşısındakı meydanda ucaldılan abidə büründəndir. Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyətinin 2019-cu ildə heykəlin hazırlanması üzrə elan etdiyi açıq müsabiqədə layihələr arasından Xalq rəssamı Xanlar Əhmədovun əsəri qalib seçilib. Abidənin önündə Heydər Əliyev Fondu tərəfindən Azərbaycan və ingilis dillərində hazırlanan müvafiq məlumat lövhəsi quraşdırılıb. Eyni zamanda, Heydər Əliyev Fondu görmə qabiliyyətini itirmiş şəxslərin cəmiyyətə inteqrasiyasına dəstək məqsədilə lövhədə əks olunan məlumatları Brayl əlifbası ilə də təqdim edib.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də iştirak edib. Ölkə rəhbəri tədbirdə çıxış edərək abidənin Zeynalabdin Tağıyevin adına layiq olan bir yerdə ucaldıldığını qeyd edib: "Abidənin quraşdırıldığı yer Bakının tarixi yerlərindən biridir, şəhər sakinlərinin ən sevimli yerlərindən biridir, tarixi qala divarının önündədir. Tağıyevin abidəsinin məhz bu yerdə yerləşməsinin böyük rəmzi mənası var. Çünki Zeynalabdin Tağıyev ömrü boyu Bakının inkişafına, abadlaşmasına, ümumiyyətlə Azərbaycanın inkişafına böyük töhfələr vermişdir".

Çıxışı zamanı ölkə rəhbəri xüsusi olaraq vurğuladı ki, Hacı Zeynalabdin Tağıyev tarixdə zəngin adam kimi yox, məhz xeyriyyəçi kimi qalmışdır: "Hacı Zeynalabdin Tağıyev çox zəngin adam idi, amma hər kəs bilir ki, çox kasıb ailədə böyümüşdü və sərvətini öz zəhməti hesabına qazanmışdır. Əgər onun xeyriyyəçilik fəaliyyəti olmasaydı, yəqin ki, o, Azərbaycan xalqının yaddaşında qalmazdı. Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü ilə Azərbaycanda bir çox önəmli layihələr həyata keçirilmişdir. Onların arasında Bakıya təmiz içməli suyun gətirilməsi layihəsixüsusilə qeyd olunmalıdır. Şollar su kəməri bu günə qədər fəaliyyətdədir, bu günə qədər Bakını, Sumqayıtı təmiz içməli su ilə təmin edir. Bu kəmərin tikintisi üçün Zeynalabdin Tağıyev öz vəsaitindən istifadə etmişdir. Məhz onun təşəbbüsü və maliyyə dəstəyi ilə Bakıda teatr binası, bir çox sənaye müəssisəsi inşa edilmişdir. Bakıda tramvay xətlərinin açılması da Tağıyevin adı ilə bağlıdır. Bu gün Bakıya əlavə gözəllik verən, Bakının memarlığına töhfə verən bir çox gözəl binaların təşəbbüskarı

məhz Hacı Zeynalabdin Tağıyevdir".

Çıxışı zamanı Azərbaycan Prezidenti Tağıyevin təhsil sahəsinə olan diqqətini də qeyd etdi: "Xüsusi önəm verdiyini azərbaycanlı qızlar üçün ilk dünyəvi məktəb açılmışdır. Onun təhsillə bağlı təşəbbüsləri təkcə Bakı ilə məhdudlaşmırdı. Eyni zamanda, Naxçıvanda, Gəncədə, Şamaxıda, həmçinin Gürcüstanda azərbaycanlıların yaşadıqları bölgələrdə onun vəsaiti hesabına məktəblər açılmışdır. Yüzlərlə azərbaycanlı gənclərin Rusiyaya və Avropaya göndərməklə onların təhsil xərcini Hacı Zeynalabdin Tağıyev öz üzərinə götürmüşdür. Həmin o tələbələrin arasında Əziz Əliyev də olmuşdur. Əziz Əliyev qədim Azərbaycan torpağı olan İrəvan xanlığı ərazisində doğulmuşdur. O da Tağıyev kimi kasıb ailədən idi, oxumaq istəyirdi. Tağıyevə məktub yazıb xahiş etmişdi ki, ona maddi kömək göstərilsin. Tağıyev də onu təbii ki, tanımırdı, sadəcə olaraq, bir gəncin təhsilə olan belə marağını nəzərə alaraq ona pul göndərmişdir və Əziz Əliyev bu pul hesabına o vaxt Sankt-Peterburq Hərbi Tibb Akademiyasında oxumuşdur. İkinci Dünya müharibəsində onu Bakıdan Dağıstana ezam etmişlər. Bir neçə il Dağıstanın rəhbəri vəzifəsində işləmişdir və dağıstanlıları sürgündən xilas etmişdir. Mahaçqalada dağıstanlıların təşəbbüsü ilə Əziz Əliyevin abidəsi ucaldılmışdır".

Tağıyevin Azərbaycan üçün xidmətlərindən danışan ölkə rəhbəri bildirdi ki, Zeynalabdin Tağıyev Qurani-Kərimi Azərbaycan dilinə tərcümə etdirmişdir. İlk dəfə olaraq Qurani-Kərimi Azərbaycan dilinə tərcümə etdirən məhz Hacı Zeynalabdin Tağıyev olmuşdur. Onun təşəbbüsü və maliyyə vəsaiti hesabına Azərbaycanda bir çox dini abidə inşa edilmiş və təmir olunmuşdur;

Müstəqil Azərbaycanda xeyriyyəçilik ənənələrinin bu gündə davam etdiyini vurğulayan İlham Əliyev bildirdi ki, xeyriyyəçilik sahəsində Cənubi Qafqazda ən böyük təsisat Heydər Əliyev Fondudur.

Heydər Əliyev Fondu 20 ilə yaxındır ki, yaradılmışdır və bütün bu illər ərzində Fondun əsas məqsədi, vəzifəsi insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdir.

Ölkə rəhbəri bildirdi ki, Azərbaycanın multikultural dövlət kimi, müasir dövlət kimi dünyada tanıdılmasında Heydər Əliyev Fondunun müstəsna xidmətləri vardır. Məhz Fondun fəaliyyəti nəticəsində Azərbaycan daha çox tanınır və məhz bu amil bizə İkinci Qarabağ müharibəsi dövründə kömək göstərdi. Çünki Azərbaycan xalqı yaxşı bilir ki, o vaxt erməni lobbisi və onun havadarları Azərbaycan haqqında olmazın yalanlarını uydurub media məkanına atmışlar. Ancaq uzun illər ərzində Heydər Əliyev Fondunun müxtəlif ölkələrdə fəaliyyəti və Azərbaycanın müasir, mütərəqqi dövlət kimi tanıdılması bu təbliğatı alt-üst etmişdir.

Heydər Əliyev Fondunun qarşısında duran vəzifələr barədə danışan prezident bildirdi ki, ənənəvi fəaliyyətlə yanaşı, bu gün Fond azad edilmiş torpaqlarda geniş fəaliyyətə başlamışdır. Fondun təşəbbüsü ilə azad edilmiş torpaqlarda hazırda dini abidələrimizin əsaslı təmiri, bərpa edilməsi və inşası prosesinə start verilib. Şuşa şəhərində Yuxarı Gövhərağa, Aşağı Gövhərağa, Saatlı məscidləri, Ağdam şəhər məscidi Heydər Əliyev Fondu tərəfindən əsaslı bərpa edilir, Zəngilan şəhər məscidi də həmçinin. Eyni zamanda, Daşaltıda, Hadrutda və Şuşa şəhərində yeni məscidlərin tikintisi də məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilir. Məcburi köçkünlər üçün yeni evlərin yaradılması da Heydər Əliyev Fondunun təşəbbüsü ilə geniş vüsət almışdır.

Çıxışı zamanı müharibədən sonra yaradılmış Qarabağ Dirçəliş Fondu və "YAŞAT" Fondu barədə də fikirləri bölüşən prezident bildirdi ki, bu fondlar da Azərbaycanda xeyriyyəçilik ənənələrin inkişafına xidmət edir və bu cəmiyyətdə çox yüksək qiymətləndirilir. Azərbaycan vətəndaşları, eyni zamanda, şirkətlər könüllü olaraq həm Qarabağ Dirçəliş Fonduna, həm "YAŞAT" Fonduna vəsait təqdim edirlər və bu vəsait hesabına bu gün yüzlərlə qazi həm Azərbaycanda, həm xaricdə müalicə alır, həyata qayıdır, öz sağlamlığını bərpa edir.

Qeyd edək ki, 2000-ci illərin əvvəllərində Zeynalabdin Tağıyevin qəbrinin yerləşdiyi Pir Həsən ziyarətgahı abadlaşdırılmışdır. 2003-cü ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə onun evi, hazırda Tarix Muzeyinin binası əsaslı təmir edilmişdir.

Nicat Novruzoğlu

Manatın məzənnəsinin qorunub saxlanılması üçün...

Son günlər ölkədə baş verən ümumi bahalaşmanın fonunda Azərbaycan manatının dəyərdən düşəcəyi haqqında müxtəlif şaiyələr səslənir. Bəzən sosial şəbəkələrdə artıq qara bazarda ABŞ dollarının qalxdığı barədə qeyri rəsmi məlumatlara rast gəlsək də hazırda 1 dollar 1,7 manat səviyyəsində qalır. Mütəxəssislərin fikrincə dövlətin əsas maraqlarından biri manatın stabilliyini təmin etməkdir.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov manatın məzənnəsinin inzibati üsulla qorunub saxlanılmasına münasibət bildirərək deyib ki, uzun illərdir ki, manatın məzənnəsi inzibati yolla qorunub saxlanılır. Amma proses bir bu qədər də davam edə bilməz. V.Əhmədovun sözlərinə görə, manat inzibati yolla saxlanılır və qorunub saxlanılması üçün də kifayət qədər ehtiyat var: "Ölkə daxilində baş verənləri, inflyasiyanı, idxalı, ixracı, pulun dövriyyəsilə bağlı prosesləri görürük. Məzənnənin inzibati yolla qorunub saxlanılması nə qədər davam edəcək, 6 ay, bir il bilinmir. Amma gec-tez sərbəst buraxılacaq və "tam üzən məzənnə"yə keçiləcək".

Deputat hazırda manatın qorunmasının əhəmiyyətini Qarabağda aparılan quruculuq işləri ilə əlaqələndirib: "Qarabağda tikinti işləri başlayıb. Orada xarici şirkətlər işləyirlər. Onlar istəyirlər ki, milli valyuta stabil olsun, onlar üçün problem yaranmasın. Manatın məzənnəsinin qorunub saxlanılması əlbəttə dövlət, millət üçün əhəmiyyətlidir. Amma bunun da da bir vaxtı gələcək ki, manat mütləq sərbəst valyuta olacaq".

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin digər üzvü deputat Vüqar Bayramov məsələyə münasibət bildirərək qeyd edib ki, adətən maliyyə ilinin sonunda dollara tələb artması müşahidə olunur. Dekabrda dollara tələbin artması ənənəvi valyuta tələbi ilə bağlı idi. Pandemiyaya baxmayaraq, yenə də xarici səfərlərin sayı az deyildi, bir sıra dövlət və özəl qurumlar xarici borc öhdəliklərini yerinə yetirirdilər və bayramlarla bağlı olaraq idxala tələb artırdı.

Deputatın sözlərinə görə, bununla yanaşı, ilin birinci ayı adətən dollara tələb optimal olur, lakin bankların alış kursunu artırması göstərir ki, bəzi bankların özündə dollar tələbi yüksəlib.

Vüqar Bayramov bildirib ki, Azərbaycanda üzən valyuta rejiminə keçid başa çatmadığı üçün manatın kursu birbaşa Mərkəzi Bankın intervensiyası ilə müəyyənləşir: "Yəni, üzən valyuta sistemlərində məzənnəni bazar təklifinə uyğun proqnozlaşdırmaq olur, amma əgər məzənnə fiksdirsə, o zaman dəyişikliklər birbaşa Mərkəzi Bankın mövqeyindən asılı olur".

Neft Fondunun hərraca çıxartdığı vəsaitlərin həcmi dollara olan tələbin ödənilməsində çox önəmlidir-deyən deputat bildirib ki, "bu da təbii ki, manatın məzənnəsi baxımından vacib hesab olunur. Nəzərə alsaq ki, xarici ölkələrdəki tərəfdaşlarımızda da milli valyutaların məzənnələri əslində iqtisadi faktorlardan biridir. Bütün bunlarla yanaşı, praktiki olaraq, manatın məzənnəsi birbaşa Azərbaycan Mərkəzi Bankının qərarından asılıdır. Mərkəzi Bank prosesə birbaşa intervensiya etmək imkanlarını qoruyub saxlayır.



Ona görə də manatın məzənnəsinin necə dəyişməsi birbaşa Azərbaycan Mərkəzi Bankının mövqeyindən asılı olacaq".

İqtisadçı-ekspert Elnur Quliyev isə məsələ ilə bağlı bildirib ki, banklarda dollar alışı üzrə qiymətlərdə artım bazarda tələb-təklif amilindən irəli gəlir: "Son günlərdə ABŞ Federal Ehtiyat Sisteminin faiz uçot dərəcəsinin artırılması və sərt monetar siyasətə keçid ilə bağlı xəbərlər bütün dünyada dolların digər valyutalara nisbətdə məzənnəsinin artması ilə nəticələnib. Bu faktor təbii ki, ölkəmizdən də yan keçməyə bilməzdi. İdaxaldan asılı ölkə kimi dolların devalvasiya riskini gözə alaraq daxili bazarda dollara tələbin kəskin artması müşahidə olunur. Bu tələbə təsir edən əsas səbəblərdən biri də yaxın zamanda manatın devalvasiya edəcəyi ilə bağlı şaiələr idi. Hətta taksi sürücüləri belə bu barədə danışır. Belə davam etsə, sanki 2020-ci ilin mart ayındakı ssenari təkrarlana bilər. Lakin hesab edirəm ki, cari ildə devalvasiya üçün ciddi səbəb yoxdur. Nəzərə almaq lazımdır ki, manatın məzənnəsi üzən məzənnə rejimində deyil. Milli valyutanın məzənnəsini Mərkəzi Bank hökumətlə birgə təyin və təmin edir".

E. Quliyevin sözlərinə görə, dünya neft bazarındakı qiymətlər və Mərkəzi Bankın maliyyə göstəriciləri yaxın gələcəkdə devalvasiya ehtimalını azaldır: "Həmçinin nəzərə almaq lazımdır ki, Azərbaycanın əsas ixrac resursu olan neftin və qazın qiymətləri yüksələn istiqamətdədir və burada ciddi risk ehtimalı yoxdur. Dünya neft bazarındakı qiymətlər və Mərkəzi Bankın maliyyə göstəriciləri yaxın gələcəkdə devalvasiya ehtimalını azaldır. Hesab edirəm ki, hökumət 2022-ci ildə də makroiqtisadi sabitliyin qorunması məqsədi ilə fiskal və monetar siyasətlərin optimal əlaqələndirilməsi ilə manatın dollara qarşı məzənnəsinin 1,7 səviyyəsində olmasını dəstəkləyəcək".

Ölkə rəhbəri Prezident İlham Əliyev də yerli telekanallara müsahibəsində manatın məzənnəsi məsələsinə toxunub. Ölkə başçısı bildirib ki, hökumət bir neçə il bundan əvvəl çox ağır addımın atılmasına məcbur olub: "Manatın qiymətdən düşməsi insanların rifah halına mənfi təsir göstərmişdi. Amma o addımı biz mütləq atmalı idik. Əgər biz o addımı atmasaydıq, bütün valyuta ehtiyatlarımızı xərcləyə bilərdik. Onsuz da bu addımın gecikməsi ona gətirib çıxarmışdı ki, Mərkəzi Bankın valyuta ehtiyatları böyük dərəcədə tükənmişdi. Təqribən 10 milyard dollar vəsait manatın sabit saxlanmasına istifadə edilmişdi. Nəticə etibarilə Mərkəzi Bank manatı sabit saxlaya bilmədi və biz 10 milyard dollar valyutanı itirdik".

Manatın sabit qalmasının əhəmiyyətini vurğulayan ölkə rəhbəri bildirib ki, "Azərbaycan bəlkə də nadir ölkələrdən biridir ki, bizdə xarici ticarət balansının saldosu müsbətdir.

Çünki dünyanın əksər ölkələrində idxal ixracı üstələyir. Bizdə isə ilin yekunlarına görə, ixrac idxalı böyük dərəcədə üstələyib və müsbət saldo 10 milyard dollardan çoxdur. İqtisadiyyatla məşğul olan hər bir adam bunun nə dərəcədə əhəmiyyətli olmasını görür. Əlbəttə ki, ilk növbədə, manatın sabit qalmasına bunun ən böyük təsiri var. Uzun illər ərzində manat sabitdir və həm ölkə əhalisi bundan faydalanır, həm də manata inam böyük dərəcədə artıb. Manat depozitlərinin həcmi artır və ümumi depozitlərin balansında artıq üstünlük təşkil edir. Bunun investorlar üçün də çox böyük faydası var. Çünki investorlar da görürlər ki, milli valyuta sabitdir. Belə olan halda investisiyalar, o cümlədən xarici investisiyalar daha böyük həcmlə təşkil oluna bilər".

Qeyd edək ki, AMB sədri Elman Rüstəmov 2021-ci ilin sonları ilə bağlı brifinqdə jurnalistlərin suallarını cavablandırarkən bildirmişdi ki, "biz manatı zorla tutub saxlaya bilmərik, manatın məzənnəsini inzibati yolla tənzimləmək mümkün deyil".

Nicat Novruzoğlu

Aqil ABBAS

QIRILAN RUS VƏ UKRAYNALI OLACAQ, AMERİKALI YOX

Jirinovskiyə adətən yüngül xasiyyətli, çılğın bir adam kimi baxırlar. Və elə biz də. Əslində isə ağıllı adamdı. Dediyi sözlər də heç də öz sözü deyil, Putinin fikirləşdikləri və onun diliylə söylədikləridi.

Ukraynadakı vəziyyət hamımıza məlumdur, dalana dirənib. Əgər çıxış yolu tapmasalar, güman ki Rusiya Ukraynanı işğal edəcək. ABŞ başda olmaqla NATO Saakaşvilinin dalından necə qaçmışdısa, güman ki Zelenskinin də dalından elə qaçacaq. Uzaqbaşı, bir-iki bəyanat və Rusiyaya müəyyən sanksiyalar tətbiq ediləcək.

40 ildi İrana sanksiya tətbiq ediblər, amma İran yaşayır, hərbi qüdrətini də artırır, yəni ölməyib. Rusiyaya da tətbiq ediləcək sanksiyalar ölkədə müəyyən fəsadlar yaratsa da, sanksiya ilə Rusiyanı məhv etmək olmaz. Nəhəng ölkədir və kartofu, kələmi varsa ac qalmayacaq. Belə bir söz var, ac qılınca çapar. Uzaqbaşı, Rusiya qılıncını sıyıracaq, bu da dünya savaşı deməkdir.

Qayıdaq Jirinovskiyə. Jirinovski "Rossiya" telekanalında canı yayımda Rusiyanın nə edəcəyini bir-bir açıqladı.

Bildirdi ki, əvvəl-əvvəl SSRİ-ni bərpa edəcəyik, Orta Asiya respublikalarını, Moldovanı, Ukraynanı, Pribaltikanı birləşdirəcəyik. Yenə sağ olsun, dedi ki, Zaqafqaziyaya sonra baxarıq. Və daha sonra söylədi ki, Avropa ölkələrini darmadağın edəcəyik, qoy yansınlar. Hələ ABŞ-ın şəhərlərinə də nüvə bombası atacayıq. ABŞ-ı və Avropanı Rusiyaya tabe etdirəcəyik. Deyir ki, Avropada dövlətlər var, İngiltərə, Fransa, Almaniyanı çıxandan sonra? Yerdə qalan dövlətlərin bir şapalaqlıq canı var.

Daha sonra deyir ki, Avropa qazının 40 faizini Rusiya verir. Qazın qiymətini 3000 dollara çatdıracağıq, özü də pulunu da rublla tələb edəcəyik.

Çox söz dedi, hamısı yadımda qalmayıb. Bir sözlə, qan-qan deyirdi, od püskürürdü.

Ukraynalılarla ruslar ya ata bir, ana ayrı qardaşdılar, ya da ana bir, ata ayrı qardaş. Min ildi bir-birlərinə qarışıb yaşayırlar. Kimin rus, kimin ukraynalı olduğunu heç özləri də bilmir. Milyonlarla rus ukraynalı ilə ailə qurub və ya tərsinə. Rusların statistikasına görə, guya Ukraynada 20 milyon rus yaşayır. Bu nə qədər dəqiqdi, bilmirəm.

İndi qardaşı qardaşla düşmən ediblər. Və müharibəyə cəlb etmək istəyirlər. Rusiyayla Ukraynanı müharibəyə cəlb etmək istəyənlər oturublar isti evlərində, qırx eşşəkləri də sağına gəlir. Müharibə olarsa qırılan rus və ukraynalı olacaq. Dağılan kəndlər və şəhərlər Rusiyanın və Ukraynanın olacaq. Qaçqınlar güman ki, ukraynalılar olacaq. Avropa Suriyanın, Liviyanın, Əfqanıstanın qaçqınlarını necə qarşılayırsa, Ukraynanın qaçqınlarını da elə qarşılayacaq - dəyənəklə, sillə-yumruqla.

Jirinovski vaxt da verdi ki, müharibəni martda başlayıb mayda bitirəcəyik və mayın 9-da ikinci Qələbə gününü elan edəcəyik.

Rusiyanın ekspertləri də Solovyov və digər aparıcıların verilişlərində Ukrayna ilə Rusiyanı barışdırmaq istəyənləri lağa qoyur.

Böyük Vətən Müharibəsi görmüş bir xalqın, bir millətin yenidən müharibə istəməsi əslində ağılsızlıqdır. Hələ ki diplomatik addımlar tükənməyib.

Sayın Ərdoğan bildirib ki, Putinlə Zelenskini fevralda Türkiyəyə dəvət edib onların üzbəüz görüşünü təşkil etmək niyyətindədir. Öz xoş niyyətini ortaya qoyub. Amma təəssüf ki, Solovyov kimilər bu fikrə ironiya ilə yanaşırlar.

ABŞ-ın prezidenti Co Baydenin də bir saatlıq mətbuat konfransında sözünün əvvəli ilə axırı düz gəlmirdi. Qabağına yazılıb qoyulmuş hazır mətnləri də qarışdırırdı. Ona görə də bir jurnalist hətta onun ağlıyla məzələndi.

Bir dəfə yazmışıq və yenə yazırıq, əvvəllər dövlət başçıları əllə görüşərdilər, indi yumruqlaşırlar və bir-birlərinə dirsək göstərirlər.

Tanrı bizi superdövlətlərin yumruqlaşmasından qorusun.

Fazil Mustafa

Prezident bu qanmazlara izah edir ki...

Görəsən Avropada Fransa qədər diplomatik tərbiyədən uzaq ikinci bir dövlət varmı? Maraqlıdır ki, özlərinin Milli Assambleyasına da xeyli belə tərbiyəsizləri yerləşdiriblər və gücləri çatan ölkələrə qarşı yekəxana tərzdə açıqlamalar verirlər. Azərbaycan Prezidenti bu qanmazlara izah edir ki, sənin prezidentliyə namizədin sərhədlərimizi pozaraq Azərbaycan ərazisinə daxil olur və terrorçularla əməkdaşlıq edir, əvəzində Milli Assambleyanın Respublikaçılar partiyasından olan üzvü Erik Siotti ədəbsizlik edərək dövlət başçısını təhqir etməyə özündə cəsarət tapır.

Ardınca isə Fransanın Avropa və xarici işlər üzrə naziri Jan İv Lö Drian bu ilin yanvarın 18-də bu ölkənin Milli Assambleyasında ağıllı diplomata yaraşmayan tərzdə açıqlama verib Valeri Pekres adlı prezidentliyə namizəd olan başıpozuq qarının Azərbaycanın Qarabağ bölgəsinə qanunsuz səfərinə haqq qazandırmağa çalışır.

Üstəlik də Azərbaycan Prezidentinin bu qanuntanımaz terrorçularla əməkdaşlıq edən qarının əməlləri ilə bağlı söylədiyi fikirlərin "forma və mahiyyət etibarilə qəbuledilməz olduğunu" bildirir.

Fikrimcə nazir Lö Drian digər ölkənin dövlət başçısının açıqlamasını olduqca ədəbsiz və məsuliyyətsiz formada şərh etməklə diplomatik ənənələri pozmuşdur.Prezident İlham Əlyevin Valeri Pekress, Mişel Barniyer və Brüno Retayyonun Azərbaycanın ərazilərinə qanunsuz səfəri ilə bağlı açıqlamaları birbaşa suveren dövlətin beynəlxalq hüququn tələblərini xatırlatmağa əsaslanır və tamamilə məntiqlidir.

Əslində prezident əli Azərbaycan xalqının qanına bulaşmış terrorçuları dəstəkləyən bu qanuntanımız fransız vətəndaşlarını yumşaq üslubda tərbiyələndirməyə, islah etməyə çalışıb və Pekresin Fransa prezidentliyinə namizədlik statusunun Azərbaycan ərazisində deyil, yalnız Fransada keçərli olduğunu xatırladıb. Onsuz da Azərbaycanda Fransa 44 günlük müharibə və ondan sonrakı dövrdə işğalçı Ermənistanın tərəfində yer alan və terroru dəstəkləyən ölkə kimi tanınır. Üstəlik Fransa Milli Assambleyasının tarixdə anoloqu olmayan elə bir həyasızlığa imza atıb ki, bunun izahını heç zaman beynəlxalq hüquq nöqteyi-nəzərindən verə bilməyəcəklər. Belə ki, Milli Assambleyanın hər iki palatası hətta Ermənistanın belə tanımadığı qondarma "Dağlıq Qarabağ Respublikasını" tanımağa çağıran sənədlər qəbul edib.

Fikrimcə, Avropa məkanında Azərbaycanın beynəlxalq mövqeyini və nüfuzunu sarsıtmaya çalışan fransalı siyasətçilərin və vəzifəli şəxslərinin Azərbaycan dövlətinə, onun başçısına yönəlik böhtan, təhqir və ədəbsizliklərə qarşı ən sərt formada cavab verilməlidir.

Tokayev etiraf etdi

Ölkədə baş verən iğtişaşların kökündə varlılarla kasıbların gəlirləri arasındakı uçurum dayanır.

Bunu Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayev deyib.

"Varlı ilə kasıb arasındakı uçurum qəbuledilməz həddə çatıb. Sizə yaxşı bəlli olan korrupsiya fonunda gəlirlərdəki bu təbəqələşmə terrorçuların və onların arxasında duran sui-qəsdçilərin istifadə etdikləri barıt çəlləyində yandırılmış kibrit rolunu oynadı", - Tokayev bildirib.

Onun sözlərinə görə, baş verənlər illərdir yığılıb qalmış problemləri üzə çıxarıb.

Mehriban

Eminquey

"Topçubaşov"da "zaloq qoy, araba götür" sistemi, taksavatlıq edən tibb bacısı...

M. Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi...

Xəstəxananın qapısında durub bu nəhəng xəstəxanaya baxanda, bu adı oxuyanda əzəmətin altında bükülürsən. İlahi, necə də möhtəşəmdir! Necə də millidir!

Qapıları da müasirdir, toxunuşla açılır, indi gör içində necə şərait, ədəb-ərkan var...

Qapıdan ayağını içəri qoyadan isə sanki adamı top atəşinə tuturlar. Zənn etməyin ki, üstünüzə hücum çəkirlər, xeyr. Sadəcə içəridə elə bir alverə müştəri olursan ki, qəddin-qamətin əyilir. Alver deyəndə insan alverini nəzərdə tutmuram, haşa! Nə həddimə! Ömür boyu heç bir sətrimdən şər tökülməyib. Sadəcə bu xəstəxananın içində elə primitiv çətinliklərlə üz-üzə qalırsan ki, xəstələnməmək, ölüm ayağına düşməmək üçün dirilik suyu axtarmaq eşqinə düşürsən.

Xalamın həyat yoldaşını səhhətilə bağlı buraya gətirmişik. Həm sığorta etdirməyə, həm də təriflənən cərrahlardan birinin yanına yoxlatdırmağa. Kişinin bir ayağını qanqren səbəbilə kəsiblər deyə yerimək onun üçün müşkülə çevrilib. Xəstəxananın girişində araba istədik. Əvvəlcə dedilər ki, araba yoxdur. Daha sonra bir qadına yönləndirdilər. Arabanı ondan götürəndə "zaloq" istədi. Duruxduq.

- Arabalarımız azdı, üç dənə arabımızı oğurlayıblar, ona görə "zaloq" istəyirəm.

Sarğı otağına tələsirdik deyə qadınla artıq kəlmə kəsmədik. Telefonumuzu "zaloq" qoyub arabanı götürdük. Üçüncü mərtəbədəyik, liftlə aşağı düşməliyik. Liftə minib birinci mərtəbəni basdıq, lift bir mərtəbə də yuxarı qalxıb dördüncü mərtəbədə dayandı. İki nəfər mindi. Onlar üçüncü mərtəbəyə düşürdülər. Üçə enəndən sonra təzədən biri basdıq, lift beşə qalxmağa başladı. Bunlar da ikinci mərtəbəyə düşəcəkdilər. Bizdən də neçəyə düşdüyümüzü soruşdular, birə düşəcəyimizi dedik. Lift ikiyə düşdü. İkidə artıq heç kim minmədi. Birinci mərtəbəni sıxdıq, qapı bağlandı və qısa müddət heç bir tərpəniş olmadı. Və qəfil lift yenidən yuxarı tərpəndi. Liftin içində girinc vəziyyətdə dördə qalxdıq. Nəhayət dilləndim:

- Biz birinci mərtəbəyə düşə biləcəyik?

Liftə minənlərdən biri:

- Bu lifti birə salmaq üçün gərək aşağıda mühafizəyə xəbər verəsiz.

Hayda...

Əsəb içində ikinci mərtəbədə liftdən düşüb qaça-qaça birə endim, mühafizəçiyə xəbər verdim, gəldi, kartını yaxınlaşdırdı və biz onlar araba ilə aşağı düşdülər.

Mühafizəçilə qısaca söhbətləşdim.

- Belə şey olar? Çıx-düş, çıx-düş, atraksiona minmişik elə bil.

- Müsəlmanıq e, belə lazımdı. Bu lift arabayla qalxıb-düşənlər üçündü, ona görə də kartla etmişik, arabasızlar da bu liftə minir. Aşağıdan qoymuruq, amma yuxarıda minə bilirlər. Yuxarıdan xəbər gəlsə ki, arabayla kimsə düşür, onda kartı vururuq, lift birə düşür. Siz də ona görə yarım saatdı liftdə çıx-düşə ilişmisiz.

- Qardaş... bir gün bir qadın həkimə gedir, deyir, həkim, ərim özünü lift zənn edir. Həkim soruşur ki, bəs əriniz sizinlə niyə gəlməyib? Qadın qayıdır ki, gətirəcəm e, amma heç cürə bu mərtəbədə dayana bilmir. İndi bax, Allahaqqı, yuxarı çıxıb-düşməkdən özümü mən də o kişi kimi hiss edirəm.

Bu vəziyyət xalamın ərini araba ilə yuxarı qaldırıb aşağı salanda da belə davam elədi.

Öyrəndim ki, belə bir sistem özəllərdə də var, amma özəl xəstənalarda arabanı xəstəxananın personalı sürür, öz kartı ilə liftə rahatca minə bilir. Xəstələrin bu qədər zülm çəkməyinə də ehtiyac qalmır. Biz isə burada özbaşına, bir mühafizəçidən asılı vəziyyətdə qalmışıq.

Araba mövzusuna o qədər ilişib qalmışam ki, gözüm arabadan başqa heç nəyi görmür. Uzaqdan bir qadının araba sürə-sürə gəldiyini görürəm. Bəstəboy, qaraşın, Bakı ləhcəsində, tez-tez danışan bir qadındır. Telefonuna zəng gəldi: "Şir həmişə şirdi". Təzə meyxanalardandı. Zənginə qoyub. Bir əli arabada, o biri əlində telefonla hansısa sənəd. telefonu qulağına qoymaq üçün zülm çəkir. Nəhayət bacardı, amma əlindəki sənəd şappıltı ilə üzünə yapışdı, araba səkkiz yazmağa başladı, dedim, bu dəqiqə qəzaya düşəcək. Dodaqlarımı büzüb durmuşam ki gülməyim, ayıbdı. Birtəhər özünü düzəltdi. Yanımda duran xəstələrdən biri qayıtdı:

- Arvada baxırsan deyəsən.

Gülümsəyib razılaşdım.

- Neçə vaxtdı bura gəlib-gedirəm. O araba arvadın öz arabasıdı. Öz puluyla alıb. Xəstəxanada işləyir, həm də arabasıyla...

Sözünü kəsib dedim:

- ... "taksavatlıq" edir.

Gülüşdük.

- Hə də.. Beşdən-üçdən qazanır da.

Elə bu dəm qadın xəstə yaxınlarından birinə yaxınlaşdı.

- Xəstəni apardım. Gəl bi dəğə qırağa.

Bu sözündən başa düşdüm ki, arı bu dəqiqə şirəsini çəkəcək, adı da olacaq şirinlik.

Taksavatlıq edən tibb bacısını çörəyilə baş-başa qoyub sığortaya yaxınlaşdıq. İcbari sığortanı həll etmək o qədər müşkül, vaxt aparan bir şeydir ki...

Üstəgəl, sığorta bölməsi xəstəxanın düz girişindədir. Özü açılıb-bağlanan qapı iki dəqiqədən bir açılır, insanlar girir-çıxır. Külək içəridə o qədər cərəyan edir ki, çöl içəridən isti olur. Ciddən deyirəm. Düz 5 saat sığorta bölməsinin pəncərəsindən asılı qaldıq. Belimiz, bədənimiz, ayaqlarımız buz bağladı. İnanın Hippokratın əziz ruhuna, mühafizəçilər bir-birilərinin quluncunu qırırdılar.

"Filan xəstəxanada filan aparat yoxdur" - dedilər. Zülmhazülm həkimlə maraqlandıq, həmin aparat olan xəstəxanını tapdıq, göndərişi yazdılar və üç saat da onu gözlədik.

Vətəndaşlardan biri dilləndi:

- Nə var, nə var icbari sığortadı, xərcləri dövlət qarşılayacaq, bəhanə gətirirlər ki, filan xəstəxanada filan aparat yoxdu.

Adamın bu sözü ilə növbədə qarmaşa düşdü. Hamı danışmağa başladı.

Biz isə artıq sığorta bölməsinin qarşısında gəlib-gedən xəstələri yönləndirməyi də öyrənmişdik. Bura gedin, filan şey oradadır. Doğmalaşmışdıq, özümüzü xəstəxananın personalı kimi hiss edirdik.

Beş saatımızın müqabilində cavab gəldi - Qeydə alındı! Sığortanın 10 gün müddəti var!

Səfəvi dövründə çapar göndərsəydik, bundan tez cavab gətirərdi. Xalaoğlu dilləndi:

- Day keçib, mənə də sığorta üçün göndəriş yazın. Ayaqlarım tutulub, qanqrten olacaq, gedib anju elətdirim.

Qızlar gülüşdülər.

Həqiqətən də güzəştlərlə müalicə olunmaq üçün saatlarla dayandığımız bu yerdə adam koronaya yoluxar, xəstələnər, çul düşər. Ki, kasıb da elə bu zülm üçün doğulub.

Xülasə, sonra arabamızı təhvil verib, telefonumuzu götürüb "Topçubaşov"dan naxoş xatirələrlə ayrıldıq. Bir adamın gözləri iki görürmüş, dostuna vəziyyətini deyəndə o da qayıdıb ki, gözünün birini bağla. İndi mən də gözümün birini bağlayıb gördüklərimin çox az qismini yazdım, hələ görmədiklərim də var.

Amma nə yaxşı ki, heç olmasa, girişdə aparatlar var idi, 1 manata 15 qəpiklik isti kofedən içib ayaq üstdə durmağa biraz taqət, biraz da istilik tapa bilmişdik.

Və bir də acı təbəssüm.

Təbəssüm qana ən tez qarışan dərmandır, barı təbəssüm bizi bu boyda həngamənin içində sağaltsın, yoxsa məmləkətin xəstəxanalarında adam havalanar.

Amma öz aramızdı, arabayla "taksavatlıq" edən qadının işinə gözüm düşdü. Məncə bu haqda düşünmək olar...

DİN-də Kollegiya iclası keçirildi

Yanvarın 18-də Daxili İşlər Nazirliyində cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə respublika daxili işlər orqanlarının 2021-ci ildəki fəaliyyətinin nəticələri və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.

Nazirlikdən Adalet.az-a verilən məlumata görə, videokonfrans formatında keçən iclası giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən fəal hüquq mühafizə siyasətinin məntiqi nəticəsi olaraq ölkəmizdə möhkəm təməllərə söykənən ictimai asayiş və sabitlik 2021-ci ildə də etibarlı qorunub. Daxili işlər orqanları tərəfindən əvvəlki illərdə əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli işlər görülüb. Eyni zamanda, o, daxili işlər orqanlarının və Daxili Qoşunların cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi, xüsusi karantin rejiminə nəzarətin həyata keçirilməsi sahəsində xidməti vəzifələrin öhdəsindən layiqincə gəldiyini, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə və işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyi etibarlı təmin etdiyini vurğulayıb.

Nazir V.Eyvazov hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, 2021-ci ildə əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan dövlət qurumları üzrə 31.131 cinayət qeydə alınıb və onlardan 94,2 faizi daxili işlər və prokurorluq orqanlarının prosessual qaydada araşdırdığı hüquqazidd əməllər olub. Cinayətlərin 84 faizini böyük ictimai təhlükə törətməyən və az ağır növlər təşkil edib.

Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri ilə cinayətlərin 88,9 faizinin açılması təmin edilib. Ayrı-ayrı hüquqazidd əməllərin açılmasının nəticələri də yüksək olmaqla ağır və xüsusilə ağır cinayətlərin 82,9, qeyri-aşkar şəraitdə baş verənlərin 83,4, şəxsiyyət əleyhinə olanların 97,9, mülkiyyət əleyhinə olanların 79,9 faizi açılıb. Vətəndaşların iştirakı ilə açılan cinayətlərin sayı isə hesabat dövründə 39 faiz artaraq 7837 fakt təşkil edib.

Prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 332 cinayət üzrə təqsirli şəxslər müəyyən edilərək məsuliyyətə cəlb olunub.

O da qeyd olunub ki, müqayisə edilən dövrə nisbətən 2021-ci ildə şəxsiyyət əleyhinə olan cinayətlər 4,3, o cümlədən qəsdən adam öldürmələr 13, adam öldürməyə cəhdlər 16,7, qəsdən sağlamlığa az ağır zərər vurmalar 2,7, odlu silahın tətbiqi ilə baş verən cinayətlər 21,4, yetkinlik yaşına çatmayanlar tərəfindən törədilənlər 31, oğurluqlar 3,3, onlardan mənzillərdən edilənlər 14, soyğunçuluqlar 26 faiz azalıb.

Həyata keçirilmiş operativ tədbirlər nəticəsində 268 kriminal qrup zərərsizləşdirilib, odlu silah saxlayan və daşıyan 188 şəxs cinayət məsuliyyətinə cəlb edilib.

Qanunsuz dövriyyədən 2020-ci illə müqayisədə 1,1 ton çox - 3 ton 45 kiloqram narkotik vasitənin çıxarıldığını, 174 tondan artıq narkotik xassəli bitkilərin aşkarlanıb məhv edildiyini vurğulayan nazir V.Eyvazov son illər müvafiq sahədə görülən işləri müsbət qiymətləndirib. Bu bəlaya qarşı mübarizədə hər kəsin ümumi işə real köməkliyinin vacibliyini, həmçinin narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə vətəndaşların məlumatları əsasında müsbət nəticələri olan bir çox əməliyyatların keçirilidiyini xüsusi vurğulayıb və bu növ cinayətlərin açılmasında da fəal vətəndaşlıq mövqeyi sərgiləyən şəxslərə təşəkkür edib.

Yeniyetmələr və gənclər arasında antinarkotik təbliğatın daha məqsədyönlü davam etdirilməsinin vacibliyinə də toxunan nazir bu istiqamətdə əsas diqqətin ölkədə narkotiklərə tələbatın azaldılmasına yönəldilməsinin əhəmiyyətini nəzərə çatdırıb. Daxili İşlər Nazirliyinin bu məsələdə cəmiyyətin yetkin təbəqəsinə, sağlam düşüncəli hər bir vətəndaşa güvəndiyini, mediadan, sosial şəbəkələrin aktiv istifadəçilərindən, o cümlədən bloggerlərdən daha böyük gözləntilərinin olduğunu qeyd edib.

Vətəndaş məmnunluğunun təmin olunması, ərizə və şikayətlərin obyektiv, həssaslıqla araşdırılması, qanunçuluğun qorunması, şəxsi heyətin etik davranış qaydalarına riayət etməsi kimi mühüm vəzifələrin icrasına da diqqət çəkən general-polkovnik Vilayət Eyvazov bu istiqamətlərdə böyük bir fəaliyyətin ortaya qoyulduğunu, nəticələrin müsbət olduğunu, o cümlədən vətəndaşların qəbulu və minlərlə müraciətinin araşdırılması zamanı qaldırdıqları məsələlərin əksəriyyətinin qanunauyğun həllini tapdığını, "102" Xidmətinə, qaynar xətlərə daxil olmuş, sosial şəbəkələrdə yayımlanmış hər bir müraciətə çevik reaksiya verildiyini, cinayətlər nəticəsində vurulmuş maddi ziyanın təxminən 90 faizinin ödənildiyini, əhaliyə göstərilən elektron xidmətlərin müasir tələblərə uyğun təkmilləşdirildiyini nəzərə çatdırıb.

İclasda Bakı şəhər Baş Polis İdarəsinin rəisi polis general-mayoru Əkbər İsmayılov, Baş Mühafizə İdarəsinin rəisi polis general-mayoru Nurullah Məmmədxanlı, Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi polis general-mayoru Oqtay Kərimov, Gəncə şəhər Baş Polis İdarəsinin rəisi polis general-mayoru Teymur Hacıyev, Sumqayıt şəhər Polis İdarəsinin rəisi polis polkovniki Fəqan Azadəliyev və ərazi polis orqanlarının rəisləri hesabat məruzəsi ilə çıxış ediblər.

İclasa yekun vuran daxili işlər naziri 2021-ci ildə əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ümumi işə mənfi təsir göstərən halların mövcudluğunu da nəzərə çatdıraraq onların hərtərəfli təhlili, aradan qaldırılması yolları, həmçinin qarşıda duran vəzifələrlə bağlı konkret tapşırıq və tövsiyələrini verib.

General-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə, şəxsi heyətinin sosial müdafiəsinin gücləndirilməsinə, infrastrukturunun yenilənməsinə göstərdiyi ali diqqət və qayğıya, fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirib və əmin edib ki, respublikada asayişin, daxili təhlükəsizliyin, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində vəzfələr bundan sonra da layiqincə yerinə yetiriləcək.

Alimdən Ramiz Mehdiyevə etiraz: "İstefa verəcəm..."

"20 yanvar Ümumxalq Hüzn Günü ərəfəsində AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin ştat cədvəli üzrə 250-dən çox elmi və texniki personalı olan Tarix İnstitutu, o cümlədən baş direktor kimi haqqımda söylədiyi hüquqi baxımdan ziddiyyətli və həqiqəti əks etdirməyən fikirlərindən çox böyük təəssüf hissi keçirirəm".

Adalet.az xəbər verir ki, bunu AMEA-nın Tarix İnstitutunun Baş direktoru tarix elmləri doktoru, professor Kərim Şükürov akademiyanın prezidenti Ramiz Mehdiyevin ötən gün Rəyasət Heyətinin iclasında institutla bağlı səsləndirdiyi fikirlərə münasibət bildirərkən deyib.

"Ramiz Mehdiyev instituta rəhbərlik etdiyim bir ildən az müddət ərzində bir dəfə də olsun məni dəvət edib institut haqqında müzakirə aparmayıb. Fəsadlarını indi də yaşadığım COVID-i ağır formada keçirib hospitalda yatmışam, səlahiyyətlərim vitse-prezidentə verilib. Bir dəfə mənim səhhətimlə maraqlanmayıb.

Onun belə bir qeyri-professional və qeyri-humanist idarəçiliyini bir tərəfə qoyuram" deyən direktor bildirib ki, akademiyanın prezidenti vəzifəsinə uyğun olaraq heç olmasa, Tarix İnstitutunun 2021-ci il üzrə illik elmi hesabatını belə oxumayıb. Onun sözlərinə görə, onda aydın olardı ki, Tarix İnstitutunda elmi tədqiqat işlərinin və idarəetmənin təkmilləşdirilməsi sahəsində hansı müasir islahatlar həyata

keçirilib. K.Şükürov deyib ki, rəhbərliyi dövründə institutda 3 cildlik Respublika tarixi, Vətən müharibəsi-İkinci Qarabağ müharibəsinin tarixi yazılıb, institutun 12 elmi tədqiqat şöbəsi əməkdaşlarının 21 kitabı dövlət satınalmasına uyğun olaraq çapa təqdim olunub. 1993-cü ildən bəri ilk dəfə olaraq institutda Azərbaycan tarixinin yeni konseptual baxış əsasında akademik bircildliyi hazırlanıb, 15 cildlik Azərbaycan tarixi üzrə gərgin iş davam etdirilir. Azərbaycanın tarixi coğrafiyasına dair 1987-ci ildən bəri ilk dəfə fundamental kitab hazırlanır.

Mən 44 günlük müharibədən sonra Ermənistanın Azərbaycana qarşı yönəlmiş tarix siyasətinin tənqidinə dair müntəzəm olaraq cavabla çıxış etmişəm,

bunlar respublika kütləvi informasiya vasitələrində əks olunub. İnstitutun da təşkilatçılığı ilə doqquz ölkənin alimlərinin iştirakı ilə Qafqaz Albaniyasına dair beynəlxalq konfrans keçirilib.

İnstitutun direktoru qeyd edib ki, Azərbaycanın müstəqillik tarixinə dair Ağdamda otuzadək alimin iştirakı ilə daha bir beynəlxalq konfrans təşkil edilib. İştirakçıların Ağdamın işğaldan azad edilmiş ərazilərinə səfəri olub.

Tarix institutunda yeddi ixtisas üzrə elmi dərəcə verən dissertasiya şurasının səmərəli fəaliyyəti təşkil olunub: "Görülmüş işlərin az bir qismi belədir və lazım gəlsə, mən institutun qeyd etdiyim hesabatını çap etdirəcəyəm ki, geniş ictimaiyyət də həqiqi vəziyyətlə tanış ola bilsin. İndi soruşuram: Ramiz Mehdiyev, Tarix İnstitutunda sizin təxəyyülünüzün məhsulu olan xoşa gəlməyən vəziyyət olsaydı, bu işlər necə həyata keçirilə bilərdi? Acı bir təəssüflə qeyd edirəm ki, AMEA-nın prezidenti milli akademiyaların rəhbərləri üçün səciyyəvi olan intellektual səviyyəli dialoq ilə deyil, məişət səviyyəli intriqalar ilə məşğul olur və onu akademiyanın gündəliyinə çevirir. Mən isə bütün fəaliyyətimi müasir çağırışlara cavab verə bilən modern Tarix İnstitutu yaratmağa həsr etmişəm.

Bu gün, 20 yanvar şəhidlərinin əziz xatirəsini dövlətimiz və xalqımızla birlikdə qeyd edəcəyəm.

Sabah, 21 yanvarda bir tərəfdən AMEA prezidentinin Tarix İnstitutu və onun rəhbəri kimi mənim haqqımdakı qeyri-adekvat fikirlərinə etiraz olaraq, digər tərəfdən isə demokratik ənənələri əsas götürərək, nəinki tutduğum vəzifədən, o cümlədən Ramiz Mehdiyevin rəhbərlik etdiyi AMEA sistemindəki bütün işlərimdən istefa haqqında ərizəmi təqdim edəcəyəm", - deyə Kərim Şükürov bəyan edib.

Nankorluq etməyin

Elxan Şükürlü

Çətin günündə sənin yanında duran, uğurunda, yüksəlişində rolu, zəhməti olan kəsin əziyyətini rahatlığa çıxdıqdan sonra unutmağın dədə-babadan bircə adı var - nankorluq!

Elmi ədəbiyyatda nankorluq həm də əsil-nəcabətsizliyin, köksüzlüyün və zatıqırıqlığın ifadəsi sayılır.

Elə həyat da dəfələrlə sübut edib ki, digərləriylə müqayisədə, əsil-nəcabətsizlər, kökü olmayanlar nankorluğa, nankorlarsa xəyanətə daha çox meylli olurlar! Bu, siyasətdə, idarəçilikdə və dövlətlərarası münasibətlərdə də belədir - özünə hörmət edən siyasətçi, rəhbər və ya dövlət, gərək, ona edilmiş yaxşılığı, mərd davranışı, uğurunda rolu olanı heç vaxt unutmasın, yaxşılığı itirməsin!

Ancaq çox təəssüf ki, bizdə siyasətə makiavellizm prinsiplərindən yanaşanlar üçün nankorluq "siyasi çeviklik" nümunəsi sayılaraq, təbliğ və təqdir edilməkdə, bir çox siyasət və media adamlarımızın isə həyat kredosuna çevrilməkdədir!

Biz bunun konkret nümunəsini özünü "demokratiyanın müdafiəçiləri" sayan Qərbpərəst siyasətçilərimizin və tərəfdarlarının sosial şəbəkələrdə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana münasibətdə ifadə etdikləri mövqelərdə daha yaxşı müşahidə edə, görə bilirik: 44 günlük Qarabağ savaşının hər anında mərdcə yanımızda duran və faktiki, bu müharibənin zəfərlə yekunlaşmasında müstəsna rolu olan Türkiyə prezidenti cənab Ərdoğanı indi ölkəmizdəki bir sürü nankor, Qazaxıstan hadisələrini bəhanə edərək, "avtoritar", "diktator" epitetləriylə ittihama başlayıblar!

Adamı yandıran həm də odur ki, erməninin qorxusundan 30 ildir dədə-babasının qəbrinin yerini belə unudan bəzi özünüitirmişlər, onların görməli olduğu işi gördüyünə görə Ərdoğana minnətdar olmaq əvəzinə, qoşulublar Qərbin yedirib-boşlədiyi bu agentura şəbəkəsinə!

20 ildir rəhbərlik etdiyi bir partiyada bircə demokratik seçki keçirə bilməyənlərin, QHT-sində, qəzetində və saytında ən böyük avtoritar, oğru və əxlaqsız olanların əsas ittihamları da budur ki, Türkiyənin liderlik etdiyi Türk Dövlətləri Təşkilatının (TDT) rəhbərlərinin hamısı diktatordur, Putinin tapşırıqlarını yerinə yetirirlər, demokratik yolla seçilməyiblər və s. Adamlar nankorcasına unudublar ki, Qarabağ savaşında bizimlə eyni səngərdə duran, düşmənimizi düşməni bilib onunla vuruşan o "diktator" adlandırdıqları Ərdoğanın rəhbərlik etdiyi Türkiyə oldu, ABŞ və Avropa Birliyi, "demokratik" seçilmiş Bayden və Makron yox!

2023-cü ildə Türkiyədə keçiriləcək prezident seçkiləri təkcə Türkiyənin yox, o cümlədən Azərbaycanın da taleyinə təsir göstərəcək ən mühüm hadisə olacaq. Kim Azərbaycanın uğurunu istəyirsə, əminəm ki, onlar birmənalı olaraq Ərdoğanı dəstəkləyəcəklər; kim Azərbaycana qarşıdırsa, onlar da Ərdoğanın qarşısında yer alacaqlar!

Dostu, düşməni ayırdetmənin növbəti "qırmızı xətt"i budur!

Gəlin, nankorların sırasında yer almayın! Hər kəsdən əvvəl, Allah bunu bizə bağışlamaz!

Mehman CAVADOĞLU

Üçüncü cəhd

Ötən həftənin sonlarında Türkiyənin Vaşinqtondakı keçmiş səfiri Sərdar Qılıcla Ermənistan parlamentinin sədr müavini Ruben Rubinyanın keçirdikləri təkbətək görüşlə iki ölkə arasındakı münasibətlərin normallaşdırılması istiqamətində növbəti üçüncü cəhdə start verildi. Xatırladaq ki, Türkiyə sovetlərin çöküşünün ilk aylarından sonra yaranmış müstəqil Ermənistan dövlətini tanıyan ilk ölkələrdən biri olsa da həmin vaxt qarşı tərəfdən adekvat reaksiya görməmişdi. Çünki öz uydurduqları saxta tarixin psixoloji gərginliyi və şoku altında sadomazoxist bir qövmə çevrilmş "qarşı tərəf" bitmək bilməyən hikkəsinin, soyumaq bilməyən qisasçılıq hissinin başgicəlləndirici təsirindən ayıla bilmirdi. Həmin vaxt yeni (deyəsən, həm də köhnə) Ermənistan tarixinin hələ ki ağlı başında olan yeganə siyasətçisi Levon Ter-Petrosyan Türkiyədən gələn nümayəndə heyətiylə yalnız ticarət və iqtisadi əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparmış, siyasi müstəvidə konkret hər hansı müzakirəni mümkünsüz saymışdı. Lakin Kəlbəcərin işğalından sonra Türkiyənin təşəbbüsüylə iqtisadi və ticari əməkdaşlıq sahəsindəki bütün kövrək gəlişmələrin üstündən də xətt çəkildi, sərhədlər tamamilə qapandı, təzə-təzə yaranan əlaqələr tamamilə kəsildi.

İkinci nizamlama cəhdi 2008-2009-cu illəri əhatə edir. Rusiya, ABŞ, Fransa kimi böyük beynəlxalq oyunçuların iştirakı, vasitəçiliyi və təhrikiylə müşayət olunan, təxminən iki il boyu gərgin dramatik süjet üzrə inkişaf edən danışıqlar son nəticədə uğursuzluğa düçar oldu. 2008-cu il oktyabrın 10-da ABŞ -ın Dövlət katibi Hilari Klintonun, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun və Fransanın xarici işlər naziri Bernar Kuçnerin İsveçrənin Sürix şəhərində yekun protokollar imzalansa da, bu uğurun ömrü uzun olmadı. Yeri gəlmişkən bir faktı da xatırladaq ki, həmin imzalanma törəninin gedişində Ermənistanın xarici işlər naziri Edvard Nalbadyan sənədin imzalanması anında xüsusi bəyanatla çıxış etmək fikrinə düşür, yalnız Lavrovun ona göndərdiyi "Eduard, heç bir bəyanatsız imzalama mərasiminə razı ol" məxfi qeydindən sonra bu tərəddüdünə son qoyur. Sadəcə olaraq, ona görə ki, həmin vaxt Türkiyə XİN başçısı da cavab əlavə bəyanatıyla çıxış etməyə məcbur olacaq və iki illik vurnuxmalar hədər gedəcəkdi.

Onsuz da hədər getdi. Ermənistan Konstitusiya Məhkəməsi genosidin tanınması və təzminat ödənməsi şərtinin sənədə salınmayacağı təqdirdə onu təsdiq eləməkdən imtina edəcəyini, Türkiyəsə heç cür bu şərti qəbul edə bilməyəcəyini, üstəlik, Azərbaycan torpaqları işğaldan azad edilməyincə münasibətlərin normallaşmasının mümkün olmayacağını bəyan elədi. Beləliklə, danışıqlar dövründə prezident Abdulla Gül Türkiyə-Ermənistan milli futbol komandalarının oyununu Yerevanda, cavab görüşünüsə Serj Sərkisyan Bursada izlədiyinə görə tarixə daha çox "Futbol diplomatiyası" ekzotik adıyla düşmüş bu uzun və gərgin diplomatik proses başa çatdı və onun nəticəsi olaraq imzalanmış Sürix protokolları bir çox ekspertlərin haqlı olaraq söylədiyi kimi ölü doğuldu.

İki ölkə arasındakı son 30 illik münasibətlərin bu qısa tarixçəsinə nəzərə aldıqda hazırda başlayan və şərti olaraq "üçüncü nizamlama cəhdi" adlandırdığımız prosesin uğurlu sonluqla bitəcəyinə o qədər də optimist yanaşmaq olmur. Düzdür, hazırda iki ölkə arasındakı münasibətlərdə yeni çalarlar meydana gəlib, amma bu yenilik gərginliyi azaltmayıb, sadəcə, onun ağırlıq mərkəzini dəyişib. 44 günlük müharibədə qazanılmış qələbə Azərbaycan torpaqlarının işğalına əhəmiyyətli dərəcədə son qoyması bir tərəfdən Türkiyənin əl-qolunu açıb, onun manevr imkanlarını artırıbsa, digər tərəfdən ermənilər daha da aqressivləşdirib. Çünki bu məğlubiyyətin günahını özlərindən başqa hamıda, ilk növbədəsə Türkiyədə görürlər.

Beləliklə, Rubinyanla Qılıc arasında Moskvada keçirilən görüş üçüncü nizamlama cəhdidi və onun uğurla başa çatacağı, yoxsa əvvəlki cəhdlər kimi fiaskoya uğrayacağını proqnozlaşdırmaq çox çətindir. İlk görüş haqqında iştirakçıların özləri heç bir söz deməyib, hər iki ölkənin xarici işlər nazirliyindənsə ümumi ifadələrə söykənən açıqlamalar verilib. Odur ki, içəridə hökm sürən atmosfer haqqında hələlik konkret bir xəbər yoxdu. Hərçənd, mürəkkəb situasiyalarda heç bir xəbərin olmamasının özü şox vaxt yaxşı xəbərin müjdəsi olur.

Görüş haqqında məlumat yayılan kimi erməni cəmiyyətində növbəti çalxalanmalar başladı. Parlamentin bu həftənin əvvəlində keçirilən iclasında müxalif "Hayastan" blokunu təmsil edən deputat Aqnessa Xamoyan Rubinyanı birbaşa türk agenti olmaqda ittiham elədi. Xanım Xamoyan bunu gəlişi gözəl söz kimi işlətmədiyini sübut eləmək üçün Rubinyanın vaxtilə Türkiyədə çalışdığını bildirərək onun həmin vaxt türk kəşfiyyatına cəlb edildiyinə eyham vurdu.

Az qala əlbəyaxa davaya çevrilmək dərəcəsinə çatmış söz atışması vaxtı Rubinyanın davranışları və ritorikasını təkcə onun xarakteriylə yox, həm də Ermənistan hakimiyyətinin Türkiyə ilə danışıqlarda həqiqətən real nəticələrə nail olmaq istəyilə izah oluna bilər. Ağır və sarsıdıcı məğlubiyyətdən sonra Paşinyanın qonşularla dinc yanaşı yaşama və əməkdaşlığa əsaslanan münasibətlər sisteminin qurulmasında maraqlı olması getdikcə daha çox hiss olunur. Bir tərəfdən Azərbaycanın gücü qarşısındakı zəiflik, digər tərəfdən beynəlxalq birliyin bütün şirin vədlərinə baxmayaraq konkret hərbi-siyasi yardım göstərmək imkanlarının düşünüldüyü qədər asan olmadığını dərk etdikcə praqmatikləşən inqilabçı baş nazir gerçəkliyin sərt üzüylə barışmağa sadəcə məcburdu.

Ağır məğlubiyyətin ardınca keçirilən seçkilərdəki qələbə geniş xalq dəstəyinin bariz nümunəsidi. Üstəlik, Ermənistan və Qarabağ ermənilər arasındakı münasibətlərin get-gedə artan gərginlik üzrə inkişafı da baş nazirin əlinə oynayır. Amma onun sayca az olsa da proseslərə həlledici təsir göstərmək imkanları və rıçaqlarına malik güclü rəqibləri də var ki, hamısını tək Paşinyana yox, həm də Türkiyəyə olan nifrət hissi birləşdirir. Diaspora, kilsə, xalq arasında geniş dəstəyi olmasa da, güclü beynəlxalq əlaqələrə və maliyyə imkanlarına malik "Daşnaksütun", "Asala" və digər irili-xırdalı terror təşkilatları bu prosesdə baş nazirin ən ciddi rəqibləridi və hər vəchlə onun təşəbbüslərini əngəlləməyə çalışacaqlar. Necə ki artıq buna start veriblər.

Rubinyan-Qılıc görüşünün mümkün əməkdaşlıq formatları üzərində aparılması nəzərdə tutulub. Rusiya Xarici işlər nazirinin müavini Andrey Rudenko deyib ki, tərəflər konstruktiv məcrada dialoq aparmaq barədə razılığa gəliblər. Yəni, heç bir siyasət, yalnız iqtisadiyyat! Hərçənd yuxarıda adını çəkdiyimiz ikinci nizamlama cəhdi də də bu prinsipin üzərində qurulmuşdu. Lakin sonda siyasət istər-istəməz proseslərə bulaşdı və iki illik əzab-əziyyət hədər getdi. İndiki nizamlama prosesində də siyasətsiz ötüşmək çətin ki, mümkün olsun. Çarter reysləri, açılan sərhədlər, mal mübadilələrii, idman yarışları və s. və i.a. kimi nəsnələrin son olaraq siyasətə gəlib dirənəcəyi və bütün gəlişmələrin üstündən bir anın içində qalın bir xətt çəkiləcəyi şübhə doğurmasın. Çünki nə kilsənin, nə diasporanın, nə də çoxsaylı erməni siyasi-terrorçu qruplarının heç birinin erməni xalqının firavan yaşayışı deyə bir lüksü yox.

Türkiyənin daşınmaz əmlak bazarında ruslar üçüncüdür

2021-ci ildə ruslar Türkiyədə 5,4 min mənzil və ev alıblar ki, bu da əvvəlki ilə nisbətən 75% çoxdur. Bu barədə Türkiyə statistika institunun yaydığı məlumatda deyilir. Bu göstəricilə onlar İraq və İrandan sonra üçüncü yerə çıxıblar. Rusiya ekspertləri rusların Türkiyənin əmlak bazarına marağının sürətlə artmasını türk lirəsinin son vaxtlarda ciddi devalyasiyaya məruz qalmasıyla əlaqələndirlər.

Xatırladaq ki, ruslar daha ox Antalya, Alanya və Mersin kurortlarımda əmlak almağa meyl göstərirlər.

Mehriban

ƏDALƏT •

Faiq QİSMƏTOĞLU
faiqqismetoqlu@box.az

Sayğac oyunu

... Bu, elə bir oyundur ki, camaatımız o tamaşanın tez-tez şahidinə çevrilir. Məsələn, camaatımız görür ki, 3-4 ildən bir və bəzən də daha tez "Azəriqaz" köhnə sayğacları çıxarıb yenilər ilə əvəz edir. Buna bəzən insanlar sevinir, bəzən də dilxor olur. Sevinirlər ki, bəlkə yeni sayğacların quraşdırılması onların işini asanlaşdıracaq, əlavə xərcə düşməyəcəklər. Amma elə ki, görürlər sayğac dəyişdi, onların işi bir qədər də ağırlaşdı. Yəni, yeni sayğaclar əvvəlkindən o qədər də keyfiyyətli olmadı. Başqa sözlə demiş olsaq, bu sayğaclar əhalinin xeyrinə yox, ziyanına işləyir. Məsələn, bir vaxtlar Bakıda hər evdə, mənzildə, mexaniki sayğaclar quraşdırıldı, inanın o mexaniki sayğaclar ancaq camaatı aldatmağa xidmət edirdi. Elə biri bizim özümüz. Məlum olurdu ki, mexaniki sayğaclar həddindən çox abonentin ziyanına işləyir. Yəni, biz ayda 4 manat ödəmək əvəzinə, 7-8 manat pul ödəməli olurduq. Bunu çoxları yaxşı bilir.

Son 2-3 ildə Yeni Günəşlidə, elə bizim yaşadığımız 13 nömrəli binada bütün mənzillərin blokunda smartkart sayğacları quraşdırılıb. İnsaf naminə deməliyik ki, bu sayğaclar mexaniki sayğaclardan daha yaxşı işləyir. Yəni, abonentlərə mexaniki sayğaclarda olduğu kimi, nəzərdə tutulanlardan çox qaz pulu gəlmir. Məsələn, bizim özümüz bu sayğaclardan istifadə edirik. Bir ayda uzaq başı 5 manat karta pul yükləyirik. Və o 5 manat bizə bir ay çatır. Amma əvvəllər 7-8 manat pul ödəyərdik.

Həmişə sanki kimlərsə bu xalqdan, bu millətdən işlətmədiyi qazın, işığın, suyun, istiliyin pulunu almaq istəyirlər. Və hər dəfə də fikirləşib bir sayğac oyunu qururlar. Məsələn, "Azərsu" sayğacları dəyişdi və bu sayğaclar elə işləyirlər ki, ancaq abonentlərin zərərinə olur. Əvvəlki sayğaclar işləyəndə biz ayda suyun pulu qalxmamış öncə 5-6 manat pul ödəyirdik. İndi bir neçə ildir ki, suyun pulu yüz faiz qalxıb və kubu olub 1 manat. Biz də 3 nəfərik. Hər ay 22-25 manat arasında pul gəlir. Təkcə dekabr ayında 17 manat pul ödədik. Amma buna çox sevindik. Çünki noyabr ayında 25 manat pul ödəmişdik. Bax, belə-belə əlləm-qəlləm işlərin nəticəsidir ki, insanların bizə xidmət edən qurumlara bir o qədər də inamları qalmayıb.

İndi qayıdaq, smart tipli sayğacların mexaniki sayğaclara əvəz olunmasına. Bütün abonentlər deyir ki, smart tipli sayğaclar bizim üçün çox sərfəlidir. Amma nə olsun? Bu məlum qurum üçün sərfəli deyil. Çox fikirləşib, çox düşünəndən sonra belə qərara gəliblər ki, smart tipli sayğacları mexaniki sayğaclarla əvəz eləsinlər. Sərf eləmirəmsə, artıq bu işə başlanılıb. Ay qardaşlar, ay vəzifə sahibləri, ay məlum qurumun rəhbərləri, ölkəmiz müharibə şəraitindədir. Dövlət vaxtilə milyonlarla pul xərcləyib binalarda smartkart sayğacları quraşdırıb. İndi sizə nə düşüb ki, iqtisadi cəhətdən dünyanı böhran ağzına götürdüyü bir dövrdə, pandemiyanın tüğyan etdiyi anda iki daşın arasında bu sayğac oyununu davam etdirəsiniz?! Bəlkə də hansısa məmura, hansısa qurumun rəhbərinə bu sayğac oyunu sərf edir. Ancaq Allaha and olsun, nə dövlətə, nə də əhaliyə bu yeni sayğacların quraşdırılması heç cürə sərfəli deyil. Çünki sözün açığı, camaat deyir ki, yeni sayğacları ona görə quraşdırırlar ki, məlum qurumlar bizdən daha çox pul qoparsınlar.

Onsuz da bu yazıq camaatın qazandığı pul ya kommunal xərclərə gedir, ya da ərzaq və qida məhsullarına. Biz hələ onu demirik ki, kimsə orta səviyyəli dolanışıqla yaxşı yaşayacaq, geyinib- keçinəcək, özünə maşın, ev alacaq. Bunlar mümkün deyil. Heç olmasa, camaatın aylıq qazancı, təqaüdü və müavinatı kommunal xərclərə və yeyib-içməyə çatsa, min şükür!

Amma bu cür sayğac oyunu ilə çətin ki, orta təbəqənin adamları aldıqları o məvacib, təqaüd və müavinatlarla normal dolana bilsinlər. Əgər xidmət sahələri camaatı işlətmədiyi enerji daşıyıcıları ilə, məsələn, işıqla, qazla, su ilə, istilik ilə əlavə yükləməsələr, o pulla da birtəhər yaşamaq olar. Təki Allah-Təala müxtəlif xidmət sahələrinə bir insaf versin ki, camaata işlətmədiyi enerji daşıyıcılarının pulunu yükləməsinlər...

Tamahkarlığın bədəli

Son günlər bəzi məhkəmə işləri diqqətimi çəkir. Xüsusən, müharibə dövründə hərbi komissarlıqlarda işində verdiyi nöqsana görə ya həbs olunanlar, ya da digər cinayət məsuliyyətinə cəlb olunanlar.

Əlbəttə, həmin adamların bəxti gətirib ki, daha sivil cəmiyyətdə yaşayırlar. Yoxsa Stalin və digər hökümətlərdə bu işlərə yol versəydilər elə yerindəcə güllələnərdilər.

Əminəm ki, bu nə dövlətin siyasəti olub, nə də belə edin tapşırığı. Sadəcə bəzi işbazların əməli.

Ümid edirəm, bunlar araşdırılır və layiq olduqları "mərtəbə"yə qaldırılacaqlar. Bir ailənin bütün oğullarını müharibəyə aparmaq kimi. Ya da nəslin son və ya tək oğlunu. Aydındır ki, belə uyğunsuzluqlar niyə baş verib. Tamah, şəxsi mənafe önə keçəndə bu cür hallar mümkündür.

Həssas dönəmlər idi, demirdik...

İndi isə...

Məsələn, bizim batalyonda iki qardaş vardı. Füzuli-Xocavənd istiqamətində bu qardaşlardan biri digər qardaşın gözünün önündə yaralandı.

Əsgərimiz vardı, Səmədov. Yenə iki qardaş. Digər qardaşı başqa bölməylə döyüşdə idi. O da şəhid oldu.

Gözləyək... Tamahkarların ödəyəcəyi bədəli gözləyək.

Emin Piri

Onların xatirəsini hörmətlə yad edək

Şəhidlər canlarını Vətən, torpaq yolunda fəda ediblər. Onlar canlarını Vətənin azadlığı uğrunda gedən qanlı döyüşlərdə qurban veriblər.

Şəhid olublar ki, doğma torpaq azad nəfəs alsın. Biz də rahat, qayğısız yaşaya bilək. Şəhidlər bizim xoş gələcəyimiz naminə dünyamızı tərk ediblər. Ana torpağa qovuşan şəhidlərin ölməz xatirəsini əziz tutmaq, hər zaman yaşatmaq, bizim insanlıq borcumuzdur. Biz onların məzarlarına tez-tez baş çəkməli, adlarını uca tutmalıyıq. Çünki onlar ölməyiblər, həyata əlvida deyərək şəhadətə qovuşub, müqəddəsləşiblər. Bu ölməz insanların adlarına küçələr vermək, xatirələrini əziz tutaraq bulaq kompleksi inşa etmək gözəl təşəbbüsdür. Bu zaman onların ruhları şad olur, bizdən ötrü etdikləri fədakarlıqlar bir daha göz önündə canlanır.

Ancaq gəlin bir az açıq danışaq, şəhidlərin xatirəsini əbədiləşdirmək üçün inşa edilən bulaq kompeksinin önündə, küçədə ucadan növhə deyərək, ağlaşma qurmaq təqdirəlayiq hal deyil. Qışın soyuğunda, sazağında ürəyi ömürlük yara tapmış şəhid valideynlərini bir yerə toplayıb küçədə sinələrinə döyə-döyə növhə oxumaq nə şəhidlərə, nə də ətrafdakılara heç bir şey vermir.

Gəlin doğma şəhidlərimizin xatirəsini uca tutaq, belə xoşagəlməz hallara yol verməyək. Şəhidlərin müqəddəs ruhuna toxunmayaq. Buna bizim ixtiyarımız yoxdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Adil MİSİRLİ

Qar yağır, yollar buz bağlayır...

Belə havada sürücülər daha ehtiyatlı və diqqətli olmalıdılar

Artıq bir neçə gündür ki, respublikamızın ərazisinə qar yağır, yollar buz bağlayır və nəqliyyat vasitələrinin hərəkəti çətinləşir. Mürəkkəb hava şəraiti ilə əlaqədar olaraq Milli Hidrometeroloqlarımız bir neçə gün öncə bütün əlaqədar qurumları xəbərdar etmişdi. Və əlaqədar qurumlar da öz üzərinə düşən vəzifəni vaxtında icra etmiş, bu barədə digər hüquqi, fiziki və vəzifəli şəxsləri məlumatlandırmışdı. Heç uzağa getməyək. Baş Dövlət Yol Polisi İdarəsinin inspektoru, polis baş leytenantı Toğrul Nəsirli kütləvi informasiya vasitələrində və televiziya kanallarında sürücülərə müraciət edərək bildirmişdir ki, onlar qarlı və şaxtalı havaya hazır olsunlar. Avtomobillərin şinlərini qış mövsümün uyğun uyğunlaşdırsınlar, sürət həddinə əməl etsinlər, ara məsafəsi saxlasınlar, dumanlı və qarlı havada işıq sistemindən yararlansınlar. Bununla yanaşı, təcrübəsiz, səriştəsiz sürücülər bu cür mürəkkəb hava şəraitində sükan arxasında əyləşməsinlər. Və bir də sürücülər yollar buz bağlayarkən tez-tez əyləc sistemindən istifadə etməsinlər.



Təbii ki, bu xəbərdarlıq ona görə idi ki, hər bir sürücü yol hərəkəti qaydasına əməl eləsin, sükan arxasında məsuliyyətli olsun və hava şəraitini, metroloji durumu mütləq nəzərə alsın. Artıq respublikamızın şimal istiqamətində qar yağmaqda davam edir. Bəzi rayonlarda temperatur mənfi 10-15 dərəcəyə enib. Aydındır ki, bu cür qarlı və şaxtalı havalarda sükan arxasında əyləşmək və mənzil başına getmək elə də asan deyil. Belə havalarda xüsusən iri tonnlajlı yük maşınlarını idarə edən sürücülər daha diqqətli olmalıdılar. Çünki bəzən belə sürücülərin diqqətsizliyi üzündən ağır qəzalar qaçılmaz olur.

Üstəlik də, heç kimə sirr deyil ki, Sovet istehsalı olan minik avtomobillərinin əksəriyyətinin belə mürəkkəb qarlı havada şinləri dəyişdirilmir, yəni mövsümə uyğun olmur, yeyilmiş şinlərlə sürücülər yola çıxırlar. Qəza şəraiti də olanda bu cür "Vaz" markalı avtomobilin sürücüləri çətin vəziyyətdən çıxa bilmir, əyləcdən istifadə edir, şinlər köhnə olduğu üçün sürüşür və nəticədə qəzalar baş verir.

Bakı-Şamaxı-Yevlax və eləcə də Bakı-Qəbələ-İsmayıllı avtomobil yolunda belə qarlı havada avtomobilləri idarə etmək elə də asan deyil. Bakı-Şamaxı-Yevlax avtomobil yolunda xidmət aparan Yol Patrul Xidməti Alayının 3-cü tağımının əməkdaşları qarlı havalarda gücləndirilmiş iş rejimində işləyirlər. Onu da qeyd edək ki, hələ öncədən yol polisi Yol İstismar İdarəsi ilə birgə qış mövsümü ilə əlaqədar yolların kənarına duz qarışıq qum yığıblar. Və hava da mürəkkəb olanda həmin duz qarışıq qumdan yollara səpilir.

Səhər saatlarından başlayaraq Bakı-Şamaxı-Yevlax yolunun Ağsu dolaylarında ağır texnikadan istifadə edilərək yollar qardan təmizlənir. Üstəlik də, həmin yollara duz qarışıq qum səpilir. Düzdü, soyuq, şaxtalı havada xidmət aparmaq elə də asan deyil. Camaat bu cür soyuqda öz isti evində çətinliklə qızınır. Amma elə qurumlar var ki, şaxtalı, soyuq havada öz xidməti vəzifələrini şərəflə yerinə yetirirlər. Bu mənada Yol Patrul Xidməti Alayının 3-cü tağım əməkdaşlarının əməyini xüsusi ilə qeyd etmək lazımdır. Çünki onlar tək öz xidməti vəzifələrini yerinə yetirmirlər. Həm də qarlı və şaxtalı havada yarıyolda qalıb çətin vəziyyətdə olan sürücüləri və hərəkət iştirakçılarını xilas edirlər.

3-cü tağımın komandiri, polis mayoru Ürfət Şükürov bildirir ki, havaların kəskin keçdiyi ilk andan tağımımız gücləndirilmiş iş rejimində çalışır. Xüsusən də xidmət apardığımız Bakı-Şamaxı-Yevlax avtomobil yolunun sərt döngələrində və hərəkətin çətin olduğu yerlərdə əlavə naryadlarımız xidmət aparırlar. Bunu da ona görə edirik ki, çətin vəziyyətdə olan sürücülərə və sərnişinlərə vaxtında kömək göstərək. Hətta bir neçə xəstə adam həmin anda soyuqdan xilas edilmiş, posta gətirilmiş və onlara ilkin tibbi yardım göstərilmişdir. Düşünürəm ki, elə bu cür qabaqlayıcı tədbirlərin nəticəsidir ki, qarlı havalarda bir o qədər də ağır, ölümlə nəticələnən qəzalar baş verməyib. Şükürlər olsun ki, əməkdaşlarımız sutkanın 24 saatını çox məsuliyyətlə çalışırlar və hərəkətin təhlükəsizliyini təmin etməyi bacarırlar.

Əlbəttə, qarlı havalarda təkcə yol polisi deyil, bütün hərəkət iştirakçıları öz üzərinə düşən vəzifə borcunu məsuliyyətlə yerinə yetirməlidir. Xüsusən də bu cür havalarda texniki cəhətdən nasaz avtomobillə yola çıxmaq çox təhlükəlidir. Bununla yanaşı piyadalar da havaların qarlı və şaxtalı olduğu günlərdə daha diqqətli olmalı, yolu keçərkən qaydaları pozmamalı, avtomobilin gəlmədiyini görəndən sonra yolu keçməlidir. Bütün bunlar hər bir hərəkət iştirakçısının təhlükəsizliyini təmin edir.

Mürəkkəb hava şəraitində Yol Patrul Xidməti Alayının birinci, üçüncü, altıncı, yeddinci və on ikinci tağımının əməkdaşları öz vəzifə borclarını məsuliyyətlə yerinə yetirirlər. Onlar bu cür çətin hava durumunda sürücülərlə stasionar postda maarifləndirici söhbətlər edir, onlara diqqətli olmalarını bildirir və mənzil başına sağ-salamat çatmaq üçün birmənalı olaraq yol hərəkəti qaydalarına riayət etmələrini tövsiyə edirlər.

Hələ qarlı və şaxtalı havalar qarşdadır. Ona görə də bir daha sürücülər avtomobillərini qış mövsümünün tələblərinə uyğun hazırlamalı, mürəkkəb və qarlı havalarda surət həddinə riayət etməli, ara məsafəsi saxlamalı, bir sözlə, təhlükəsizliklə bağlı bütün tədbirləri yerinə yetirməlidirlər. Belə olarsa, həm sürücülər, həm də sərnişinlər mənzil başına sağ-salamat çatar.

Faiq QİSMƏTOĞLU

Könül Nurullayeva: "Bu gün 20 yanvar Şəhidlərinin də ruhu şaddır"

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet qoşunlarının əliyalın xalqın üzərinə hücumu hüquqa, demokratiyaya zidd, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruluğu prinsiplərinə zidd addım idi. Öz qanuni konstitusiya hüquqlarının təmin edilməsi tələbi ilə ayağa qalxan dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Təbii ki, əsas məqsəd istiqlal arzusu ilə yaşayan xalqımızın əzmini qırmaq idi, amma Azərbaycan xalqı azadlıq və istiqlalı öz canından üstün tutaraq tarix yazdı. Xalq həmin gün özünün mənliyini və mətinliyini nümayiş etdirməyi bacardı. 150 nəfər 20 yanvar şəhidinin adı xalqımızın qəlbində əbədi qalacaq.

Xüsusi amansızlıqla törədilən kütləvi qətliam aktının həyata keçirildiyi müddətdə SSRİ müdafiə naziri Dmitri Yazovun, daxili işlər naziri Vadim Bakatinin və digər yüksək rütbəli hərbçilərin Bakıda olması bu qanlı cinayət əməlinin əvvəlcədən planlaşdırılmış olduğunu təsdiqləyirdi. 26 min nəfərlik ordu uyğun ssenari üzrə beynəlxalq hüququn normalarını, keçmiş SSRİ və Azərbaycan SSR-in Konstitusiyalarını kobudcasına pozaraq dinc əhaliyə qarşı qırğın törətdi. Amma bu, Azərbaycan xalqının əzmkarlığını, mübarizlik ruhunu qıra bilmədi. Əksinə, xalqımızı daha da birləşdirdi. Sovet ordusunun amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı yanvarın 22-də paytaxtın "Azadlıq" meydanında 2 milyona yaxın insanın iştirakı ilə şəhidlərin dəfni ilə əlaqədar matəm yürüşü keçirdi. Bu hadisə Azərbaycanda dövlət müstəqilliyinin bərpa edilməsi istiqamətində mühüm hadisə oldu.

Məhz həmin hadisələr bilavasitə nümayiş etdirdi ki, Azərbaycan xalqı pozulan hüquqlarının, suverenliyinin bərpa olunması uğrunda savaşmaq əzminə sahibdir.

Təəssüf ki, həm SSRİ, həm də o vaxtkı Azərbaycan rəhbərliyi bu qanlı cinayətin bilavasitə təşkilatçıları və iştirakçıları olduqlarından nəinki onun açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü tədbirlər görmədi, əksinə bütün addımlar

bu vəhşiliyi ört-basdır etməyə yönəlmişdi. Amma faciənin ertəsi günü ümummilli lider Heydər Əliyevin Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyində mətbuat konfransı keçirərək, bu vəhşiliyi kəskin şəkildə pisləməsi, xalqımıza qarşı törədilmiş qırğına siyasi qiymət verilməsini və günahkarların cəzalandırılmasını tələb etməsi o vaxtkı dövrün reallıqları fonunda olduqca mürəkkəb və vacib idi. Bu çıxış zamanı ulu öndər həm hadisənin törədilmə səbəblərini açıqladı, həm də onun təşkilatçılarının, günahkarlarının adını bütün dünyaya bəyan etdi. Bu, əslində böyük cəsarət və siyasi iradə tələb edən addım idi.

1990-cı il noyabrın 21-də ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bu hadisəyə siyasi-hüquqi qiymət verdi. Bu tarixi sənəddə də Azərbaycan xalqına qarşı törədilən siyasi-hərbi qəsdin cavabdehləri və günahkarları açıqlandı.

Azərbaycan müstəqillik əldə etdikdən sonra 20 yanvar 1990-cı il artıq ümümxalq hüzn kimi qeyd olunmağa başladı. Hər il faciənin ildönümü izdihamlı ziyarətlərlə müşayiət edilir, xalq azadlıq fədailərini qururla anır. Azərbaycan xalqı 20 yanvar faciəsinin 30-cu ilində ərazilərimizi işğaldan azad etdi, tarixi ədalət bərpa olundu. Bununla da bütün şəhidlərimizin, o cümlədən də 20 Yanvar Şəhidlərimizin qisası alındı. Xalqımız 1990-cı il 20 yanvar tarixini heç vaxt unutmayacaq.

Dövlətin puluna şokolad aldığına görə iş açılan, oteldə xadimə işləyən keçmiş nazir

Bir anlıq hər şeyin yolunda getdiyini düşünün, nə qiymət artımı var, nə dolanışıq dərdi, nə də xaos.

Həftə sonunu ailənizlə hansısa rayonda otellərin birində keçirirsiniz.

Səhər çarpayınızda uzanmaqdan biraz da həzz almaq istəyirsiniz ki, qapının zəngi çalınır. Qapını açanda xadiməni görürsünüz.

- Bağışlayın, elə bildim səhər yeməyinə düşmüsüz, otaq boşdu.

İndi "Ac hərflər"dəki qəzet oxuyan kişi kimi "hə, nooosun?" deyəcəksiniz, amma tələsməyin. Qapının ağzındakı xadimə elə-belə xadimə deyil, o, keçmiş nazirdir.

Bəli, nazir!

Var, inanmırsınız?

İsveçin ən oturuşmuş siyasi partiyası olan Sosial Demokrat

İşçi Partiyasının sədri və Maliyyə Naziri Mona Sahlin!

Qızının qurduğu bir şirkətdə işləyir və həftə sonları otel odalarını təmizləyir. Soruşanlara da işindən heç utanmadığını deyir.

Sahlin 25 ildən çox siyasi həyatı boyunca iki dəfə rüşvət və korrupsiya araşdırması ilə üzüzə qalıb. Əvvəl sağçı bir qəzet onun dövlət işləri üçün verilən kredit kartından özünə şokolad aldığını iddia edib. İddiadan sonra Sahlin həm nazir vəzifəsindən istefa edib, həm də özü öz barəsində prokurorluqda cinayət işi açdırıb.

İsveç siyasi tarixinə şokoladın markası Toblerone olduğuna görə "Toblerone işi" kimi düşən bu müdhiş korrupsiya istintaqında safa çıxaraq işinin başına qayıtmışdı.

Sahlinə qarşı irəli sürülən ikinci rüşvət iddiası real demokratik ölkələrdə nəzarət mexanizmlərinin necə işlədiyinə bir nümunədir.

Deməli, Sahlin nazirlikdə olduğu müddətdə məşhur tennisçi Rocer Federerin dünya çempionatının final oyununa turnirin təşkilatçıları tərəfindən fəxri qonaq kimi dəvət olunur. Korrupsiyaya qarşı mübarizə komissiyası Sahlinin bilet haqqını ödəməməsi və bununla da şəxsi mənfəət əldə etməsi səbəbi ilə barəsində araşdırmalara başlayıb. Turnirin təşkilatçılarının belə təşkilatlarda fəxri qonaq dəvətnamələrinin pula satılmadığını deməsi də Sahlinini xilas edə bilmir.

Çünki müstəntiqlər üzə çıxarıb ki, İsveç Baş Qərargah rəisi də fəxri qonaq olsa da, o, dəvətdən imtina edib və bileti öz pulu ilə alıb.

Çətin vəziyyətdə qalan Sahlin partiyasının lideri kimi daxil olduğu seçkilərdə 0,5 faiz səs itirəndən sonra dərhal istefa verir.

İndi təsəvvür edin ki, qapınızı döyən belə bir xadimədir.

Və indi bir daha düşünün, İsveç kimi ölkə niyə cənnət olmasın ki?

Eminquey

Rza Rzayev

Əslində hədəf Aqil Abbasdır

Tuncayı illərdi tanıyıram. Sahəsini dərindən bilən , peşəsinə şərəflə yanaşan , hansı ailədən olduğunu , bu ailənin dövlət və cəmiyyət həyatındakı rolunu dərindən dərk edən və peşə şərəfini hər şeydən üstün tutan - əsl Polis Zabitidir !

Belə birinin tez -tez hədəf alınmasının bəs səbəbi nədir?

Əslində - hədəf Tuncay deyil , Cənab Prezidentin Qarabağa səfərləri vaxtı Aqil Abbasa göstərdiyi və Aqil Abbasın da haqq etdiyi münasibətdir!

Çoxlarını qorxudan , kürkünə birə salan budur, qaşınmayan yerdən qan çıxarmaq istəyirlər . Tuncayı hədəf almaqla Aqil Abbası hədəf alırlar , demək istəyirlər ki , Dövlət

Başçısına bu qədər yaxın olma, Onu sonacan dəstəkləmə!

Çünki çoxunun süni , qəlbsiz , təmənna güdən "dəstəyi " açığa çıxır , özlərini Dövlət Başçısına "göstərə" bilmirlər , başları sığalsız qalır !

Və öz aləmlərində hücuma keçirlər , qisas alırlar , zəif yer axtarırlar , amma yanılırlar. Tuncay Aqil Abbasın basılmayan (məğlubedilməz) tərəfidir.

Tuncay haqda olmayanı (olmayan böhtan sayılır) yazanlar , xəbərə çevirənlərin "qeyrət " damarı tez -tez tutur , amma vaxtsız və yersiz, çünki bu gün (əlində olanlar) adamın nə keçmişini , nə də gələcəyini dəyişmir , adamın alınına yazılanı heç nə təmizləmir , heç böhtan və şər də .

"Tuncay töhmət alıb " - deyə sevincək olanlar və DİN Mətbuat xidmətinin təsdiqləmədiyi məlumatı yaldan yana yayanların peşəkarlığı göz önündədir!

Emin Piri

MƏN NECƏ TƏRBİYƏSİZ OLDUM?

Müharibə yeni başlayıb. Abşeronda yerləşən hissələrdən birində iki günlük çöl təlimindəyik. Bəxtdən ardıcıl yağış yağır. Axşamüstü zabitləri topladılar; hazırlaşın, gecə Füzuli istiqamətinə çıxışdı. Silahları əsgərlərə paylayın, əşyaları yığdırın və.s. Hər ehtimala silahlar paylansa da mərmilər Füzuliyə çatana kimi verilmir. Ordasa düzü güllə baxımdan bolluq idi. Həm düşmən atıb qaçdığı güllə, mərmilər, həm də öz ordumuzun bizə verdiyi. İlk olaraq dörd maqazin, yəni 120 güllə ilə təmin olundu, sonrasa əlavə sursatlar da.

Nə isə, çıxışdan öncə Abşerondakı həmin hərbi hissənin yeməkxanasına getdim. Kimsənin oturmadığı qırmızı lentlə bir növ hasara alınmış masalardan birində əyləşdim. Bir neçə saniyə keçmədi ki, qolunda qırmızı lentli, növbətçi əsgər yaxınlaşdı; bura türklərçündü. Buradan qalxın. Mən də türkəm də;-deyirəm.(Bunu harasa yozmayın. Prezident dediyi kimi türkiyəli hərbiçilər həmişə burda olub təlim və birgə hazırlıq, qardaşlarına mənəvi dəstək və.s üçün. Döyüş bölgəsində isə hər hansı türkiyəli ilə rastlaşmamışam.)

Heç nə vecimə olmaz, oturduğum masadan qaldırılmaq qürurumu daha çox toxunar. Zabit gəlir. Bir neçə saata Füzuliyə çıxırıq-deyirəm, burda oturmağı haqq etmirik?

Gülümsəyir, əsgərə biz tapşırmışıq, sağ-salamat qayıdın-deyir və gülümsəyərək uzaqlaşır.

Bir dəqiqə keçmir, mayor Xəlilov, kapitan Hüseynov gəlir. Söhbətləşirik. Sabah nə olacaq?

Mayor Xəlilov incəsənət izləyən adamdı. Xüsusən rəssamlıq sahəsini. Getdiyi sərgilərdən danışır. Qonorar söhbətlərimə gülür, qayıt, özünə düzəməlli iş tap-deyir.

Şeirlərindən söylə deyir, onsuz da bir neçə saata çıxırıq. Bilmək olmaz hansımız sağ qaldıq deyərək çiynimə gülərək yumruq ilişdirir. Sərbəst vəzndə iki şeirimi deyirəm, "heca yoxdu?"-söyləyir. "Belə" şeirimi deyirəm. Hə, bu yaxşıdı. Bu sərbəstdə nə görmüsünüz- münasibətini göstərir.

Səndən narahatam Piriyev, bu qədər mədəni olma. Müharibədə nə edəssən?

Bir az kobud ol. Sözlərini sərtləşdir, qəddar ol...

Üzüntü halında başıçı aşağı sallayıram.

...Dekabr. Müharibə bitib. Cəbrayılda toplanış yerindəyik. Məni, söhbətlərimi, sözlərimi eşidən, izləyən

Xəlilov çağırır.

-Piriyev, müharibəyə gələndə səndən mədənisi yox idi. İndisə səndən tərbiyəsizi yoxdu...

Araz Əlizadə: "Siyasi partiya lideri öz sözünün qymətini bilməlidir"

Vətəndaş və İnkişaf Partiyasının sədri Əliəliyevin həbsi ilə bağlı, Azərbaycan Sosial Demokrat partiyasının ləsədri Araz Əlizadənin münasibətini öyrəndik. Bununla bağlı Araz müəllim münasibətini təqdim edirik.

"Əvvala mən iştəyirəm ki, Allah onun qapısını açsın. Heç kəsin həbsdə olmasını heç kəs istəməz. Amma siyasi partiya lideri olaraq Əli Əliyev belə fikir bildirməməliydi. Möcüzə baş verib insanlar sağ qalıblar. Əli Əliyev onlara böhtan atıb, onları terrorist adlandırıb. Onların da təbii ki, ailələri var və onlar da öz adlarını təmizə çıxartmaq üçün məhkəməyə veriblər. Məhkəmə də belə bir qərar qəbul edib. Siyasi partiya lideri həmişə öz sözünün qiymətini bilməlidir. Elə etməlidir ki, onun sözü dəqiq olsun. İnsan nə isə dedikdə onu sübut edə bilmirsə, onu dilinə gətirməməlidi. Əvvəla deyim, o qəbahətə yol verib.Ümumiyyətlə son zamanlar mənim Əli Əliyevə çox yaxşı münasibətim var, mənim başım çıxmır ona nə olub?, O, radikal müxalifətə qoşulmaqla sanki özünü itirib. Çünki o ağıllı insandı, ağıllı insan belə şeylərə yol verməməlidir. Hər halda ədalət məhkəməsi öz sözünü deyib, o insanlar var, onların ailələri var, adları var, onların gələcəyi var, onlar öz adlarını böhtandan təmizləmək üçün belə ediblər və buna heç bir siyasi don geyindirmək lazım deyil".

Mehriban CƏFƏROVA

İşıqlar tez-tez sönür

Suraxanı rayonunun Yeni Günəşli yaşayış sahəsinin "D" massivindəki 13 nömrəli binada işıqlar tez-tez sönür. Artıq buna bina sakinləri öyrəşiblər. Göyün üzünü bulud aldı, yağış, qar yağdı, elə həmin an binada işıqlar sönür. Yanvarın 17-də səhər saat 8:30-da işıqlar yenə söndü. Düz saat 13:00-a qədər işıqlar yanmadı. Qəribə olsa da, deməliyik ki, binamızın bir neçə sakini əlaqədar quruma işığın sönməsi ilə bağlı məlumat da veriblər. Məlum qurum isə onlara bildirir ki, qəza xidməti hadisə yerindədir. Belə görünür ki, yanvarın 17-də axşama ya işıqlar yana, ya da yanmaya.

Özü də işıq sönəndə, binanın 2-ci blokunda yaşayan sakinlərdən biri liftdə qalmışdı. Qızın anası qonşuları köməyə çağırırdı. Sözün düzü mən də nə qədər əlləşdim, lifti aça bilmədim. Yazıq uşaq 2-3 saat liftdə qalıb. Tay bilmirik, onu kim və necə çıxardı. Amma bildiyimiz odur ki, 13 nömrəli binada işıqlar sönəndə sakinlər tez-tez liftdə qalır. "Azərişıq" isə həmişə bəyan edir ki, qışa ciddi hazırlaşmışıq. Hələ bizim binada istilik sistemləri çox yaxşı işləyir. Yəni, sakinlər elektrik sobasından deyil, istilik sistemindən istifadə edir. Bəs onda əcəba, 13 nömrəli binada işıqlar niyə tez-tez sönür?! Qoy bu suala "Azərişıq" cavab versin.

Emil FAİQOĞLU

Ağdamlı şeirlərdən doğan düşüncələr

Şair dostum Ramiz Məmmədzadənin 85 illik yubileyinə

Ramiz Göylər

Bu günlərdə dostum Ramiz Məmmədzadənin, 525-ci qəzetdə yeni şeirləri dərc edilmişdi. Diqqətimi ilk növbədə şeirlərin başlığı cəlb etdi: -" Ağdamlı şeirlər"!

İnsanların məkan məxsusluğu adi ifadə olduğu halda, şeirlərin məkan məxsusluğuna birinci dəfə idi rast gəlirdim. Görünür bu da bir tapıntıdır və bu tapıntı da Ramiz Məmmədzadəyə məxsusdur.

Cəmi 5 şeirdən ibaət olan bu təqdimat bütünlüklə Ağdamdan danışır. Onun keçmişindən, insanlarından, adət - ənənəsindən söhbət açır. Şeirləri oxuduqca xəyal məni uzaqlara, gənclik çağlarıma apardı və bu yazını yazmağa sövq etdi...

Doğrusu Bakıya oxumağa gələnə qədər, erkən gənclik vaxtlarında mənim Ağdam haqqında - yəni onun coğrafiyası, iqtisaiyatı, adət-ənənsi, insanları haqında təsəvvürlərim çox bəsit idi.

Bu maraqlı şəhərlə, onun insanları ilə ilk tanışlığım 1971-ci ildən -ali məktəbə daxil olduğum vaxtlardan başlayır. O zamanlar mənimlə eyni kursda bir neçə ağdamlı da oxuyurdu. Elə Ağdamla ilk tanışlığım da bu uşaqlar vasitəsilə başladı. Ağdamda yaxşı tanınan Hüseynovlar ailəsini kiçik oğlu Elbənizlə sonralar ailəvi dostluğa çevrilən münasibətlərimizin başlanğıcı da elə o illərdən başlanır. Mənə elə gəlirdi ki, dostum Elbəniz bütün ağdamlıların ümumiləşdirilmiş nümunəsidir. O vaxtlar onun sayəsində tələbələr arasında bir çox ağdamlılarla xoş münasibətlərimiz yaranmışdı. Tələbəlik illərində tələbə yataqxanasında tanış olduğum ağdamlı gənclər Oktay Mustafayev və Akif Quliyevlə sonralar dostluğa çevrilən münasibətlərimiz də mənə Ağdamla daha yaxından tanış olmağıma imkan vermişdi.

Ali Məktəbi bitirdikdən sonra təyimnatla Mingəçevir şəhərinə göndəriş alaraq bu gənc şəhərdə əmək fəaliyyətinə başladım. İşləməyə başladığım Mingəçevir Şəhər Ticarət İdarəsində, sonralar isə Şəhər XDS İcraiyyə Komtəsində və Şəhər İcra Hakimiyyətində ən çox təmasda olduğum şəxslərin də xeyli hissəsi ağdamlı idi. Onlardan indi həyatda olmayan Şahələd Quliyevin, Ənvər Quliyevin, Cümşüd Bəxtiyarovun, Akif Tağıyevin, Sərxan Tağıyevin, Nefton Tağıyevin, Yaqub və Naib Rüstəmov qardaşlarının, Fəxrəddin Mehrəliyevin xatirəsini ehtiramla yad edir, onlara uca Tanrıdan rəhmət diləyirəm. Eyni zamanda bir vaxtlar birlikdə işlədiyimimiz Bəkir Bəxtiyarovu, Əli Ağamirovu, Nazir Əsədovu, Mehman Mehdiyevi, Arif Tağıyevi, Voroşil Tağıyevi, Emilya Hüseynovanı hörmətlə xatırlayır və onlara can sağlığı və iş avandlığı arzulayıram. Mingəçevirdə fəaliyyət göctərdiyim 30 ildə şəhərin rəhbər strukturunda işləməyim, həmçinin ağdamlılarla yaxın təmasda olmağım, həm də Ağdamda və Bakı şəhərində yaşayan ağdamlılarla tanış olmağıma və onlarla yaxın ünsiyyət qurmağıma şərait yaratmışdı. Aradan uzun illər keçdikdən sonra yenə də həmin insanları ehtiramla xatırlayıram. İndi yaşı 100-ə yaxınlaşan, uzun illər Azərbaycan SSR Nazirlər Sovetində məsul vəifədə işləmiş, Mingəçevirin kuratoru olmuş Cəmil müəllim Həsənzadə ilə dostluğumuz bu gün də davam edir. O illərdə Mingəçevir Şəhər Partiya Komitəsinin, sonradan İcraiyyə Komitəsinin , İcra hakimiyyyətinin mətbu orqanı olan "Səda" qəzetinin baş redaktoru olmuş rəhmətlik Naib Rüstəmovun vasitəsilə Ağdam rayon İcra hakimiyyətinion birinci müavini işləmiş Nofəl müəllimlə, unudulmaz və təkrarsız şairimiz Şahmar Əkbərzadə ilə görüşlərimiz heç zaman yadımdan çıxmayacaqdır. Mingəçevirdə işlədiyim dövrdə tanış olduğum ağdamlı ziyalılardan bri də Ramiz Məmmədzadə idi. 90-cı illlərin ortaları idi. O vaxtlar Ramiz müəllim Nazirlər Kabinetində məsul vəzifədə işləyirdi. Onu qiyabi olaraq tanısam da heç vaxt ünsiyyətdə olmamışdıq. İş elə gətirdi ki, biz axşam süfrə arxasında əyləşəsi olduq. Üç nəfərdən ibarət balaca məclis idi. İşdəngücdən, işıqdan -qazdan, məcburi köçkünlərin vəziyyətindən danışdıqdan sonra (o vaxtlar Minəçevirdə 15 mindən çox ağdamlı məcburi köçkün məskunlaşmışdı) söhbətimiz özümüz də hiss etmədən poeziya, ədəbiyyat üstündə davam etdi. Hərdən Ramiz müəlim zərb məsəllər, dahilərin şeirlərindən parcalar nümunə gətirməklə söhbətimizə şirinlik qatırdı. Doğrusu simasından və hərəkətlərindən, eləcə də söhbətlərindən səliqəsəhman, ziyalılıq yağan, zəngin idarəetmə və həyat təcrübəsinə malik bu kişi ilə söhbətimiz çox maraqlı alınmışdı. Elə o gündən də Ramiz müəllimlə ünsiyyətimiz yarandı və bu gün də qarşılıqlı hörmət, sevgi və ehtiramla davam edir. Ramiz müəllim poeziyaya keçən əsrin altımışıncı illərində gəlmişdir. Və indiyədək onun 10-dan çox kitabı işıq üzü görmüşdür. Yaradıcılığına yaxşı bələd olduğum Ramiz müəllim sözə son dərəcə məsuliyyətlə yanaşan söz adamlarımızdandır. Və elə onun nəticəsidir ki, onun yaratdığı şeirlər maraqlıdır, səmimidir, şeirləri oxucuya asanlıqla çatır, özünə cəlb edə, onu yerindən oynada bilir.

Bu yazıda məqsəd heç də Ramiz Məmmədzadə yaradıcılığını təhlil etmək olmayıb sadəcə onun "Ağdamlı şeirlər"indən yaranmış təəssüratı oxucularla bölüşməkdir. Əslində "Ağdamlı şeirlər" Ramiz Məmmədzadə yaradıcılığından qırmızı xətlə keçir. O istər Ağdamlı, istərsə də Ağdamsız günlərində həmişə bu mövzuya müraciət etmişdir. Əslində mövzu onu məcbur etmiş,narahat etmişdir. Bu şeirlərdə xatirə qarışıq bir nisgil var, hıçqırıq var. Bu şeirlər müəllifin yaşadığı, iştirakçısı, şahidi olduğu hadisələrin, onun yaddaşında ilişib qalmış və heç vaxt unutmayacağı, qəlb göynədən, kövrək xatirələrin poetik ifadəsidir. Fikrimcə Ramiz müəllimin "Ağdamlı şeirlər"ini iki dövrə bölmək olar. Birinci dövr 1993-2020-ci illəri əhatə edir. Bu illərdə yaranan şeirlər əslində Müəllifin yaşam tarixidir, yaddaşıdır. Ömrünün - gününün təqvimidir. Ramiz müəllimin şeirlərində kövrək xatirələr dil açıb oxucuya bir elin, bir obanın, bir şəhərin, xalqın bir parçasının xarakterini, yaşam tərzini danışır:

Atam Yaqubla əmioğluydu,
dəyirmançı Əşrəf kişi.
Hamıya bəlliydi işi.
Gecəli- gündüzlü dəyirmanda
taxıl üyüdərdi...
... Yaman bəlaya düşdük.
İndi orda, Qarabağda,
Seyidli tərəflərin, qurğuşun göylərində,
Bir cüt dəyirman daşı ağır-ağır hərlənir,
fırlanır,
Nə suyu var, nə dəni....
Bu qoşa dəyirman daşı,
Dünyanın başına çırpılar bir gün...

Çoxlarımız 1990-cı ilin əvvəllərindən taa 2020-ci ilin noyabrınadək Azərbaycandan kənarda, "haralısan" söhbəti düşəndə həmişə söhbətdən yayınırdıq. Qeyrət boğurdu bizi. Çünki uduzmuşduq müharibədə. Torpaqlarımızın 20 faizi işğal altında, Müqəddəs Qarabağın, Zəngəzurun bir hissəsi düşmən tapdağında idi. O illərdə şairlərimizin, ədəbiyyat adamlarımızın da əksəriyyəti bu mövzuda həsrətli, nisgilli şeirlər, əsərlər yaradırdılar. Özlərini Qarabağsız təsəvvür edə bilmirdilər. Qarabağın itirilməsini bağışlaya bilmirdilər özlərinə. Ramiz müəllim. Kimi:

Mən məzarı itgin düşmüş əsgər oğluyam,
İndi evim itgin düşüb, ora bağlıyam
Evim yaxsa necə deyim Qarabağlıyam
O davada atam getdi, evi yurd oldu,
Bu davada ata evim mənə dərd ooldu.

Və ya
...Arxamızca Qarabağda,
Quzu kimi mələyə-mələyə dağlar qaldı,
Tifaqı dağılmış torpağımızın,
Anası ağlar qaldı...

Ramiz Məmmədzadənin "Ağdamlı şeirləri"ni oxuduqca bir həqiqət sənə hakim kəsilir. İnsanın yaddaşı qəribədir. Dünəni unutsa da keçmişi heç vaxt unuda bilmir. Yaşadır keçmişi yaddaşında. Ramiz Məmmədzadə kimi. O nəinki yaddaşında yaşadır, hətta onu hekayələşdirir, poeziyaya gətirir, poetikləşdirir, bu yolla yaddaşda yaşayanları gələcək nəsillərə ötürür. İnsan əbədi deyil. Ancaq yazılan, deyilən qalır.Böyük Səməd Vurğun demiş:

De gəlsin hər nəyin vardır,
Deyilən söz yadigardır.

Şairin bu mövzuda yazdığı "Bu kişi", "Oxa tay kişi", "Onda fürsət vardı", ""Yox, sən gözlə ata evim", "Sultanəhməd kişi","Yurd olar"," Mənim ümidimi qırmaq çətindir", "Düşmən həmənkidir,dost həmən deyil" adlı şeirlərini oxuduqca bu şeirlərdə müəllifin qəlb çırpıntılarını duymamaq mümkün deyil.

Ramiz müəllimin ikinci dövrə aid olan şeirlərinin başlanğıc tarixi çox da qədim deyil, 10 noyabr 2020-ci ildən başlayır. Şeirləri oxuduqca müəlifin dəst - xəttinə sadiq qaldığının şahidi olursan. Yenə yaddaş işə düşüb, xatirələr dil açıb sənə Ağdamdan, onun keçmişindən danışır. Ancaq yeni ruhda, yeni ab havada. 44 günlük Vətən Müharibəsindəki möhtəşəm qələbə bütün Azərbaycana sevinc bəxş etdiyi kimi yaradıcı insanlarımıza da bitib- tükənməyən bir mövzu verib. Nəbzi hər zaman çağdaş Azərbaycan poeziyasının nəbzi ilə bir vuran Ramiz Məmmədzadə poeziyasının folklor yaddaış işə düşüb. Bu da təsadüfi deyil. Çünki ən mükəmməl yaddaş da folklor yaddaşıdır. Ramiz müəllimi folklor janrına müraciət edir, Ağdamı, Qarabağı bayatı janrı ilə vəsf edir:

Qarabağın gülü - zər
Heç görməyim gülü zar...
Bir bağ sallam, becərrəm,
Gülüm gələr gül üzər...

Qarabağda qar qala
Qar qarlayar Qarqara.
Bu torpağın odundan
Heç qovuşmaz qar qara...

Oxucunun yadına 250 il bundan öncə Ağabəyim ağanın çağırdığı bayatı yada düşür:

... Yaddan çıxmaz Qarabağ.

Bu günlərdə 85 illik yubileyini qeyd edən Ramiz müəllimin yaddaşına heyran qalırsan. İndi onun baş mövzusu da Qarabağdır, Ağdamdır, fikri, xəyalı da. Xatirələr yumaq kimi çözələnir, sonra isə ilmə-ilmə naxışlanır. Bu baxımdan müəllifin "Ağdam bazar" çox maraqlıdır

...Nələr yoxdu bu bazarda
Yeyiləsi, içiləsi, geyiləsi nə desən...
Soraqlaşsan quş südü də
Tapdın bəlkə burda sən.
İynədən gülləyəcən,
cürbəcür güllərəcən...
Bu bazarın papaqçısı, dəmirçisi,
dərzisi öz yerində.
Vallah bərəkət yağardı
Bu bazarın göylərindən...

Yadımdadır! Dünyanın düz vaxtında. Biz də hərdən Ağdam bazarına gedərdik. Gördüyüm bazarların ən maraqlısı, ən koloritlisi, ən zənginiydi bu bazar. Başqa şəhər və rayonlardan fərqli olaraq Ağdamda mağaza, dükan- bazar, yeməkxana-restoran işlədənlər cəmiyyətin ən hörmətli zümrəsi, ən nüfuzlu hissəsi sayılırdı. Mən min cürə nazı- nemətləri demirəm, Sovet hökumətinin qırmızı şalvar vaxtında doğrdan da Ağdam bazarından "Toyuğu cücələri" ilə tapmaq olardı. Ramiz müəəlim də özünəməxsus ustalıqla Ağdam bazarının yaddşında qalmış məzmununu oxucuya çatdırıb. Həm də nikbin notlarla:

...Zülmətləri yıxıb indi.
Ağ günlərə çıxıb indi...
Göylərə bax, görəcəksən
Bəzənib-düzənib
sığallanıb gəlir,
Zənbil olub,
Bir durnanın dimdiyindən
Sallanıb gəlir
İndi Ağdam bazarı...

Ramiz müəlim təqdim etdiyi son şeirlərinin ən maraqlı cəhəti qəhrəmanları ilə bağlıdır. Onun qəhrəmanları dəyirmançıdır, dərzidir, dəmirçidir, kömürçüdür, dükançıdır, kababçıdır, musiqiçidir.

Lakin hamısının əməlində bir yaxşılıq, xeyirxahlıq, köməksizə kömək etmək, əl açana əl tutmaq var. Bir sözlə hamısında bir mərdlik, kişilik xüsusiyyəti cəmləşib. Bu xüsusiyyət isə müəllifin xarakterinin inkasıdır. "Comərdlik boylanır onların sir-sifətindən, hardasa dara düşsən, çovğuna, qara düşsən, qızılquştək yollarına qonasıdır, bu Kişilər. Dərin-dərin qaranlığa düşsən belə işıq olub yanasıdı, bu Kişilər". Dərzi Möhsün kimi:

Ağdamda çoxları tanıyardı
Dərzi Möhsünü,
Dərzilikdə keçmişdi ömrü-günü...
...Mərd-mərdanə hökmü vardı.
Hara getsə yolu açıq,
Onun üçün yox müşkül iş,
Qaçaq Əbdülrəhimin yanına -
Şuşa türməsinə
gedib-gələrmiş...

Maraqlıdır. Ramiz müəllimi təkcə fikri, zikri, xəyalı deyil, yuxularında da həmən kişilərlə əlləşir. Həm də bu yuxular ona bir rahatlıq, bir hüzr gətirir, pozitiv notda kökləyir:

...Dünən gecə yuxuda gördüm
Möhsün kişini.
Muradbəyli-Qaradağlı yolunda.
Nə tikibsə əllərində, qolunda.
Hava da aydın, təmiz,
Mülayim külək əsirdi...
Məncə, Ağdam bazarına
tələsirdi...

Ramiz müəllim üçün təkcə Ağdam deyil, ağdamın insanları, deyil binaları da, məhəllələri də, kəndləri də, yolları da müqəddəsləşir və şeirlərinin məzmununa xoş bir ovqat gətirir. Onun "Ağdamlı şeirləri"ndə işlədiyi Seyidlər,Mərzili, Qaradağlı, Muradbəyli, Çay Evi ifadələri şeirlərə bir səmimilik, sadəlik, şirinlik və doğmalıq gətirməklə yanaşı həm də, bu şeirlərin ağdamlılığını bütövləşdirir. Müəllifin Ağdamda Çay Evi çeirinə diqqət verək:

Bir mahalı bəzərdi,
Adı ellər gəzərdi.
Qızıl taca bənzərdi
Ağdamda o çay evi.

Nəinki ağdamlılara, hətta Ağdamla azacıq məlumatı olan hər kəsə məlum idi ki Ağdamdakı çay evi təkcə çayxana deyildi. Bu yer görüş yeri, məsləhətləşmə yeri, barışıq yeri,toplanış, İstiqamət yeriydi:

Söhbət, görüş yeriydi
Tanış-biliş yeriydi,
Elə bil iş yeriydi
Ağdamda o Çay Evi...

Və budur ağdamlıların öz doğma yurdlarına qayıdacağı gün gercəkləşmək üzrədir. Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin diplomatik gedişləri ilə Birinci Qarabağ müharibəsində ən çox - 6 mindən çox şəhid verən Ağdam danışıqlar yolu ilə düşməndən azad edildi. Və bir az da keçəcək Ağdam Azərbaycanımızın ən böyük və ən gözəl şəhərlərindən birinə çevriləcək. Onda Ağdamdakı Çay Evi də Ramiz müəllimin dediyi kimi, olduğu görkəmdə öz yerində bərpa edilərək ağdamlıların ən sevdiyi məkana çevriləcəkdir.

Uçub gedib buluda...
Bizi çətin unuda!
Baxın, gəlir budur ha...
Ağdamda o Çay Evi.

Yubileyiniz mübarək olsun Ramiz müəllim. Ağdamda Çay Evində görüşmək arzusu ilə:

Emin Piri

Sillə, yoxsa sığal?!

Son günlər şagird-müəllim, tərbiyəçi bağça uşaqları arasındakı gərginlik kəsmək bilmir. Düzü, inanmıram ki, bu kimi şiddət olayları dünən baş vermiş olsun. O mənadakı həmişə olub. Sadəcə bu günlər texnoloji vasitələrin köməkliyi ilə üzə çıxıb.

Bu barədə çox yazılıb, çox müzakirə olunub. Bütün bu fonların qarşılığında bir xatirəmi danışmaq istərdim.

Bağçadakı tərbiyəçi yadıma düşür. Sumqayıtda, 18-ci mikrorayonda evimizin yanında yerləşirdi bağça. 19 yaşı vardı, nişanlı idi. Mənim də altı yaşım. Evdə bütün günü ağlayırdım ki, o müəlliməni mənə alın. Bağçada günortalar yatmırdım ki, başımı dizinə qoyum, saçımı sığallasın, sonra yatım. Yatmırdım deyə o da elə edirdi. Beləcə yuxu tuturdu məni.

Bağçanın çıxışına nişanlısı gələndə gedib təpik atmışdım, ağlamışdım. Sonra nişanlısı bağçaya bir də gəlmədi. Yəqin ki, qız demişdi. Bəlkə də ağlamayım deyə...

Nədənsə yadıma düşdü, tərbiyəçi mövzusu gündəm olduğu vaxtda...

Onun silləsi olmadı, amma sığalını da indiyə kimi unutmadım...

Belə də mümkündür, əzizlərim. Sillə, ya da sığalla yadda qalmaq sizin əlinizdədir.

Peskov: "NATO sülh göyərçini deyil, qarşıdurma silahıdır"

Rusiya prezidentinin mətbuat katibi NATO-nu qarşıdurma silahı adlandırıb və qeyd edib ki, birlik sülh və sabitlik göyərçini deyil.

Adalet.az Kommersant.ru-ya istinadən xəbər verir ki, Dmitri Peskov CNN (ABŞ) telekanalına müsahibə verib: "Ukraynada Rusiya ordusu yoxdur. Donbassda rus qoşunları yoxdur, rus qoşunları yalnız Rusiya ərazisində var".

O, Rusiya - Ukrayna - NATO arasındakı münasibətlərlə bağlı deyib ki, Rusiya Ukraynaya görə heç kimi hərbi əməliyyatla hədələmir, əksinə, Rusiya ancaq cavab tədbirləri görməyə hazır olacaq. Rusiya ilə NATO arasında münasibətlər birliyin Ukraynaya doğru irəliləməsi səbəbindən qırmızı xəttə yaxınlaşıb: "Biz Ukraynanın NATO tərəfindən tədricən işğalını müşahidə edirik. Hadisələrin bu cür gedişatı Moskva ilə birliyin əlaqələrini qırmızı xəttə gətirib çıxarıb. Rusiya daha buna dözə bilməz", - deyə Peskov bildirib.

Qeyd edək ki, dünya mətbuatı hazırda 2022-ci ilin əvvəlindən başlayaraq Rusiyanın Voronej vilayətindəki "Baltimor" aviabazasına 24 Su-34 qırıcı-bombardmançıları yerləşdirməsindən yazır. Aviabaza Ukrayna sərhədlərindən cəmi 180 kilometr məsafədədir və orada yerləşdirilən 4++ nəsil qırıcı-bombardmançılar Rusiyanın bu ölkəyə gözlənilən hücumu zamanı cəmi bir neçə dəqiqə ərzində havaya qalxıb Ukrayna ərazisindəki hədəflərə hava zərbələri endirə bilər. Məlumata görə Rusiyanın Uzaq Şərqindən Ukrayna sərhədlərinə doğru "İsgəndər-M" operativ-taktiki raket kopleksləri daşınır. "Conflict Intelligence Team" (CIT) layihəsi şahidlərdən biri tərəfindən çəkilən və bir neçə gün əvvəl Uzaq Şərqdə dəmir yol eşalonlarına yüklənən "İsgəndər-M" komplekslərinin görüntülərinin əks olunduğu videokadrları yayıb.

Separatçı David Babayanın açıqlaması: "Azərbaycanın "dqr"ə hücumu Rusiya SM-na hücum deməkdi"

"Azərbaycanın Dağlıq Qarabağa növbəti təcavüzü Rusiyanın sülhməramlılarına hücumuna bərabər olacaq".

Adalet.az Sputnik.armenia-ya istinadən xəbər verir ki, bu sözləri qondarma "dqr"in xarici işlər naziri David Babayan mətbuat konfransında bildirib. Onun sözlərinə görə, indiki mərhələdə Dağlıq Qarabağda yeni müharibənin başlanması ehtimalı çox azdır.

"Təbii ki, Qarabağda və ya Ermənistan sərhədində hərbi əməliyyatların yenidən başlanması aktual məsələ olsa da Azərbaycanın Ermənistana qarşı genişmiqyaslı təcavüzü Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına faktiki hücum demək olacaq.Biz Qazaxıstanda baş verən son hadisələri və KTMT-nin ilk reaksiyasını gördük. Ermənistana hücum KTMT-yə, ən azı Rusiyaya, Rusiyanın Qarabağda yerləşən sülhməramlılarına hücum demək olardı. Dağlıq Qarabağa gəlincə, burada Rusiya sülhməramlıları tərəfindən sabitlik və təhlükəsizlik təmin edilir - Babayan bildirib.

Qeyd edək ki, separatçı David Babayan Ermənistanın baş naziri Nikol Paşinyanın Qarabağ məsələsi ilə bağlı açıqlamalarına münasibət bildirmişdi:"Xüsusilə qeyd etmək istəyirəm ki, erməni əhali Bakıya, Kirovabad, Sumqayıt və s.-ə qayıtmadan azərbaycanlı qaçqınların DQR-dəki keçmiş yaşayış yerlərinə qayıtması mümkün deyil", - deyə sərsəmləmişdi

P.S. *İtdən soruşurlar: Niyə hürürsən?*
Deyir: Qorxuduram!
Soruşurlar: Bəs niyə quyruğun əsir?
Deyir: Çünki özüm də qorxuram.
İndi bu separatçıların: Beqlaryanın, Artunyanın, Babayanın, Balasanyanın yeri gəldi-gəlmədi hürməsinin əsas səbəbi Qarabağda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarına güvənərək qarşı tərəfi qorxutmaq cəhdidir. Buna baxmayaraq, dünyanın işini bilmək olmaz, qəflətən Rusiya sülhməramlıları Qarabağı tərk edərsə, düşəcəkləri durum da onları qorxudur. Odur ki, tez-tələsik nələrəsə nail olmaq arzularını hələ ki, səsləndirməkdə azaddırlar. Bir sözlə, çaqqalların meydan sulaması boz qurdlar gələnə qədərdi.

Əntiqə Rəşid

"Vətənpərvəlik, vicdan, iman, ədəb, qürur pulla alınmır"

Həmsöhbətimiz Zəngilan rayonu, 4 nömrəli ümumi orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi Günel Əliyevadır.

- Adətən kənd müəllimləri məsafəyə görə önə çıxarılır ki, uzaq yol qət edirlər. Siz özünüzsə Sumqayıtda yaşayıb Bakıda işləyirsiniz. Saatlarla yollarda olduğunuzu qeyd edirsiniz. Bu necə baş verir?

- Mən 2008-ci oldə Bakı Slavyan Universitetini bitirəndə həmin il təyinatla işlə təmin olunma var idi. Təyinat üzrə Universitetin rektoru Kamal Abdulla tərəfindən sənədlərim Zəngilan Rayon Təhsil şöbəsinə göndərildi və 2008-2009- cu tədris ilində Zəngilan rayonu 4 nömrəli ümumi orta məktəbdə öz ixtisasım üzrə işlə təmin olundum. İlk gündən məktəbin rəhbərliyi və kollektivi tərəfindən yaxşı qarşılandım. Çətin və məsuliyyətli olmağımın I mərhələsi universiteti bitirib gələn gənc müəlliməyə sinif rəhbərliyin verilməsi ilə başladı. Daha sonra isə Uşaq Birliyinin sədri və Ədəbiyyat sevərlər dərnəyinin rəhbəri vəzifələrini icra etdim. Hal-hazırda isə Təlim- tərbiyə İşləri üzrə direktor müavini işləyirəm.

Məsafənin uzaqlığına gəldikdə isə ailə qurmamışdan əvvəl məktəbə yaxın məsafədə yaşıyırdım. Ailə qurduqdan sonra bir müddət yenə məktəbə yaxın ərazidə yaşasaq da ana olduqdan sonra yaşayış yerini dəyişdik. Məsafə çox uzaq olduğuna və uşaqlar da balaca idi deyə işləmək çətin idi. Bağça yaşına çatanda saat 7 də bağçaya qoyub, işə gedirdim, sonra pandemiya şəraiti yarandı azca işim yüngülləşdi dərsləri onlayn keçirdim, yəni yola sərf etdiyim 1 saat 40(gedib- gəlmək 4saata yaxın) dəqiqəni övladlarıma ayırırdım.. Bu ildən isə dərslər əyani olduğundan yenə çətin və məsuliyyətli günlər başladı. Çünki artıq övladlarım məktəblidir. Yenə tezdən saat 7 də övladlarımı məktəbə qoyub, işə gedirəm. Həmişə zarafatla deyirəm ki, övladlarımın məktəbini biz açırıq , amma nə etmək olar işimi sevirəm və şagirdlərimin sevgisin görəndə yorğunluğumu hiss etmirəm. Əksinə özümü daha xoşbəxt hiss edirəm, yəni onun sözlə ifdəsi yoxdur.

Müsbət keyfiyyətlər əsalətlə bağlıdır

- Bir müəllimə tanıyıram. İş-gücü hansısa vasitə ilə Bakıda işə düzəlməkdi. Amma kənd həyatından, ordakı təhsildən elə danışır ki, elə bilərsən, ondan fədakar, vətənpərvər birini tapa bilməzsən. Belə saxta " fədakar" lardan necə qurtulmaq mümkündür?

-Əslində, kənardan bu sual həm gülməli, həm də ürək ağrıdıcıdır, çünki insan kənardan özün görməyi bacarmalıdır ki, onun haqqında belə fikirlər yaranmasın.

Həmişə deyirəm, vətənpərvəlik, vicdan, iman, ədəb, qürur bunlar pulla alınmır, bu müsbət keyfiyyətlər əsalətlə bağlıdır, yəni sənin ailəndə, nəslində dəyər, dəyər vermək anlayşı yoxdursa onu görüb- götürmək həm çətin olar, həm də yamaq kimi görünər. Ona görədə insan öz potensialına inanıb mübarizə aparmalıdır, həmin mübarizədə səbrli və inadkar olsa gec-tez apardığı mübarizənin müsbət nəticəsini görəcək, əgər həmin mübarizədə qürurun itirmiyibsə.

Sualı verərkən nəzərdən tutduğunuz müəlliməyə də uğurlar arzulayıram.

-Son vaxtlar mediada şagird- müəllim davranışlarıyla bağlı kifayət qədər yazılar gedir, müxtəlif paylaşımlar olur(şagird döyülməsi, saçla bağlı məsələ və s.) Müəllim və şagirdlərin bir-birindən alıb- vermədiyi nədir? Təlim-tərbiyə işləri üzrə direktor müavini olaraq bu işləri necə yoluna qoyursunuz ?

-Müəllimlik elə bir ali peşədir ki, bütün insani keyfiyyətləri sən öyrədirsən, yəni şagird ağ vəraqdir və müəllim həmin vəraqi ya rəngarəng yazıb sevgi aşılayacaq, ya da diqqət və qayğı göstərmədən həmin şagirdin qəlbində sadəcə müəllim olaraq qalacaq.

Mən isə həmişə bu fikri deyirəm "Şəxsiyyəti valideyn, ruhu isə müəllim tərbiyə edir!"

Artıq 14 ildi müəllim, 5 aydı Təlim-tərbiyə işləri üzrə direktor müavini işləyirəm, amma qeyd edim ki, indi icra etdiyim vəzifə əvvəlki illərdən daha çox məsuliyyətli və qayğıkeş olmağı tələb edir. İzahı çox sadədi əvvəl əgər 2-3 sinifdə həftənin 4 günü 60 şagirdlə ünsiyyətdə olurdumsa, indi demək olar ki, hər gün, məktəbin bütün şagirdləri ilə ünsiyyətdə oluram, bu ünsiyyətin daha səmərəli olması üçün məktəbin psixoloqunun dəstəyi vacibdir, çünki hər bir şagird fərddir və fərqli temperamentdədir, fərqli ailələrdən gəlirlər. Bəzən elə nüanslarla rastlaşıram ki, şagird valideyndən daha çox məsuliyyətli və ətrafa daha diqqətlidir, bu zaman həmin uşaqlarla hər hansısa problem yarananda fərdi şəkildə səmimi söhbətlərə daha çox yer ayırıram, nəticə də çox gözəl olur. Qaldı ki, sizin rastlaşdığınız problemlərə həmişə təhqir və zorakılığın əleyhinə olmuşam. Fikirləşirəm ki, bəzən məktəb rəhbərliyi istər müəlllimləri, istərsə də şagirdləri ciddi nəzarətdə saxlasa belə anlaşılmazlıqlar yaşanmaz.

Valideynlər qonşu, qohum nə deyər bəhanəsiylə min bir yalan danışır

-Razıyam ki, çətin tərbiyə olunan şagirdlər də yox deyil. Bunun üçün dövlətin xüsusi məktəbləri var. Bəs o, şagirdlər niyə həmin məktəblərə yönləndirilmir? Belə " yola vermələr" sonradan yuxarıda qeyd etdiyimiz problemlərə , situasiyalara səbəb olur.

-Sizin fikrinizlə razıyam, amma sizə sadə bir misal deyim, son vaxtlar uşaqlarda danışma problemi olur, ya da autizm. Valideynlər qonşu, qohum nə deyər biz loqopedə, psixoloqa getsək, aparanda da gizlətmək üçün min bir yalan danışırlar. Baxın çətin tərbiyə olunan uşaqları da valideynə desək, inanın valideyn kənarda qalır nənəbaba məktəbə gəlir elə danışır dediyin sözə peşiman olursan. Ona görə də bütün məktəblərdə 4-5 çətin tərbiyə olunan şagird olur, onlarla ünsiyyət quranda ancaq və ancaq səmimi olmaq lazımdır və psixoloqlar onun maraq dairəsin müəyyənləşdirib, həmin müəllimlərlə birgə işləyib, sonda müsbət nəticə əldə edə bilərlər.

-Təhsil Nazirliyinin V qrant layihəsinin qalibi olmusunuz. Bu barədə danışarsınız.

-Qeyd edim ki, heç vaxt dayanmaq bilməyən həyatla bərabər daim irəliyə doğru getmək lazımdır. Mən də 4 il analıq məzuniyyətində olduğum üçün işə qayıdanda hər şeyə sıfırdan başlamalı oldum, çünki proqram eyni olsa da dərs metodları demək olar dəyişmişdi.

Uğur qazanmağımın başlanğıcı isə AMA- nın təşkil etdiyi Təlimçilik məktəbi - 2 qoşulmağım oldu. Elə həmin vaxtda Təhsil Nazirliyi tərəfindən elan olunan " Təhsildə İnkişaf və innovasiyalar üzrə Vqrant müsabiqəsində fərdi katiqoriya üzrə " Könlümü dindir" bədii qiraət mövzusunda layihə təqdim etdim. 2021-ci ildə Təhsil Nazirliyi tərəfindən Təhsildə inkişaf və innovasiyalar üzrə Vqrant müsabiqəsinin qalibi oldum.

Zəngilan rayonu üzrə 9 məktəbdən 120 şagird layihənin seçim turunda iştirak etdi, amma sorğu anketi əsasında 5 məktəb və 25 şagird isə layihənin 3 aylıq icrası zamanı təlimlərdə və masterklaslarda fəal iştirak edirdi. Ləyihəni müvəffəqiyyətlə başa vurdum, çünki Zəngilan rayonu üzrə çox istedadlı şagirdlərlə tanış oldum, " Nitq mədəniyyəti " üzrə masterklasını təhsil ekspert Tofiq Sadıxov, " Səhnə mədəniyyəti", " İncəsənətə malikəm" masterklaslarını isə tanınmış aktyorlar Elman Rəfiyev (Pantomim teatrının direktoru, əməkdar artist),Vaqif İbrahim (Bakı Dövlət Sirkinin janr artisti), bədii qiraət üzrə masterklası isə qiraətçi Anar Adil keçdi. Qarşıda daha gözəl işlərə imza atacam, əlbəttə ki, ilk növbədə özümün əzmimə və iradəmə inanıram, sonra isə hər zaman mənə dəstək olan ailəmə və ən əsası anama. Nəyə görə dedim ailəmə, çünki biz hələ də cəmiyyət olaraq qadının karyera qurmasına şübhə ilə yanaşırıq və fikirləşirik ki, qadın ancaq ev işləri ilə məşğul olmalıdır. Ona görə də bəzən yersiz suallardan yoruluram, çalışıram ki, gördüyüm işlərlə onlara cavab verim, ümid edirəm ki, tezliklə bu problemlər aradan qalxar və vəzifədə olan qadınların sayı artar ən əsası isə qısa zamanda Azərbaycanda da Nazir qadın olar .

- İnsanların könlünü bu layihə ilə dindirə bildinizmi?

-Layihə yazarkən fikirləşirdim ki, adı elə seçməliyəm ki, maraqlı olsun və xoş təəssürat yaratsın. Şükür layihədə nəzərdə tutduqlarımı 3 ay müddətində (15 sentyabr- 15 dekabr) həyata keçirtdim. Bizim layihənin əsas məqsədi məktəbliləri incəsənətə, sosial-mədəni sahələrə, ədəbiyyata, mütaliə etməyə həvəsləndirərək onlar üçün öz istedadlarını kəşf edə biləcəkləri yaradıcı, sosial və mədəni mühit yaratmaqla onlarda səhnə mədəniyyəti, nitq və fikri düzgün ifadəetmə bacarıqlarını inkişaf etdirmək, eyni zamanda könüllü peşəkarların dəstəyi ilə bədii obrazları özünəməxsus şəkildə müasir dövrə uyğun canlandırmaqla fikirlərini emosiyalarla ifadə etməyi öyrətmək idi. Düşünürəm ki, layihəni uğurla həyata keçirtdim, çox istedadlı uşaqlarla tanış oldum, istedadı olub, ailəsi tərəfindən dəstək görməyən bir neçə uşağın valideyni ilə fərdi söhbətlər əsasında layihəyə cəlb etdim, gözəl rəsm qabliyyəti olan uşaqların layihənin bağlanış tədbirində sərgisini təşkil etdik. Layihənin ən gözəl tərəfi isə uşaqların qəlbini sev

...Yamacların yaxasından sakit-sakit axar sular, Yasinimi oxutsunlar, ölməyim sonraya qalsın.

Səbuhi Vəliyevin yeni şeirləri Məzahir Əhmədoğlunun təqdimatında

O mələyi görüncə

Göylərdən enən mələk,
Quşlarla qanadlanan,
Sularla dinən mələk.
Sevgi ahından yanan,
Şamlarla sönən mələk.

Yağan yağışla gəlir,
Xalılar üzərində
İlmə-naxışla gəlir.
Bəlalar üzərindən
Dilində xeyir-dua
Ovcunda yaşla gəlir.
Hərdən gözləri gülür,
Kimsə ağır gününə
Dostla, tanışla gəlir.

Mələk uçduqca görür,
Bir günahkar bəndənin
Üzü yanan şamadır,
Yamanca peşimandır .
Duası cəhənnəmin
Odunu söndürəcək
Həzin bir oxşamadır.

Allah bilir düzünü -
Onsuz heç kəs,heç zaman
Ömür-gün yaşamadı.
Göylərin güzgüsündə
Bu dünyanın özü də
Özünə oxşamadı.

Dağları aşa-aşa
Qanad çalan quşlar da,
O mələyi görüncə
Qanad salan quşlar da ,
İzlərinə baş qoyub
Göylərdə axşamladı.

Əsib coşan küləklər,
Gördü ki, dörd bir tərəf
Yanıb solan əkindi.
Mələkdənmi çəkindi?
Buludların yükünü
Uzağa daşımadı.

Yaranın yaşı çoxdu

(Nakam şairlərin xatirəsinə)

İllərlə sinəsidə
Gəzdirirdi yarasını,
Heç tapmadı çarəsini.
Məlhəmi yox, gəz aləmi
Əzabın da öz aləmi...
Quş budağa enən kimi
Dodaqları südlü uşaq
Əzablar üstünə endi.
Baca kimi açılmışdı
Bir ürəyin yarası.
Hey dolandı başına
Onun ciyərparası.
Axı hardan biləydi
Nələr gəlib atasının başına.
Bir ömür yaşayıb ki,
Yaz mehindən xəbərsiz,
Boranı, qışı çoxdu.
Körpənin nə yaşı var,
Yaranın yaşı çoxdu.
Üstündə gəzdikcə əli
İsti yayıldı canına.
Ağrılı istiydi bu,
Qayıtmaq istəmədi
Ananın qucağına .
Bu qaydadı, hər dəfə
Uşaqlardı yaraların hədəfi.
İnsafsız, mürvətsiz yara
Bir gör kimi soraqladı,
Kimin payına düşdü.
Süd qoxulu barmaqlarla
Fələyin sayına düşdü.
Südlü dodaqlarından
Gəldi bir az qan dadı
Yaradan axıb gedən
Qanlı misralardımı?
Nədisə qurumadı.
Ananın yanağından
İki damcı yaş düşdü.
Qolu yanına düşdü,
Südüsə qurumadı.
Çoxu batsa da yasa,
Xəbərsiz olanlar var
Hələ də bu yaradan...
Nədən bu gördüyündən
Bir anlığa da olsa
Ana ilə balanı
Ayırmadı yaradan?

Amma ki, dözəmmədi,
Öz əzəli taxtından
Endi bir az aşağı.
Dili vaxtsız-vədəsiz
Açılmışdı uşağın.

Sən demə...

Yarpaqları danışdıran
Göydə ay imiş sən demə.
Sakit-sakit axıb gedən
Ayla çay imiş sən demə.
Çayın qoşulub getdiyi
Sevimli yar imiş sən demə.

Sükut pozuldu indicə,
Ayıldı, diksindi gecə.
Bu səsə səs verdi əcəl
Qeybdən hay imiş sən demə.

Üstündə yarpaq kimi
Əsim-əsim əsdiyimiz ,
Hərdənbir bezdiyimiz
Bizim ömür dediyimiz
Zalım fələyin əlində
Beş günlük say imiş sən demə.

Sonraya qalsın

Xeyirlə şər həmənkidir,
Nə sonudur, nə ilkidir.
Ay bu gecə mənimkidir,
Ulduzlar səmaya qalsın.

Baharın gül havasından,
İllərin yel ifasından,
Ürəklərin yarasında
Bir məlhəm saniyə qalsın.

Bəndə sayanın hamısı
Qoy fələk sayana qalsın.
Kasıb bir evin qapısı
Bir günlük saraya qalsın.

Yuxuda var gəzməyimiz,
Quruda qar gəzməyimiz,
Ayda dəniz görməyimiz
Bir dəli sevdaya qalsın.

Yamacların yaxasından
Sakit -sakit axar sular.
Yasinimi oxutsunlar
Ölməyim sonraya qalsın.

Budağına qonmayan quş

Öz doğma budağına
Qona bilməyən bir quş.
Dağ çəkilib bağrına,
Sinənsə naxış-naxış.

Kaş dimdiyin çox iti,
Qanadın iri olaydı.
Səndən gen qaçan quşlar,
Uçanda diri olaydı.

Budağına qonan quş
Ağır xəyala dalmış,-
Nola, bir aylı axşam
Perikdirdiyi quşun
Cəh-cəhinə qoşulan
Quşların biri olaydı.

Bu budağın üstündə
Nə işıq, nə meh görər.
Qanadların bəhsində
Öz yerini səhv görər.
O quş hardadır görən?
Kaş ayağı altında
Ölməyə yeri olaydı.

Çiynimdəki əlləri

Ürəyimə xal salanın
Yanağında xalına bax,
Yerə düşən salamımın
Çırağımda halına bax.

Əlində gül gedən qızın
Sən hörümçək toruna bax.
At belində gedən qızın
Pay-piyada yarına bax.

Göylərdən bir ulduz axdı,
Ölüm-qalım yoluna bax.
Bir yazığın axırıdır,
Sən sağ qalan zalıma bax.

Bunları görməzmi oldu?
Əlləri çiynimdə, özü
Ulduzlarla qalana bax.
Bir ulduz qurbanı üstdən,
Qurban gəzən ürəksizin
İkiəlli zoruna bax.

Bir zərrə işıq

Qıvrılıb axan çayın,
Suları nə sərindir.
Dərindən də dərindir.
Özünün nəyi var ki,
Nəyi var göylərindir.

Özünün deyil əsla
Aydan düşən işıq da.
Fikrində , xəyalında
Canına qəsd eləyən,
Axıb gedib sularla
Günahını bölüşən
Bir yaralı aşiq də.

Anbaan, dönə-dönə
Gör nələrə tapındın,
Əvəzini ver indi.
Səni məhşər gününə
Sağ-salamat aparan
Əziz-xələf səbrindir.

Keçdiyin yol dərbədər
Göylər imdad yerindir.
Bu dünya işığından
Bir zərrə düşsə əgər,
Demək sənin qəbrindir.

Ənginlikdən zəng

Çiyninə düşən yarpaq,
Çöhrən kimi saralar.
Özün deyildin, mənə
Qollarındı sarılan.

Sevənlərin biri xata,
Rəngdən-rəngə girər niyə?
Axır ki, peşiman atında
Yüyən çəkər ənginliyə.

Yanlış olan bir andı bu,
Bu zalımmı ərk eləyən?
Qılıncsız bir meydandı bu,
Qılınc sözlər, baxışlardı
cəng eləyən.

Hərənin üzü bir yana
O duyğu çətin oyana.
Ayrılıqdı yana-yana
Axmaq-axmaq zəng eləyən.

Şirin bir yalan

Dağlardır, bir də göy üzü,
Gecə haqlayır gündüzü.
Sirrdisə, bilənə qaldı.
Dünyanın ən ağlar gözü
Ürəkdən gülənə qaldı.

Kim deyir ki, şahlıq taxtı
Əlləri yalına qaldı.
Bu dünyanın düzəlməyi
Şirin bir yalana qaldı.

Nazlıların ən gözəli
Axırda alana qaldı.
Arzuların ən gözəli
Yuxuda ölənə qaldı.

Hərdən torpaq da göynəyir,
Sorur şeh düşəndə hirslə
Çiçəyə, gülə nə qaldı?
Vətənimin daş ürəyi
Bir çayın haray səsilə
Tən yarı bölənə qaldı.

Bir gün qalxıb öyünəcək,
Qurtarmayıb hələ dava.
Beşikdən qəbr evinəcən
Oynamadığınız hava
Əzrayıl gələnə qaldı.

Göydə ay imiş demə...

Ay işığı altında
Görünür nəyimiz var,
Pisimiz, yaxşımız da.
Haqqa tərəf əyilir
Ağaran başımız da.

Bu mizan-tərəzidə
Nəsə var hələ bizdən.
Var dava-dalaşımız,
Yersiz barışımız da.
Qışda baharımız da.
Baharda qışımız da.

Görür göylər yaşıdı
Gücü çatmır neyləsin?
Dünya yır-yığışıdır,
Bir xəmir yoğrulub ki
Saca yatmır, neyləsin?

Bu göylər yer aşiqi,
Çox şeylər dəyişəcək.
Baxma ki, hər piyada
Özünü bir şah bilir.
Əgər yenə şər qalsa,
Kim bilir Ay işığı
Haralara düşəcək
Bunu bir Allah bilir.

O zaman cəhənnəm də,
Cənnət də heç olacaq.
Ay işığını alan
Bizə qənim yerlərə
Lənət də gec olacaq.

Hələ ki, bizimlədir,
Ay işığı bizimlə.
Səpilir ruhumuza
İlahi bir düzümlə.

Ah, necə də ağırdır,
Xəzan örtmüş cığırda
Yorğun ay işığının
Bir bəxtsizə qoşulub
Sevgili gözləməyi.

Bir gecənin içində,
Quruyan bulaq üstdən
Gələn yanıqlı səsdən
Çəkilib gizlənməyi.

Ya da nakam bir ömrün
Ən son işartısına
Baxaraq sına-sına
Göylərdə elə-belə
Boş-boşuna gəzməyi.

"Böyük sözün işığında"



Ötən ilin sonlarında dostlarımdan biri həmişə olduğu kimi redaksiyamıza gəlmişdi. Çantasında bir neçə kitab gördüm. Nə qədər gizlətməyə çalışsa da, bacarmadı. Özü də yaxşı bilirdi ki, təzə kitablar, yəni oxumadığım kitablar həmişə mənim üçün maraqlı olur. Çalışmışam ki, həmin kitabı hansısa vasitədən istifadə edib özümünküləşdirim.

Dostumun çantasındakı kitabdan birini necə deyərlər "üzə salıb" onun əlindən aldım. Bu kitab orta məktəb illərindən əsərlərini sevə-sevə oxuduğum, xüsusi ilə "Budağın xatirələri"ni az qala əzbərlədiyim, "Turaclıya gedən yol"u gözü yumulu gəzdiyim və digər əsərlərini də kitabxanamda yuxarı başda saxladığım unudulmaz yazıçımız Əli Vəliyev haqqında xatirələr idi. Gözü yumulu götürdüyüm kitabı vərəqlədim. Xalq yazıçımız barəsində dəyərli ədəbiyyat adamlarının, xalq şairləri Bəxtiyar Vahabzadənin, Məmməd Arazın, Xəlil Rzanın, Rəsul Rzanın, xalq yazıçıları Mirzə İbrahimovun, Süleyman Rəhimovun, İlyas Əfəndiyevin, Bayram Bayramovun, Hüseyn Abbaszadənin, İsmayıl Şıxlının və digərlərinin Əli müəllimlə bağlı xatirələri mənim sevdiyim bir yazıçının özəl həyatı ilə də qarşılaşdırdı. Onun yumor, həyat eşqi dolu ömrünə bir müşahidəçi kimi kənardan baxır, romanlarındakı həyat ilə həmin həyatı paralelləşdirdim. Və əmin oldum ki, məhz bu həyatın sahibi bizə təqdim etdiyi romanlardakı həyatı sözün gerçək mənasında, bu və ya digər formada yaşayıb. Ona görə də onun özü də, sözü də oxucuları tərəfindən sevilibdir.

Sonda onu da xatırladım ki, kitabın tərtibçisi Yaşar Əliyev, redaktoru isə Bəhlul Abbasovdur. Kitab Azərbaycan Dövlət Tərcümə Mərkəzində çap olunubdur.

Əbülfət MƏDƏTOĞLU

160 min insandan qan yığan Adnan Oktar şəbəkəsi, dövrün Türkiyəsi və Səhiyyə Naziri...

Uzun zaman öncə Türkiyədə gənc bir beyin cərrahının həyatı gündəmə gəlir. Qəzetlər leykemiyadan əziyyət çəkdiyini yazmağa başlayır. Halbuki həmin dövrdə minlərlə insan leykemiyadan əziyyət çəkirdi. Amma nədənsə, yalnız bir beyin cərrahının xəstəliyi gündəmi zəbt etmişdi. Qəzetlər get-gedə xəbərin miqyasını böyütməyə başlayırlar. Gənc həkimə ilik axtarılırdı. Sonra işə böyük televiziya kanalları da girir. Günün əsas xəbər buraxılışının axırlarına yaxın gənc həkim üçün ilik axtarılması barədə xəbər verirlər. İctimai rəy

yüksəlməkdə davam edirdi. "Gənc həkim üçün zaman daralır", "Gənc beyin cərrahı üçün zamana qarşı yarış!". Qəzetlər bu başlıqlarla xəbəri manşetə verməyə başlayırlar.

Evdə dua edən kim, "Yasin" oxuyub şəfa istəyən kim... Qosqoca millət bir adamın sağlamlığı üçün səfərbər olmuşdu. Artıq televiziya kanallarında özəl yayımlar da başlamışdı. "Bu həkimi xilas edin!".

Və kampaniya başlayır. Əgər uyğun ilik üçün kampaniya başladılsa, bəlkə də yaşaya bilərdi. "Abdi İpəkçi" idman zalı bağlatdırılır. İçində xəstəxana qurulur. 30 həkim, 60 tibb işçisi tapılır. Xərəklər, təhlil dəstləri... Bildiyimiz qan mərkəzi yaradılır. Və növbədə duran vətəndaşlardan bir-bir qan örnəkləri götürülür. Növbə 30-50 adam yox, minlərlə adam gözləyir. Növbənin bir ucu idman zalında başlayır, digər ucu işıqforlara qədər uzanıb 3 kilometrlik quyruğa dönür. O gün qan örnəyi verə bilməyənlər evlərinə çox pis əhvalla geri dönürlər. Amma ertəsi gün də qan vermək istəyənlərin ardı-arası kəsilmir.

TV-lər ekranlarının aşağısına sayğac qoyurlar. Gənc həkimin fotosu və bir sayğac. Sanki xalq "Survivor" yarışması izləyirdi. "38 gün qaldı, 37 gün qaldı, 36...". Sayğacın işlədiyi zaman neçə-neçə insan leykemiyadan həyatını itirirdi. Heç kimin vecinə deyildi. Yalnız beyin cərrahı xilas edilməli idi. Heç "Qızılaypara" bu qədər qan toplamamışdı.

160 min insan!

Qan verənlərin sayıdır.

Nəinki ölkədən, hətta başqa ölkələrdən qan yollayanlar da var idi.

Həkimin adı Oktar Babuna imiş. O günlərdə bilinmirdi, sən demə Adnan Oktarın baş müridi imiş.

Heç kim eşitmirdi, görmürdü, hamının ağzında bir cümlə bitmişdi - Gənc həkimi xilas edin, ölməsin!".

Həmin dövr Türkiyədə qan təhlili etmək üçün kifayət qədər laboratoriya olmadığına görə qan örnəkləri xarici ölkələrə göndərilir. Elə bu məqamda ortaya bir qəhrəman çıxır.

Səhiyyə naziri Osman Durmuş!

Vəziyyətə etiraz edir, "qan örnəkləri xaricə göndərilə bilməz" - deyir. Bu dəfə hamılıqla Osman Durmuşun üstünə düşürlər. Xain çıxarırlar. Qəzetlər "Gənc bir həkimi öldürmək istəyir" başlıqlı xəbər yazırlar. TV-lərdə Osman Durmuşla məzələnilər, ələ salırlar.

Qanla birgə pul da yığmağa başlayırlar. Osman Durmuş məhkəməyə şikayət edir, pul yığımı dayandırılır. Sonra yığılan qanların arxasına düşür. 120 min adamdan alınan qan ortada yox idi. İzinə düşür, qanlar Amerikada ortaya çıxır.

Osman Durmuşu topa tuturlar, demədikləri qalmır, amma o, linçi vecinə almır, yoluna davam edir.

Həmin dövrdə quş qripi var idi. Qəfildən ortaya çıxan vaksinə etiraz edir. "Mən bu qədər qısa müddətdə nə olduğu bilinməyən peyvəndi vurmaram da, vurdurmaram da" - deyir. "Elmin təməli şübhəçilik və sorğulamaqdır" prinsipilə yaşayırdı və qorxmadan bu yolda vuruşurdu, mübarizə aparırdı.

Osman Durmuşun həyatı, fəaliyyəti biləndən sonra günümüzün səhiyyəsinə baxırsan, dünyanın virus-vaksin oyununa baxırsan, dərindən bir Osman Durmuş arzulayırsan.

Ruhu şad olsun!

Hazırladı:
Eminquey

Üşüyən ruhları isitmək üçün...

Ülvi Bünyadzadə başda olmaqla, 20 Yanvar şəhidlərinə və bütün qazilərə...

O, Bakıda olsa da, ən böyük cəbhədə vuruşurdu. Ülvi də, həmfikirləri də... Hər yer səngər idi. Bakının səsi da, insanları da... Ən böyük səngər elə düşüncələrdə, fikirlərdə, ruhunun savaşında yatmırmı?

Düşüncələrlə döyüşürdülər, ideologiya ilə mübarizə aparırdılar. Fikirlər arasındakı fərqlər cəbhənin ən amansız döyüş yerləri, onları qəbul etməyən ürəklərsə Azərbaycan xalqının səngəriydi.

Qələmlə yazılanlar idi Bakı küçələrində axan qanları. Qələmlə bir xalqın edamına imzalanmış qərar. O qələmin yazdıqlarını silirdi pozan kimi Bakı küçələrinə axan azadlıq şəhidlərinin qanı.

Şəhidlər Xiyabanından keçirəm. Şəhid məzarlarının ayaqları, sanki bu günün uşaqlarına doğru uzanmış azadlıq əlləridir. Üzümə hayqırır, ayaqlar da döyüşür, cənab, döyüşür. Şairlik duyğularım ədiblərimizin sahibsiz döyüşən ayaqlarını xatırladır. Dünənin bu gününə yazılmış şeirdəki kimi...

Krımda bir cüt uşaq qəbri kimi
dəfn eləyib ayaqlarını.
Arzularını qoltuq ağacı eləyib
dişləyib dodağını.
Nə ağlayıb, nə də off! - deyib.
İndi soyuq dəyib,
qızdırma salıb onu yaman hala,
sayıqlayır yavaş-yavaş:
- Ay arvad, ayaqlarım üşüyür,
ayaq barmaqlarımı ovxala, -
Gilələnir gözlərində yaş...

Fikrət Qoca

Sumqayıtda bir qazi tanıyırdım. Qarabağda minaya düşmüş ayağını əlinə götürüb, yalnız hospitala çatanda bayraq kimi əlində qoruduğu ayağını ala biliblər ondan. Gileylənirdi, özünün hər zaman ayağından bir neçə addım geri qaldığından:

...danlayır özünü hər səhər-axşam
əlini başına, dizinə çırpır:
o qaldı cəbhədə,
mənsə qayıtdım
ayağım özümdən qeyrətli çıxdı...

Şəhidlər Xiyabanında 20 Yanvar şəhidlərinin məzarından aşağı doğru enəndə beş yaşlı uşağın şəhid məzarı var.

Beş yaşlı uşağın məzarı...
Beş yaşlı uşağın...
Uşağın...

Beşiyə çevrilən məzarı "əmi"lərinin yanındadır. Məzar əmilərinin, böyüklərinin... Təkliyini, uşaqlığını hiss etdirməyin ona...

Sizə əmanətdir o beş yaşlı şəhid məzarı...

Şəhid şair Ülvi Bünyadzadədən 17 il sonra doğulmuşam. Amma indi ondan 12 yaş böyüyəm. 4 yaşımda şəhid olmuş Ülvidən. Gözümü qaçırdıram şəhid məzarlarından. Onların məsum baxışından və yaşımdan.

Qorxuram məndən öncə doğulub məndən kiçik qalanların məzarının "Əmi, azadlıq saatınızda zəngi neçəyə qoymusunuz oyanmağa, bəlkə saatınız geriyə işləyir?!" - kinayəli eyhamından...

Onlardan sonra ikinci dəfə doğuldu Azərbaycan bayrağı...

"Bayrakları bayrak yapan
üstündeki kandır
Toprak eğer uğrunda
ölen varsa vatandır".

Bayraq da üşüyən ruhu isidən geyimə çevrilə bilər. Ruhunun, qəlbinin azadlıq istəyinin köynəyinə.

Yaşımız xatırlamağa imkan vermir, amma onların cücərtdiyi azadlıq toxumlarının bəhrəsini 2016-cı ildə görmək bizə şəhid yox, şahid kimi qismət oldu.

2016-cı il Aprel döyüşləri zamanı Lələtəpə yüksəkliyi bir təpə olmaqdan əlavə, bir simvol idi. Xalqın məğlubluq simptomlarını üzərindən atdı, qırılmış qürurunu özünə qaytardı. Lələtəpə üzərində dalğalanan bayraqla daha da böyük anlam, simvolluq daşımağa başladı. O yüksəklik, Lələtəpə zamanın bayraqdarıdır.

Onun uğrunda vuruşan hər kəs onun bayraqdarıdır.

Uğrunda canlar keçildikcə bu bayraq sadəcə bir parça deyil, canımızdan bir parçaya dönür. Simvolik anlamdan dalğalandığı, dalğalanmasını istədiyimiz, bütün yerlər vətənləşir.

Bayraq özü də bir vətənə çevrilir.

İndi onlar yoxdu. Əli Kərim ruhunun dediyi kimi, simvolik anlamda olan o qollar, əslində, azadlıq ruhudur. Bu vətən uğrunda canını fəda edənlərin qollara çevrilmiş azadlıq hayqırtısı... Bizimlə addımlayan ruhları döyüşür, mübarizəyə səsləyir.

Qolu sındırılmış Babək.
Yurdu yandırılmış Babək.
Qan rəngli bir arabada
Şərq boyda bir xarabada
Söyə-söyə,
Döyə-döyə,
Hamıya görk olsun deyə
Kənd-kənd gəzdirilən Babək,
Ölübən-dirilən Babək;
Qollarını görməyəndə
Azca rahat olan Babək;
Bir qırmızı yuxu içrə,
Uzaqlara dalan Babək.
Deyən Babək: - Aman, dostlar,
Hücum çəkin qoşun-qoşun,
Orda mənsiz qılınc çalan
Qollarımla bir vuruşun.

Babəkin qollarını, onun qollarına çevrilən ruhunuzu salamlayıram, şəhidlər!

Emin Piri

"Tanrının göz yaşları"

Bu gün Azərbaycan oxucusunun diqqət mərkəzində olan mövzulardan biri də 44 günlük Böyük Vətən müharibəmizdir. Bu mövzu təkcə publisistlərin, senaristlərin deyil, həm də yazıçıların, şairlərin də üz tutduğu, ilham aldığı bir ünvandır. Necə deyərlər, hər kəs öz istedadına, bədii təfəkkürünə söykənib bu mövzu ətrafında gəzişmələr edir, yəni söz sərvətimizi daha da zənginləşdirir. Təbii ki, yazılan bütün nümunələr müəlliflərin imkanları səviyyəsindədi. Və oxucu da öz müəllifini məhz həmin imkanlar səviyyəsində seçib dəyərləndirir.

Bu günün ədəbiyyat adamlarından olan yazıçı-publisist Qafar Cəfərli də Qarabağ müharibəmizə, xüsusilə onun 44 günlük böyük Zəfərinə biganə qalmayıb. Hadisələrin inkişafı fonunda yaşanan hisslərin, duyğuların söz variantında o da bir qələm adamı olaraq ortaya tutarlı bir əsər qoyubdur. "Tanrının göz yaşlaarı" adlanan bu roman yazıçı-publisistin Müzəffər Ordumuzun Zəfərinə, onun rəşadətinə və xüsusilə kəşfiyyatçıların xidmətinə ithaf olunub. Romanda sərgilənən məqamlar bir xalqın, onun yurd nisgilli sakininin, şəhid ailəsinin, qazinin, döyüşçünün obrazları ilə cilalanıb. Əsəri oxuduqca müəllifin bu mövzuya isti-isti, yəni zamanını ötürmədən münasibət bildirməsi şəxsən bir oxucu kimi məni sevindirdi.

Doğrudur, biz hadisələrin şahidiyik, amma hər birimizin öz baxış bucağımız, öz yanaşmağımız var. Qələm dostum Qafar Cəfərli də bu romanında bizlərə təqdim etdiyi səhnələrlə, dialoqlarla təkcə eşitdiyini, yaşadığını, apardığı müşahidələri deyil, həm də yazıçı, vətəndaş mövqeyini də romana köçürə bilibdi. Ona görə də mənə görə əsər oxunaqlı, uğurlu alınıb.

Düşünürəm ki, Vətən müharibəsi tariximizə həsr olunmuş "Tanrının göz yaşları" romanı öz oxucusunu tapacaqdır. Müəllifə isə bir dost, bir həmkar, bir oxucu sevgisi ilə uğurlar diləyirəm.

Əbülfət MƏDƏTOĞLU

İlhami Cəfərsoy

Ukrayna bizim qardaşımızdır

Ukrayna kazakları rus işğalına qədər türk dilində danışırdılar. İşğaldan sonra onların qara günləri başladı. I Pyotr sərəncam verdi ki, Ukrayna kazakları orduda öz dillərində danışa bilməzlər. Bir müddət sonra çariçə Yekaterinanın əmri ilə kazaklara evlərində öz dillərində danışmaq qadağan olundu. Nəticədə türk dilləri ilə slavyan dillərinin qarışması nəticəsində Ukrayna dili yarandı. Ukraynalılar öz qopuzçu ozanlarına türkcə Kobzar deyirlər. Kobzar qopuz çalan ər deməkdir. Ukraynada şairlərə Sebçi deyirdilər. Türklər islamiyyətə qədər peyğəmbərə Sebçi deyiblər. Çünki onlar Tanrının sabını, yəni sözünü insanlara çatdırırdılar. Ukrayna xalqının ikinci etnik adı Xaxoldur. Onlar saçlarını qırxıb ortasında kəkil saxlayırdılar. Xaxol kəkil sözünün azca dəyişmiş formasıdır. Ölkə başçımızın Ukrayna ilə bağladığı müqavilə iki ölkə arasında yeni üfüqlər açacaqdır. Ruslar Qazaxıstandan getdikləri kimi bir gün Əsgəranla Şuşa arasından rədd olub gedəcəklər. O əziz, sevimli gün yaxındadır.

Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 3 (2277) 22 yanvar 2022-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Növbəti erməni məkri

Ermənilləşdirmə faktına münasibət və yaxud, Ağdamda - Beşikdağ məbədinin əfsanəsi

Əslində reallıq nədir?

Qarabağ qədim zamanlarda əsasən türklər və Qafqaz qəbilələrindən təşkil olunmuş qədim Azərbaycan dövləti olan - Qafqaz Albaniyasının tərkib hissəsi olmuşdur. Yuxarı Qarabağın Xankəndi, Ağdərə, Xocavənd, Şuşa, Düzən Qarabağın Bərdə, Tərtər, Ağdam, Ağcabədi, Füzuli, Beyləqan, həmçinin Laçın və Kəlbəcərdə arxeoloji tədqiqatlar zamanı aşkar edilmiş maddi mədəniyyət nümunələri, numizmatik dəlillər Qarabağın qədim maddi mədəniyyətini, etno-mədəni vəziyyətini, əhalinin sosial-iqtisadi səviyyəsini, məişət şəraitini, ümumiyyətlə, Azərbaycanın bu bölgəsinin iqtisadi, ictimai və mədəni tarixini hərtərəfli əks etdirir.

Albaniyada erkən orta əsrdə (IV əsrdə) xristianlıq dini qəbul edildikdən sonra Azərbaycanın tarixi torpaqları olan Qarabağ ərazisində IV-VII əsrlər tikinti mədəniyyətini səciyyələndirən xristian arxitekturası tipində, memarlıq üslubunda tikililər - alban xristian dini abidələri yaradılmışdır.

Azərbaycanda Qafqaz Albaniyası dövrü abidələrinin əksəriyyəti öz ilkin formasını qoruyaraq dövrümüzə çatmışdır. Bu abidələr içərisində Kəlbəcər rayonunda Xudavəng məbəd kompleksi (XIII əsr), Laçın rayonu Kosalar kəndindəki Ağoğlan məbədi (IX əsr), Xocavənd rayonu Sos kəndindəki Amaras monastrı (IV əsr) və Ağdərə (IV əsr) rayonlarındakı Müqəddəs Yelisey məbədləri, Ağdərə rayonu Vəng kəndində Qandzasar məbədi (XIV əsr), Qərbi Azərbaycan (Hazırda Ermənistan respublikasının yerləşdiyi ərazi) ərazisində Haqapat məbədi, Qoşavəng məbədi, Ağtala məbədi, Tatev məbədi, Uzunlar məbədi, Yenivəng məbədi, Sənain məbədi alban məbəd memarlığının dövrümüzə qədər çatmış ən gözəl nümunələridir. Belə məbədlərdən biri də, Ağdamda Beşikdağ alban-türk məbədidir.

Ağdam bölgəsinin Şahbulaq ərazisindəki Beşikdağının zirvəsindəki el arasında Koroğlu qalası kimi tanınan, qədim Alban-türk məbədini ermənilləşdiriblər... Bəli, uydurma əfsanə və yaxud, tarixin diqtə etdiyi reallıq Bu yaxınlarda qəribə bir faktla qarşılaşdım. İnternet üzərindən azad olunmuş yuxarı Qarabağda aparılmış kosmik müşahidələri izləyərkən doğulub, böyüdüyüm Ağdam rayonunun Beşikdağ hövzəsində qəribə bir foto ilə qarşılaşdım. Bu fotoda, şərqdən qərbə baxanda Beşikdağın sol zirvəsində kilsə təsviri diqqətimi çəkdi. Bu nə kilsədi? Axı burada kilsə olmamalıdır El arasında "Koroğlu qalası" adlandırılan bu abidə onillər boyu gözümüzün qabağında olubdur. Ahıl müdriklər danışardı ki, bu abidə yüzillər boyu burda mövcud olub Əvvəllər, yəni, ilkin dövrlərdə zərdüşt məbədi, sonar isə alban məbədi, Pənah xan dövründə isə gözətçi məntəqəsi olubdur. Hətta Pənah xan tərəfindən 1752-ci ildə Şuşa - Pənahabad qalası tikiləndən sonra da, İbrahim xanın

xanlığının süqutuna qədər Şahbulaq qalası xanın qış iqamətgahı kimi və Beşikdağ gözətçi məntəqəsi həmişə fəaliyyətdə olubdur...

Beşik dağının şimal qutaracağında Xaçıncay tərəfə, Kəngərli kəndinə baxarında bir yaruslu 10-15 adam yerləşən böyük bir kaha da, "Koroğlu kahası" adlandırılırdı Bu kahadan Beşik dağının içərisinə doğru bir adamın keçəcəyi lağım var Deyilənə görə, bu lağım daha geniş bir kahaya keçiddir Birinci kahada daşdan yonulma divan quruluşlu iri yataq yeri, təbii su yığılmaq üçün ovdan var ki, bu da, sübut edir ki, bü kaha xüsusi mühafizə dəstəsi üçün istifadə olunmuşdur. Deyirlər ki, məkrli ermənilər bu kahanın divarlarına da, xaç işarəsi çəkiblər .

İndi isə Beşik dağındakı bu abidə ermənilərin uydurduğu Tiqrnakert şəhərinin, üstündə də erməni xaçı olan "Erməni kilsəsi" kimi təqdim olunur Beləliklə, ermənilər bu abidəni də rekonstruksiya edərək ermənilləşdiriblər...

Belə bir erməni məkrinin, fitnəsinin mahiyyətini açmaq üçün tanıdığım mütəxəssislərlə - tarixçi, arxeoloq dostlarımla məsləhətləşmələr apardım, həqiqəti ortaya çıxarmaq üçün eksklüziv bir tədqiqat aparmaq qərarına gəldim ki, bu nəticələri sizlərlə bölüşürəm.

Beşik dağı haqqında qısa məlumat:

Qarabağın ürəyi sayılan Ağdamın qədim tarixi abidələri minillik keşməkeşli illərdən keçərək bu günə qədər gəlib çatmışdır. Rayonun ərazisində aparılan arxeoloji tədqiqat işləri sübut edir ki, Ağdamın ərazisi qədim insanların yaşayış məskənlərindən biridir. Ağdamın Üçoğlantəpə deyilən yerdə aparılan arxeoloji tədqiqatlardan aydın olubdur ki, ilk qədim insanlar rayon ərazisində 6-8 min il bundan əvvəl, yəni, Eneolit dövründə (b.e.ə. VI-IV minilliyi əhatə edir, "mis dövrü" adlanır və daş dövrünün sonu - metal əsrinin başlangıcı hesab edilir) yaşamış, qədim əkinçilik və maldarlıq mədəniyyətinə bələd olmuşlar...

Sonralar Azərbaycanda gedən tarixi proseslər nəticəsində ilk dövlət qurumları formalaşmağa başlayıb. Belə dövlətlərdən biri də Şimali Azərbaycanda yaranmış Albaniya quldar dövləti idi.

Yeni elmi araşdırmalarda "alban" etnik adını qədim türk "alp"(cəsur, igid) sözü ilə bağlayırlar."Kitabi Dədə Qorqud"da bu etnosun "alpanlar" şəklində yazılışı, "alp" köklü toponimlərin Quzey Azərbaycanda, həmçinin vaxtilə Alban dövlətinə daxil olan Cənubi Dağıstan və Şərqi Gürcüstanda qalması yuxarıdakı ehtimalı daha da qüvvətləndirir...

Alban hökmdarlarından Oroysun adını "Kitabi Dədə Qorqud"dakı Uruz adı ilə müqayisə edirlər. Aran - Ağvan - Aquen - Ağoğlan - Ağdam (bu etnonimlərin kökündə "Ağ" sözünün durmasını təsadüf hesab etmək olmaz) adı da yalnız türk dillərində olması ilə izah olunur. Albanların Ay ilahəsinə daha çox sitayiş etmələri haqqında Strabonun verdiyi məlumat qədim türklərin "Ay Tenqri"sinə uyğun gəlir. Onlarla belə dəlillər əsasında "alban" etnik adı daşıyanlar türkdilli sayılırlar. Bəzi tədqiqatlara görə, burada yaşayan sakasenlər, onlarla qohum sayılan massagetlər, qarqarlar da türk mənşəli olmuşlar...

Son dövrlərdə aparılan sanballı elmi tədqiqatlar nəticəsində Qafqaz albanlarının türk mənşəli və türkdilli tayfa olması birmənalı şəkildə sübut edilmişdir. O da, ehtimal edilir ki, Albaniyanın siyasi konsolidasiyası artıq Əhəmənilər imperiyasının son illərində və Makedoniyalı İsgəndərin işğalları dövründə başa çatmış, eramızadan əvvəl IV əsrin sonlarında isə Qafqaz Albaniyası vahid mərkəzləşmiş dövlətə çevrilmişdir.

(ardı var)

Qurban Bayramov,
tənqidçi-ədəbiyyatşünas

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

El adamı, el ağsaqqalı



Asif Quliyev

Uzun illərdən bəri yaxından tanıdığım, adamlarının çoxu ilə doğma, səmimi münasibətim olan Bakının Bilgəh kəndinin hər üzünü görmüşəm. Qışın şaxtasında da, yayın insanı yandırıb-yaxan istisində də neçə dəfə Bilgəhdə, bilgəhlilərin toylarında, bayram şənliklərində, hüzür məclislərində iştirak etmişəm.

Amma, nə Bilgəhi, nə də bilgəhliləri heç vaxt o günkü kimi (14 yanvar) qəmli, kədərli görməmişdim. Kəndin yaşlı qocaları da, cavanları da, hamısı səssiz-səmirsiz, ancaq ürəklərində için-için ağlayaağlaya qəsəbədən dənizə tərəf düşəndə Hacı Fərrux Zeynalovun yolun sağ tərəfində, təpənin üstündəki evinə tərəf axışırdı. Həm şəhərdən, həm də qonşu kəndlərdən gələn insan əlindən tərpənmək olmurdu... Bilgəhin, yox, təkcə Bilgəhin deyil, Bakının əksər kəndlərinin özlərinə ağsaqqal saydığı Hacı Fərrux Məmmədnəbi oğlu Zeynalov vəfat etmişdi.

...Taleyi keşməkeşli olan Fərrux Zeynalov müharibənin od-alov püskürdüyü 1942-ci il mayın 4-də Bakının Bilgəh kəndində dünyaya göz açmışdır. Ömrünün ilk günlərindən məhrumiyyətlərlə rastlaşan balaca Fərrux altı aylığında atasını, beş yaşında böyük qardaşını itirmişdir. Lap körpə yaşlarından, məktəbdə oxuya-oxuya həyətlərində mal-heyvan saxlayıb onların ağartısını satmaqla ailəyə yardımçı olan Fərrux Zeynalovu orta məktəbi bitirdikdən sonra ilk əmək fəaliyyətinə məişət xidməti sahəsində fəhlə kimi başlamışdır. Bir müddət dərzi köməkçisi, daha sonra dərzi işləmiş, istehsalat müdiri olmuşdur. Ali təhsil aldıqdan sonra fabrik direktoru, Bakı Şəhər Əhaliyə Məişət Xidməti İdarəsinin rəisi, N.Nərimanov adına Corab-Trikotaj Birliyinin direktoru, "Azəryüngülyeyintisənaye" Birliyinin baş direktoru, müstəqil Azərbaycanın Material Ehtiyatları naziri vəzifələrində işləmişdir. Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuş, Milli Məclisin üzvü seçilmişdir.

Fərrux müəllimlə tanışlığımız Milli Məclisdən başlayıb. Mən Milli Məclisdə vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinin müdiri idim, o da deputatı idi. Şöbə müdiri kimi, hər gün yüzə qədər şikayətçini, əsasən də, qaçqın və köçkünləri qəbul edib, kömək göstərməli olurdum. Həmin günlərdə qəbula gələnlərin çoxu tanınmış deputatlardan Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, Vahid Əhmədov, İsa Qəmbərlə yanaşı Fərrux Zeynalovla da görüşmək istəyirdilər. Çünki o, yanına gələnlərin, hansısa bir işə görə ona müraciət edənlərin heç birini naümid geri qaytarmırdı.

Yaxşı yadımdadır, Bakı kəndlərinin birindən gələn qadın övladının cəbhədə həlak olduğunu, nəvələrinin evsiz-eşiksiz qaldığını bildirib, deputat Fərrux müəllimdən kömək istədi. Fərrux müəllim başını aşağı salıb, bir xeyli sakitcə dayandı, sonra da telefonun dəstəyini qaldırıb kimlərəsə zəng etdi. Birindən daş, başqa birisindən taxta-şalban istdi. Başını qaldırmadan: "Siz gedin, bazar günü özüm kəndə gələcəm, evsiz qalmayacaqsınız" - dedi.

Qaydaya görə, qəbula gələnlərin kim tərəfindən qəbul olunduğunu xüsusi vərəqdə qeyd edib nəticəsini izləyirdik. Bir neçə aydan sonra həmin qadın yenidən Milli Məclisə gəlmişdi, amma şikayətə yox, təşəkkür etməyə. Evi tikilmişdi... Sonralar Fərrux müəllimlə bir yerdə Respublika Material Ehtiyatları Nazirliyində işləyəndə də yüzlərlə bu cür hadisənin şahidi olmuşam. O, qazandığı bir tikəni imkansızlara, qaçqın və köçkünlərə verməkdən həzz alırdı. Demək olar ki, hər ay qaçqınlar üçün xüsusi ərzaq payı göndərtdirirdi. Bakıdakı yataqxanalarda, digər yaşayış sahələrində yerləşdirilmiş qaçqınlara tez-tez özü baş çəkər, kömək göstərərdi.

Fərrux müəllim mülayim xasiyyətli, az danışan, lakin yeri gələndə öz sözünü cəsarətlə deyən, haqqı, ədaləti inadla müdafiə edən bir şəxsiyyət idi. Yadımdadır, Milli Məclisin o vaxt "prezident otağı" adlandırılan otağına cəbhədən və iqtidardan olan bir neçə deputat yığışmışdı. Xalqla ən yaxın əlaqəsi olan şöbə müdiri kimi mən də orada idim. Bir sıra məsələlər müzakirə edildikdən sonra hələ seçilməmişdən özünü Prezident kimi aparan Əbülfəz Elçibəy birdən: "...Baş nazir vəzifəsinə kimi məsləhət görürsünüz?" - deyə soruşdu. Otaqdakıların hamısı biri-birinin üzünə baxdı. Cəmi bir neçə gün əvvəl keçmiş prezident Ayaz Mütəllibovun fərmanı ilə baş nazir vəzifəsinə təyin olunmuş Rəhim Hüseynov hələ heç kabinetinə getməmişdi. Tanınmış, daha doğrusu sözü keçən deputatlardan heç kimin dillənmədiyini görən Fərrux müəllim ayağa qalxıb:

- Məgər Baş nazir də istefa verib? - deyə soruşdu.

- Özü istefa verməsə də, onu Ayaz təyin edib, ona görə də o getməlidir deyə - Əbülfəz bəy cavab verdi.

Fərrux müəllim bir anlığa danışmadı, susdu. Sonra bir qədər əsəbi halda fikirlərini izah etdi:

- Millətin arasına ayrıseçkilik salmayın. Rəhim Hüseynov olduqca bacarıqlı və təmiz adamdır... Əgər onu istefaya göndərsəniz ...

İnsafən otaqdakı deputatların hamısı Fərrux müəllimin sözünün üstündə durdular, Rəhim Hüseynovu müdafiə etdilər.

...- O, Azərbaycanın Material Ehtiyatları naziri təyin olunanda respublika böyük ehtiyaclar içərisində yaşayırdı. SSRİ dağılmışdı, yenicə müstəqillik qazanmış respublikanın heç bir ölkə ilə, heç bir sahədə müqaviləsi yox idi. Respublikanın ehtiyacları ancaq ayrı-ayrı adamların şəxsi nüfuzu hesabına ödənilirdi. Belə bir vaxtda demək olar ki, hamı - dərmana ehtiyacı olan xəstəxanalar da, una ehtiyacı olan çörək zavodları da, qələmə, kağıza ehtiyacı olanlar da Material Ehtiyatları Nazirliyinə, Fərrux Zeynalovun üstünə qaçırdılar. Kağız olmadığına görə kitab nəşri demək olar ki, dayanmışdı. Kitabı nəşriyyatda yatıb qalan yazıçıların, şairlərin, elm adamlarının hamısı onun üstünə gəlirdi. O da heç kimi naümid geri qaytarmırdı. Bir dəfə Xalq şairi Qabil onun yanına gedib neçə aydan bəri nəşriyyatda yatıb qalan kitabının çapı üçün kağız istəyir. O da Prezident aparatının, Milli Məclisin nəşrləri üçün ehtiyatda saxladığı kağızdan onun kitabı üçün ayırır. Qabil bir neçə gündən sonra təzə çapdan çıxmış kitabına qəribə bir avtoqraf yazıb ona gətirir:

Bu kitabın
Özü nazirindir
Sözü şairin.
Hacı Fərrux var olsun!
Qabilə hədiyyəsi
Təzə kitablar olsun!

Xalq yazıçısı İsmayıl Şıxlı onu el adamı, el ağsaqqalı adlandırırdı. Fərrux müəllim nazir vəzifəsinə təsdiq olunanda onunla mənim Milli Məclisdəki iş otağımda görüşdülər. İsmayıl müəllimin o vaxt ona dediyi sözləri indi də xatırlayıram: "- El adamı, el ağsaqqalı ölkədəki və ölkədən kənardakı hörmətinizə bələd olan bir insan kimi belə başa düşürəm ki, bundan sonra respublikanın bütün ehtiyat və ehtiyacları ilə bağlı problemləri, yəqin ki, qələm əhlini ən çox maraqlandıran kağız problemini də layiqincə həll edəcəksiniz". Doğrudan da şəxsi nüfuzundan istifadə edən təzə nazir respublikanın çox problemlərini həll etdi...

İqtisad Elmləri namizədi olan Fərrux Zeynalov həm də yaxşı qələm sahibi idi. Son illərdə dərin axtarışlar və arxiv sənədləri əsasında yazdığı "Bilgəh: səfalı yurdun layiqli övladları" kitabında kəndin və kənddəki abidələrin yaranma tarixini, Bilgəh adının formalaşmasını, Bilgəhin dəniz limanı olmasını, Bilgəhdə ilk zəfəranın əkilməsini... dəqiq dəlillərlə göstərir. Bilgəhlilərin əsirlər boyu göstərdikləri qəhrəmanlıqlar, keçən əsrin əvvəllərində ermənilərə qarşı apardıqları mübarizələr, ikinci dünya müharibəsində vətən qarşısındakı xidmətləri, kəndin tanınmış din xadimləri, ədəbiyyat, incəsənət və elm adamları haqqında, Stalinin Bilgəhlə və bilgəhlilərlə bağlı xatirələrinin əks olunduğu kitab tarixi bir roman kimi maraqla oxunur.

Fövqəladə varlıq olan insanın ömür yolu adi bir sürücünün keçdiyi yol kimidir. Sürücü nə qədər ehtiyatlı, diqqətli olsa da, nə vaxtsa, haradasa qəzaya uğramaq ehtimalı həmişə başının üstündə dolanır. Fərrux müəllimin ömür karvanı da gözlənilmədən qəzaya uğradı. Əlacsız xəstəlik onu qəflətən yaxaladı. Övladlarının, yaxınlarının böyük səylərinə baxmayaraq yanvarın14-də 80 yaşının tamamına 4 ay qalmış dünyasını dəyişdi.

Hacı Fərrux ədəb-ərkanlı, hər şeyin yerini bilən, elinin-obasının ən yaxşı adət-ənənələrini yaşatmağa çalışan el adamı, el ağsaqqalı idi. Cılız hisslərdən yüksəkdə duran, sözü ilə əməli bir olan, elini, obasını, vətənini ürəkdən sevən, xalqına, dostlarına baş ucalığı gətirən bir şəxsiyyət idi.

Allah rəhmət eləsin.

YANVAR HAVASI

Yazını yazmağa başlamaq istədiyim an bilgisayar yazarımızla bir balaca yazıya giriş etdik. Yəni günümüzün reallığından danışdıq. Və həmişə olduğu kimi, dilimin altına çöp qoymadan nəyi necə düşünürəmsə elə də dedim. Dediyimin məntiqi nəticəsi də səhəringözü açılmamış qarşıma bəduğurun çıxması, ovqatımı mikrobun korlaması və bir dəözünü hər kəsdən üstün tutub hər kəsi özünə borclu sayanların ədası oldu. Yəni vurğuladım ki, Allah hamını "Ol!" deyib yaradanda görünür bir az tələskənliyə yol verib. "Ol"un dərəcəsi kimlərinsə payına bir az artıq düşüb və onlar da "ol"duqları zaman üçqat "ol" olublar, adamlıqları fontan vurub. Ona görə də fontanın yerin altından nələr çıxardığını hamımız bilirik və ortalığa nələrin gəlib düşdüyünü hamımız görürük. Lap kəsəsi, fontan təkcə neft-qaz çıxarmır üzə, həmdə zir-zibili atır yerin altından yerin üstünə. Bu lap üçqat, dördqat"ol"dan yaranan adamlar həmin tullantılardı, əlimizə-ayağımıza dolaşır, üst-başımıza bulaşırlar... Biz də onların "hava"sına dözə-dözə ömrümüzün müəyyən hissəsini bada veririk... Nə isə...

Bəli, yanvarın qış havası artıq hakimdi!. Və bu havanın içərisində bir istilik axtarmaq arzusu da nə qədər ürəyimə hakim kəsilsə də, amma qəti əminəm ki, onu tapmaq o qədərdə asan olmayacaq. Ona görə ki, mənim istəyimlə gerçək havanın arasında qışdanyaya qədər bir məsafə var. Həmin məsafənin yaxınlaşdırılması, qısaldılmasıqeyri-mümkündür. Bunu bir dədə sözüylə də təsdiq etmək, vurğulamaq olar. Dədələrsöyləyib ki, "xəstə nə qədər tələssə də, armud vaxtında yetişər".

İndi mənim istəyimərəğmən gerçək olan budur ki, qışdı və qışın da şah damarı soyuq şaxtadı,qarborandı. Ondan qorunmağın yolları yetərincə olsa da, amma onu yaşamağın özüdə bir gözəllikdi. Təsəvvür edin ki, heç vaxt unuda bilmədiyim qış gözəlliklərinimən doğulduğum bölgədə, xüsusilə öz kəndimizdə böyük zövqlə yaşamışam. Kənd evlərinin damından göyə millənən tüstüdən tutmuş həyətbacalardan kənd mərkəzinə doğru, məktəbə tərəf gedən qarüstü ləpirlərə tərəf hər şey insana bir paklıq aşılayır, bir ürək sevindirən ümid göyərdirdi. Elə bil ki, qarşıdakı ləpirlər arzulara gedən yolidi və yaxud sübhdən evlərin damından göyə millənən tüstülər həyatın oyanışıidi. Doğrudur, bunun bir məqamı da var idi. Adətən tənbəl və yaxud səriştəsiz adamlar qış səhərlərini yuxudan oyanıb isti yorğanın altından qalxmağa heç həvəs göstərmirdilər. Ammahansı evdə ki ağsaqqal, ağbirçək var idi, təcrübəli qadınlar evi idarə edirdi,o evlərdə odun sobaları sönmürdü. Axşamdan sobaya qoyulmuş iri palıd kötükləri səhərə qədər hər evin temperaturunu qaydasında saxlayırdı, həm də sobanı yenidən alışdırmağa ehtiyac olmurdu...

Mən bu xatirələrin şirinliyinə uyub bir az Bakıdan uzaqlara getdim. Amma indi yaşadığım Masazırda hərdən göz gəzdirirəm, burada da tək-tək evlərin damından tüstü çıxır. O tustu mənim içimdə közərən odu, qoru sönməyə qoymur. Elə bil ki, bu həyatın mənə bir sitəmidi,ya da dözümə çağırışıdı. Amma hər nədisə acılı, şirinli bir dərsdi. O dərsioxumamaq, öyrənməmək mümkün deyil...

Bəli, bax elə bu ovqatın içində mən bir anlıq silkələnib yuxudan oyanmış adamlar kimi özümə dönürəm. Və baxıb görürəm ki, bu qış günü ürəyimi isidən, içindəki ümid işartısını sönməyə qoymayan həm də Sənsən! Deməli, Sən həm də mənim ruhumun Tanrısısan.

***

İnsan həyatının bütün məqamları mənim düşüncəmə görə, bir zəncir halqası kimi ovqatdan keçir.

Yəni hər an bir ovqata köklənməyindən həyatımız rəngarəngolur. "Dünyaya gələn dünyadan hansısa bir şəkildə gedir!" - deyiblər. Bunuləngitmək və yaxud da başqa bir formaya salmaq qeyri-mümkündü. Bu gerçəkliyin içində bir başqa gerçəklik də var. Bu da bizim barışmamaq, razı qalmamaq gerçəkliyimizdi. Yəni biz olanlarla yalnız 40 gündən sonra barışmağa başlayırıq. Bunu da dədələrin dediyi "torpağın üzüsoyuqdu" kəlamıyla.

Deməli, bax, bu üzü soyuq torpaq qışda bizi üst qatda üşütsə də, alt qatda qoruyur, hifz eləyir.Mən bunu elə-belə, sözgəlişi yazmıram. Demək istəyirəm ki, hər qatın özmissiyası var. Və insanın iç dünyasındakı qatlar da elə torpağın qatları kimidi. Orda sevincin də, kədərin də, işığın da, qaranlığın da savabla mərdimazarlığın da, ümidləümidsizliyin də... öz yerləri var. Sadəcə, o qatlardan hansına biz daha çox üz tuturuqsa, meyl salırıqsa, onlar diqqət mərkəzinə çıxır. Və burda genetik kod da var. Gendən gələn meyllilik daha çox qabarır, daha çox öndə olur. O da öz qabartısıyla, öndə olmasıyla digərlərinin diqqətini çəkir. Beləcə,özümüz də bilmədən həmin o önə çıxmış qatın missiyasını başqalarına yönəldirik.Bax, yazımın önündə söylədiyim mikrobdan tutmuş, bəduğura qədər... sevincpaylayandan xoş aura bəxş edənə qədər burda hər şey özünü ifadə etmiş olur. Məndə yazımın sarı simində elə bunları demək, bunları önə çıxarmaq istəyirəm. Həmin istəyimi indiki anda oxucu ixtiyarınaburaxıb yenə yönümü sənə çevirirəm. Çünki sənlə danışanda içimdəki bütün istəklərin işığı artır, ümidi şölələnir. Axı, bizbu dünyada bir-birinə doğru uzanan əllər kimi havada qalmışıq. Və elə bu havada qalan əllərin pıçıltısı olaraq deyirəm:

Sən
"get"də
israrlı
mən isə"qal!"da
odur ki,
bu israrlı təzadda
heç bir halda
çin olan deyil -
həyatda,
nə də ki,
xəyalda...
bu səbəbdən
mən də,
elə sən də
girinc qalacağıq
üstəlik
yuxusunu qaçıracağıq
hələ də
cavabı bilinməyən
sualın da?!

***

Bəli, hər günsual, hər gün nida və digər durğu işarələri yaşamın göstəricisidir bizdən asılı olmadan. Biz bu göstəriciləri cavablayacavablaya nöqtəyə doğru gedirik. Bunu səndə bilirsən, mən də, elə hamımız da. Getməyə də bilmərik. Çünki getməmək, yerində durmaq istəyi sadəcə və sadəcəelə istəkdi. O ki qaldı bir gerçəkliyə, yəni bütün istəklərə... onların hamısının nə vaxtsa çin olacağı özü də bir xəyaldı.

Axı dünyada heç bir insanın bütün xəyalları, bütün arzuları çin olmayıbdı. Bilirsiniz niyə? İstəkdən istək doğur axı! Bu gün barışdığın nəticə sabah ya səni qane etmir, ya narazı salır,ya da ondan bir pillə kimi istifadə edib ikinci addımı atmağa çalışırsan. Və...

Hə, bu söylədiklərim filosofluq deyil, hamının bildiyi reallıqdı. Sadəcə, mən yazımın ovqatına uyğun olaraq sözgəlişi dilə gətirdim. Axı indi yanvarın bir qış günüdü, çöldə qışhavası var. Bu hava da adamı isti guşəyə səsləyir, isti bir sözə, hətta ovqata köklənməyə tərəf itələyir. Nə yazıq ki,belə anın özündə də ikinci bir soyuqluq hardansa tək səbrə çevrilir. Bax, biraz pafoslu, bir az da zarafat donlu bir şəkildə söyləsəm, yetimi onda ağlamaqtutur. Və yaxud da dərd batmanla gəlir...

İndi bütün buyazı boyu söylədiyim fikirlərin qoyacağım nöqtəsinə yaxın bir yerdə dayanıb özümə kənardan baxmaq istəyirəm. Baxıbnə görəcəyimi kim necə təxmin edir etsin, mən isə gördüyümü kimsəyə demədən ürəyiminbir küncünə büküb atıram. Elə bir küncə ki, orda olanlardan ancaq sən xəbərdarsan.Sənin bildiyini isə təbii ki, bir də Allah bilir. Elə o dediyim sonuncu fikrinipindən tutub bir şeir demək istəyirəm. Demək istəyirəm ki:

Mən üzülmüş yarpağam
Çeşmədə nov edərsən...
Suyu yaxşı süzməsəm-
Bir az söz-sov edərsən!..

Təki gözün önündə
Kirpik ucunda olum...
Yolun üstümdən keçsə -
Yolunda bitsin yolum...

Böyük istəklərim yox,
Səni çətinə salsın...
Bircə qəlbim ağlımda -
Ağlım, qəlbində qalsın!..

Bəli, bu yanvar ayının qış havasında ovqatınıza bir az istilik qatmağa çalışdım. Doğrudur, mənim ovqatımı qış havasına köklədilər, amma mən ürəyimin işıqlı qatından boylanıb sizinlə işıq paylaşmağa çalışdım. Deyirlər ki, varını verən utanmaz. İndi özünüz də dünya görmüş insanlarsınız. Ən azından işığın sizə heç bir zərəri dəyməyəcəyinə mənim kimi siz də əminsiniz. Ona görə də bu havada, yəni bu yanvar günündə işığınız sönməsin! - deyirəm.

Əbülfət MƏDƏTOĞLU

Qənbər Şəmşiroğlunun qoşmalar dünyası

Fikrimi bildirmək üçün əlimin altında olan istedadlı şair dərin söz adamı Qənbər Şəmşiroğlunun "Elm və təhsil" nəşriyyatında nəfis şəkildə işıq üzü görmüş "Əsərlər"-nin biirinci cildini dərin düşüncələr içində varaqlayıram.

Bu kitabda şairin müxtəlif illərdə, ayrı-ayrı məna və mğvzularda yazılmış qoşmaları dərc edilmişdir.

Şairin tərcümeyi-halı "Dünya" qəzetinin redaktoru "Qızıl Qələm" mükafatı laureatı, Tanınmış söz adamı Fizuli Ramazan oğlu tərəfindən bütün detalları ilə oxuculara çatdırılır. Böyük alim akademik Nizami Cəfərov isə çox geniş əhatəli bir məqalə ilə şairin əsərlərinə ön söz yazıb və hərtərəfli təhlil aparıb.Böyük alimin təfəkkürü qarşısında baç eyərək, onun icazəsi ilə məndə qəlbimi ehtizaza gətirən bu qoşmalar haqqında öz ürək sözlərimi qələmə almmaq fikrinə düşdüm.

Azərbaycan ədəbiyyatında qoşma janrı ən çox istifadə olunan şer növlərndən biri olmaq etibarilə müasir çağdaş ədəbiyyatımızda işləməkdə davam edir. Belə ki, bu növdə özünün gözəl şerlərini yaratmış Azərbaycan ədəbi dilinin banisi Molla Pənah Vaqif, görkəmli şair Molla Vəli Vidadi,Qasım bəy Zakir, Kazım ağa Salik, Şərif Şikəstə və digərləri yaratdıqları qoşmalar ilə böyük şöhrət qazanmışlar.

Aşıq ədəbiyyatının zirvəsində dayanan Miskin Abdalın, ağ Aşığın, Qurbaninin, Aşıq Alının, dədə Ələsgərin, aşıq Qurbanın, dədə Şəmşirin və digərlərinin qoşmaları dillər əzbəridir və müasir aşıqlarımız tərəfindən qoşma yaradıcılığı davam etdirilir.

XX əsr sözlərimizdən dahi Səməd Vuurğunun Suleyman Pustənin Bəxtiyar Vahabzadənin, Hüseyn Arifin, Nəriman Həsənzadənin,Qurban Musayevin və başqa tanınmış şairlərimizin yaradıcılığında qoşma janrının ən gözəl nümunələrinə təsadüf olunur və bu növ poeziyamızda özünün pik həddinə yüksəlmişdir.

Bunları nəzərə çatdırmaqda məqsədim odur ki, hər hansı bir şairin yaranmasında və şöhrət qazanmasında onu əhatə edən mühitin birdə genetikanın böyük rolu danılmazdır. Haqqında söhbət açacağım və gözəl qoşmalarından bəhs edəcəyim istedadlı şair Qənbər Şamşıroğlu da belə simalardan biridir. Kəlbəcər əbədi mühitində böyük Şəmşirin ailəsində dünyay göz açan bu sənətkar hımin təsirlərdən bəhrələnərək özünün dillər əzbəri olan qoşmalarını yaratmışdır.

Aşıqlar qoşmaları sazda ifa edərkən bəndlərin sayından asılı olmayaraq adətən uç bəndini ifa edirlər.Mən belə düşünürəm ki,Qənbər Şəmşiroğlu qoşmalarının əksəriyyətinin üç bənddən ibarət olması, məhz saza dəlalət eyləyir və sazda ifa etmək üçün yazılmışdır. Daxili bölgüyə(təqti) gəldikdə isə çoxu 6+5=11 ilə sıralanmışdır.Şairin əsərlərini (yəni birinci cilddəkiləri) təxminən üç qrupa bölmək olar:

1.Məhəbbət mövzuları

2.Müxtəlif məna daşıyan əsərlər

3. Ana yurdun tərənnümü və vətənpərvərlik

Məhəbbət Tanrının insan üçün yaratdığı möcüzələrdən biridir.Hər bir insanın taleyində məhəbbət motivləri olur və həyatı boyu yadından çıxmır. İnsan yaşa dolur, qocalır daxilindəki o hisslərdən azad ola bilmir, hər an onu xatırlayır:

Səni yaman axtarırlar dostların
Ay bənövşəm, bir üzə çıx,hardasan?
Qoy ətrini qoxlayanlar çoxalsın
Gəl dostların əlini sıx,hardasan?

Həyatıma bəzək naxış olmusan
Sözümün əzəli alqış olmusan
Az qala başıma qaxış olmusan
Qalmışam çarəsiz, yazıq ,hardasan?

Elə bilməsinlər ürəyim yanmır
Söz edənlər xəcalətdən utanmır
Qənbərin sözünə kimsə inanmır
Səbrim tükənibdir, artıq hardasan?

Məhəbbət olmasaydı dünya dağılardı. Dünyanı məhəbbət bərqərar edibdir.Dahilər demişlər ki, dünyanı məhəbbət xilas edəcək.Məhəbbət mövzusu ədəbiyyatımızda özünə məxsus xüsusi yer tutan böyük dahilərin həmişə müraciyət etdiyi mövzularındandır. Şairlər həmişə onların ürəyinə toxunan qəlbini riqqətə gətirən saf ülvi məhəbbətdən yazmışlar. Qənbər Şəmşiroğlu da məhəbbətdən yan keçə bilməmiş və özünün ən dəyərli qoşmalarını bu mövzuda yazmışdır:

Bir zaman can alan gözlərin altı
İndi nə səbəbdən kölgələnibdir
Şəvə saçlarına uzaqdan baxıb
Elə bilirdim ki, gül ələnibdi.

Soluxub yanaqlar bozhal olubdur
Tellər arasında tufan dolubdur
Qaşların çatması harda qalıbdır
Baxışın nə yaman səpələnibdir

Əsər də qalmayıb o naz, qəmzədən
Qıymazam halını soram özgədən
Bir gözəl kəlam da var Ələsgərdən
Qaymaq dodaqlara bal bələnibdir.



Qəlbi sevgiylə çırpınan şairin ürəyində keçəri məhəbbətə, cılız hisslərə zərrə qədər də yer yoxdur. Onun ürəyində böyük məhəbbət hisslərinin dəryası dalğalanır.Şairin sevgisi heç bir şeylə ölşülməzdir. Bu eşq o qədər güclüdür ki, bəzən cilovlarını qırır, ətrafına şimşəkdən betər od yağdırır:

Afətsən, mələksən, hurisən dedim
Axıdıb göz yaşı ağlama ceyran
Qıyarammı ala gözlər nəm ola
Könlümü yandırıb dağlam Ceyran

Xeyli vaxtdan məftunuyam gözlərin
Çözürəm ki, ceyranısan düzlərin
Şəkər kəlmələrin şirin sözlərin
Qərəzlə yolunu bağlama Ceyran

Qara bulud kimi qaşını çatma
Gəl ayıl qüssədən, kədərdə yatma
Qənbərin qəlbini qana boyatma
Daşma çaylar kimi, çağlam Ceyran

İkinci qrupa daxil olan şerlərdə ictimai-siyasi motivlər, müxtəlif şəxslərə ünvanlanmış tənqidi fikirlər, cəmiyyətimizin bəlasına çevrilmiş rüşvətxorluq, qohumbzalıq öz təsvirini tapır.Şair cəmiyyətdə pul bəlasının hökmdar bir qüvvə olduğunu, onu həyatda həll oluna bilməyən məsələlərin də öhdəsindən gələ bilməsi qənaətindəndir. Kasib, pulsuz insanın cəmiyyətdə insan sayılmadığını pulsuz adamın Allaha yalvarmaqla heç nəyə nail ola bilməyəcəyini böyük ustalıqla qələmə almışdır:

Səhər-səhər ay allaha yalvaran
Niyə yalvarırsan pulun var sənin?
Əzrayıl olsan da aləmdə pulsuz
Nə qohum qardaşın, nə elin var sənin

Hər məclisdə vurulacaq başına
Fikir etməkdən qırış gələr qaşına
Sözün də xoş gəlməz öz qardaşına
Məyər danışmağa dilin var sənin?!

İnanma var ilə yox seçilməyə
varlıgünahından yan keçilməyə
Qənbərəm deyirəm gün keçirməyə
Məcnun tək səhran var,çölün var sənin

Dədə-babalarımızdan bizə ötürülmüş mərdlik, qorxmazlıq,kişlik və digər mənəvi xüsusiyyətlər Qənbər Şəmşiroğlu yaradıcılığında aparıcı qollardan biridir. "Kişi" sözünün ağasıdır deyimi şairin əsas devizlərindən biridir. Aşağıda qeyd olunan qoşmanı nəzərdən keçirək:

Şamil, axı bu dərd məni öldürür
Kişi olmayan da kişiyəm deyir
Qəbahət olsa da bağışla məni
Dişi olmayan da kişiyəm deyir

Hər kəlməsi yoğrulanlar zəhərlə
İstəyir belinə minə yəhərlə
Mərifətlə, insanlıqla, hünərlə
işi olmayan da kişiyəm deyir

Dostunda bir qüsur bilən vədəsi
Rüşvət üçün göyə qalxan hədəsi
Qiymət qoysan beş qəpiyə gedəsi
Başı olmayan da kişiyəm deyir

Üçüncü qrupa daxil etdiyim əsərlərdə ayrı-ayrı insanlara həsr edilmiş ataya, anaya, bacıya, qohumm-qardaşa ithaf olunmuş qoşmalar və təbiətin təsvirinə ana yurdun ecazkar mənzərələrinin Qənbər Şəmşiroğlu istedadından süzülən hisslərini görürük:

Əziz dostum deyim sənə dağların
Yaylası, otlağı gözıldi-gözəl
gözəllər məskəni el düşərgəsi
O ceyran bulağı gözəldi-gözəl

Kəkliklər ötüşən sinələrində
Bəzən ovçü gedər tüfəng əlində
Çobanlar seyr edən binələrində
Bizim Murov dağı gözəldi gözəl

Qənbər çox seyr eyləyib vətən çölünü
Şır-şır axan çaylarını, gölünü
Dərib çiçəyini üzüb gülünü
Obaşı oymağı gözəldi-gözəl

Təbiət təsvirinə həsr olunmuş qoşmalar, dağların vəsfi, Kəlbəcərin Tanrı tərəfindən xalqımıza bəş edilmiş doqquz iqlimi, təbiətin o yerlərdə şıltqlığı və digər sadalamadığım meyarlar Qənbər Şəmşiroğlu istedadının göstəricisidir." Murov dağı" qoşmasına diqqətinizi cəlb edirəm:

Alaq-alaq qar görününr köksündə
Çəkmə sən sinəmə dağ Murov dağı
Ağ buludlar ətrafında ötəndə
Söyləmə başıma yağ Murov dağı

Yaz fəslində xoş gülüşlə gülürsən
Yay fəslində al-əlvan bəzənirsən
Qonaqları yaxşı yola verirsən
Qışda da saqqalı ağ Murov dağı

Qənbər qonaq ola səndə çobana
Onlar da otura mənlə yan-yana
Söyləsə hərdən bir cavan oğlana
Mən üçün bir az süd sağ Murov dağı

Beləliklə, imkanımız daxilində gücümüz çatan səviyyədə istedadlı şair Qənbər Şəmşiroğlunun əsərlərinin birinci cildini nəzərdən keçirdik. Atalar demişkən varını verən utanmaz.Şairin yaradıcılığı haqqında ətraflı danışa bilmədiyim üçün özümü qınadım.

Böyük ehtiramla:
Elbrus Qəmgin
AYB-nin üzvü, Prezident və
Qızıl qələm mükafatı laureatı

Təbrik

Ailəmizə sevinc gətirən Süleyman balamız, ilk ad günün mübarək!!!

Şirin bala, sənə qayğısız uşaqlıq, gözəl gələcək arzu edirik. Hər yaşın əvvəlkindən daha gözəl olsun!!!

Atası Şamil, anası Könül, babaları Əhliman və Rizvan, nənələri Nəzakət və Gülzar, əmisi Cahid, xalaları Tahirə, Ülkər. Təbrikə qoşulanlar Məryəm, Mələk, Xədicə, Yasin, Nuray, Ülviyyə.

Millimizin oyunlarının vaxtı açıqlandı

18 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandasının qatılacağı beynəlxalq turnirdəki oyunlarının vaxtı açıqlanıb.

Qol.az xəbər verir ki, millimiz fevralın 3-dən 14-dək Belarusun paytaxtı Minskdə təşkil ediləcək yarışda qüvvəsini sınayacaq. Millimiz fevralın 6-də Qırğızıstan, 7-də Belarus, 9-da Qazaxıstan, 10-da isə Tacikistanla qarşılaşacaq. Qrup oyunlarından sonra millimiz digər qrupda müvafiq mövqedə yer alan komanda ilə üz-üzə gələcək.

Aktyor Abdulla Elşadlı: "İncəsənət Universiteti aktyorlara təhsil vermir"

Müsahibimiz Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının həmçinin "Səhnə" teatrının aktyoru Abdulla Elşadlıdır.

- Abdullanı teatr cameəsi, sənət adamları aşağı-yuxarı tanıyır və bilir ki, Abdulla kimdir. Bəs tanımayanlar üçün özünü necə tərif edərsən?

- Bir teatr aktyoru üçün tamaşaçı tərəfindən tanınmaq çox çətindir, əziyyətlidir. Gərək buna nail olasan, layiq olasan. Təhsildən sonra Azərbaycanda 4 il olmadım. Qayıdandan sonra təyinatımı Rus Dram Teatrına verdilər. Tamaşaçının tanımağı üçün gərək birinci teatr cameəsi səni tanısın. Texnikindən tutmuş direktoruna qədər gərək birinci özünü sevdirəsən. Çünki onlar səni təqdim edirlər. Bir növ, sən xammalsan, onlar səni cilalayıb, don geyindirib təqdim edirlər.

- O zaman sualı belə dəyişək - teatr cameəsi səni nə qədər tanıyır?

- Mən nə qədər yaxın buraxmışasa, o qədər tanıyırlar. Tanıdığın qədər bilirsən ki, qapalı adamam. Maksimalist adamam, bir şey ya yüz faiz olmalıdır, ya da heç olmamalıdır. Bir insanı yüz faiz yanına buraxanda onunla maraqlanmalısan, çətin məqamlarda yanında olmalısan. Ki, məişət qayğılarına da çox vaxt ayırmaq yaradıcı adamı yaradıcılıqdan uzaq salır. Yaradıcılıqla çox məşğul olursan, yaxına buraxdığın həmin adamlar səndən inciməyə başlayır. Məni Dağlar Yusif, Elçin Cəfərov, Aydın Talıbzadə tanıyır. Məncə bu üç teatrşünasın məni tanımağı böyük bir şeydir. Və əslində onları məndə hansısa işartı görüb yaxınlarına buraxıblar, Bu, mənim üçün böyük nailiyyətdir. Kino aktyorunu lent yazıları tarixdə saxlayır, teatr aktyorunu isə yazı. Bu yazını yazan da teatrşünaslardır.

- İstənilən sahənin özünəxas deyimləri var. Məsələn, ədəbiyyat üçün deyilən məşhur fikir var - əgər yazmamış dayana bilirsənsə, heç yazma. Bəs aktyorluqda? Bu sənəti necə seçmisən? Teatr üçün doğulduğunu hiss edirsənmi? Yoxsa sadəcə bir iş kimi yanaşırsan?

- Açığı "hansısa sənət üçün doğulmusan" fikrini qəbul etmirəm. Sən özün seçim edirsən. Seçim edəndən sonra artıq nə qədər məşğul olacaqsan, o qədər də sənətin sənə, sənin də sənətə ehtiyacın olacaq. Bu sənəti seçmişəm və bu sənətlə ciddi məşğulam. Bu sənəti öyrədəcək qədər öyrənmişəm.

Zabratda 81 nömrəli məktəbdə 9-cu sinifdə oxuyurdum. "20 yanvar" gününə mənə iki bəndlik "Ümid sənədir ancaq, Aəzrbaycan əsgəri" şeirini əzbərləyib səhnədə oxumağı tapşırdılar. Oxuyub qurtaranda adda-budda, seyrək, sönük alqış səsləri eşidildi. Ondan sonra səhnədə olmaq, diqqət mərkəzində qalmaq mənim xoşuma gəldi. Tədbirdən sonra Zabratda "28 may uşaq kitabxanası"nın kitabxanaçısı mənə yaxınlaşdı, dedi ki, gəl kitabxanaya. Açığı mən kitab adı eşidəndə o dəqiqə darıxmağa başlayırdım. Dedim, yəqin kitab oxuyacam. Daha sonra baş kitabxanaçı Gülşən xanım bir nəfəri dəvət etdi - Anar Babalını. Hal-hazırda Lənkəran Dram Teatrının baş rejissorudur. O, məni Maştağa Mədəniyyət evinə dəvət etdi. Bəxtim gətirmişdi ki, dram dərnəyinin rəhbəri professional aktyor Elçin Hacı idi. Ondan sonra üzümə maraqlı bir qapı açıldı. Teatr, səhnə, kulis, sujet, insan taleyi

O vaxt Mədəniyyət evinin direktoru Kamal müəllim idi. Yaxınlaşdım, dedim ki, aktyor olmaq istəyirəm. Dedi ki, İncəsənət Universitetinə qəbul olmalısan, oxumalısan. Məni Gənc Tamaşaçılar teatrının aktyoru Nofəl Vəliyevlə tanış etdilər. O, məni universitetə hazırlaşdırdı. Qəbul oldum.

Kurs rəhbərim Musiqi Teatrın rejissoru Fikrət Sultanov idi. Birinci semestrdə nəzəriyyədən müəllimim Aydın Talıbzadə oldu. O, mənim təfəkkürümü sındırdı, tamam dəyişdi. Ona qədər ancaq Stanislavskini oxuyurdum. Bir neçə adlar dedi. Yeji Qrotovski. İnternetdə axtarış etdim. Axtara-axtara başqa aspektlər açıldı. Rus tamaşalarına baxdım və gördüm ki, mənə öyrədilənlər tamam başqa şeydir, teatr başqa. Qərara gəldim ki, üçüncü kursdan çıxım. Gürcüstan azərbaycanlısıyam, Borçalıdanam, ona görə də mənə ən yaxın həm maddi, həm də mənəvi Gürcüstandır. Tiflis Teatr Akademiyasına getməyi qərarlaşdırsam da bir elan sayəsində Moskvada Şukina Teatr İnstitutu marağımı cəlb etdi. Aktyor-rejissor kursuna daxil oldum. Sadəcə Moskva mühitindən sıxıldığım üçün magistr oxumadım. Oradan təyinatımı aktyor kimi verdilər Rus Dram teatrına.

- Rus Dram teatrında mühitlə aran necədir?

- O teatrı çox sevirəm, çox gözəl aktyorlar var. Doğrusu, ştatda aktyoram, amma özümü sınaq müddətində hiss edirəm. Azərbaycanda çox nadir teatrlar var ki, onların ənənələri var. Onlardan biri Azərbaycan Akademik teatrıdır, digəri isə Rus Dram teatrı. Fikrimcə, ənənə olan yerdə ortaya sənət əsəri qoymaq olar. Ənənə yoxdursa, istəyir Azərbaycanın ən yaxşı aktyorları o teatrda işləsin, xeyri yoxdur. Bizim sənətdə yaxşı və ya pis meyarı yoxdur, səhv var, düz var. Rus Dram teatrında isə hər şey düz gedir. Bəzən yaxşı olmur, bəzən bərbad olur, amma həmişə düzdür. Aleksandr Şarovskinin qoyduğu ənənələr hələ də qalıb.

Stanislavski bir növ risalədir. Hələ heç bir teatrda görməmişəm ki, kimsə teatrda papağını çıxarıb girsin. Papaqlı girəndə heç kim heç nə demir.

- Etika...

- Bəli... Rus Dram teatrında bu ənənə var. Çox qəribədir, müşahidə edib görürsən ki, əməl etməyəndən sonra nələrsə yolunda getmir. Məncə sən bir məkanın sınanmış ənənəsinə xəyanət edirsən və o da səndən qisas alır. Daha doğrusu, Allah bu qisası səndən alır.

- Abdulla, istənilən sahədə bəlli kriteriyalar var. Onları bilməlisən, əməl etməlisən. Ədəbiyyatda yaxşı əsər qoymaq üçün istedaddan əlavə mütaliə önəmlidir. Bəs aktyor olmaq üçün nələr lazımdır?

- Aktyor Asiman Ağa Rövşən kimi olmaldır. Zarafat deyil - insanın musiqi duyumu var, həm də rəssamdır. İnsənət Universitetini bitirib. O oynadığı obrazı görür, bəlkə də çəkir sonra oynayır. İnsanın yüksək sənət zövqü var, öz daşıdığı məktəb var ki, onun ənənələrində sabirqədəmdir, insan çox oxuyub, sənəti dərindən bilir, hətta dərs dəyəcək qədər bilir. Ən qəribəsi də odur ki, o, bu biliyi mənim kimi gedib Moskvada almayıb. O oxuyub öyrənib bu sənəti. Onda güclü müşahidə qabiliyyəti və müşahidə etdiyi obyektə və subyektə özünəməxsus münasibəti var. Müşahidə və münasibət isə (hər şeyə münasibət - siyasi hadisələrə, insanlara, dinə bir sözlə bizi bürüyən hər şeyə) aktyor sənətində ən vacib nəsnələrdəndir. Bir sözlə Asiman bəyi görmək lazımdır, biləcəksiniz

nə dediyimi. Çox təssüf heç bir teatrda işləmir. Ancaq serial və kino sferasında çalışır. Asiman bir teatrda hadisə yaradacaq dərəcədə teatrımıza bu gün lazımdır. Axı o həm də rejissordur. Mənə qəribə gəlir ki, Asiman düz oynayır, beynəlxalq standartlara uyğun oynayır. Mən rus məktəbini Moskvada oxuyub öyrənmişəm, amma Asiman rus aktyor məktəbini mütaliəsilə bu yerə gəlib çatıb. Düzdür, İncəsənət Universiteti bir təməl qoyub, amma düşünürəm ki, o, bütün bunları universitetdə öyrənməyib. Aktyorda iki xüsusiyyət önəmlidir. Birinci, müşahidə qabiliyyəti, ikincisi isə müşahidə etdiklərinə özünəməxsus münasibət. Bu ikisi də Asimanda var.

- Bəs sonra?

- Sonra Qasım Nağı, Natavan Qeybani, "Brext" teatrının aktyoru Fuad Osmanov, Səidə xanım kimi...Bir də "Vaxtanqov" teatrının aktyoru, Rusiyanın xalq artisti Sergey Makoveçki kimi olmalıdır. Vanya dayı tamaşasına baxsanız, biləcəksiz nədən danışdığımı. Orda Vanya dayını oynayır.

- Abdulla, sistemli olaraq teatra gedib-gəlmək, hər gün tamaşa oynamaq... Bu kimi məcburiyyətlər səni sıxmır ki? Yenə öz sahəmlə müqayisə edəcəm. Şair kimi mənə heç kim göstəriş vermir ki, bu gün yaz, bunu yaz. Məcburi yazanda ortaya çox da yaxşı əsər çıxmır. İstədim yazıram, istəmədim yazmıram. Amma sizing sənətdə bu belə deyil.

- Əgər gətirdiyin dəlil həqiqidirsə, kifayət edirsə, bəlkə hə, imtinan qəbul olunar. Qanunvericiliyə görə, ümumiyyətlə teatr aləmində belədir ki, verilən roldan imtina edə bilməzsən. Mən bunu qəbul edirəm. Biz tabe olan sənətin çərçivəli nümayəndələriyik. Sənə verilən çərçivənin içində nələrsə təklif irəli sürə bilərsən, qəbul edilməyə də bilər, amma sözünün üstündə durmalısan, bir yolla o çərçivənin içində özünü ortaya qoymalısan. İncəsənət Universitetində isə deyirlər ki, aktyorluq azad peşədir.

- Bu çərçivə sənin şəxsiyyətini çərçivəyə salmır ki?

- Mən Abdulla kimi də çərçivəli adamam. "Yox"larım var. Ailəmdən və dinimdən gələn məqamlar var. Məsələn, içki süfrəsində oturmaq olmaz. Şəxsiyyətsiz aktyor səhnədə o dəqiqə bilinir, hiss olunur ki, bu, şəxsiyyətsiz aktyordur. Məsələn, İblisdə Arifi oynayırsa, inanmırsan. Çünki özünün şəxsiyyəti yoxdur. Şəxsiyyət rolu arxasınca aparan lokomotivdir. Ona görə də bir rolu bir aktyor başqa cür oynayır, digəri başqa. Şəxsiyyəti isə "yox"lar formalaşdırır. Mütləq nələrəsə "yox" deməyi bacarmalısan. Tutaq ki, sən hansısa siyasi kursdan narazısansa, bunu mütləq biruzə verməlisən.

- Maaşından razısan?

- Maaşımı haqq etməliyəm. Əgər bu ay oynadığım rolun haqqını verməmişəmsə, yola vermişəmsə, ayın axırı alacağım maaş mənə haram olur. Əgər hazırda nə qazanırsamsa, düşünürəm ki, indi mən buna layiqəm.

- Elə bir aktyor varmı ki, şəxsiyyətini tanıyandan sonra onu izləməkdən, sevməkdən imtina etmisən?

- Olub və hələ də var. Ad çəkməyəcəm. Qeybət olmasın. Üstümdə müəllim kimi ADMİUda oxuyanda haqqı var. Öyrədib məni. Amma bir hadisə baş verdi ki, bir neçə ay bundan qabaq festivalların birində o insan gözümdən çox düşdü. İyrəndim o insandan və aktyordan.

- Şəxiyyətlə aktyorluğun vəhdəti kimi rəhmətlik Fuad Poladov nümunə çəkilir.

- Fuad Poladov haqqında danışmaq çətindir. Onu İncəsənət kafesində oxuyanda orada Teatral kafe vardı. Biz kafe nəsliyik də. Bütün söhbətlərimiz kafelərdə baş tutub. Mən Fuad Poladovu kafedə, əlində armudu stəkan domino oynayan dayıların başının üstündə durub oyuna baxan görmədim. Mən onu çöldə görmədim. Halbuki metrodan da istifadə edirdi, piyada da gəzirdi. Ona görə də elə bilirdim ki, axşam saat 7-də tamaşa başlayanda səhnədə peyda olur, bir də saat 10-da qeybə çəkilir. Mən onu bir insan kimi görməmişəm. Deyilənlərə, yazılara görə görürəm ki, o insan böyük şəxsiyyət olub. Səhnədə Şah Qacarı oynayırdı. O dərinlikdən səhnəyə çıxırdı. O gələndə hiss edirdin ki, kişi gəlir, doğrudan da Şah Qacar gəlir. Qəribə enerjisi vardı. Bizi - tələbələri arxada oturdurdular. O səhnəyə çıxanda biixtiyar özümüzü yığışdırırdıq. O, ənənələrə sadiq olan sənətkar idi. Azərbaycan teatrı ondan sonra tək-tük aktyorlar var ki, o miqyasdadırlar. Ruslar sənətçi haqqında danışanda onun adını çəkmirlər, soyadı ilə çağırırlar. Vatxanqov, Stanislavski... Mən ona Poladov deyirəm. Hal-hazırda Poladov səviyyəsində aktyor...

- Sənin təbirincə desək, Rəhimov (Hikmət) o səviyyədədir?

- Hikmət gözəl aktyordur. O dərəcədə ki, mən onunla rejissor kimi işləmək istəyirəm. Ona Otellonu verərdim. Amma Poladov sənəti müqayisə olunmazdır. Onunla bərabərləşdirmək istəmərəm heç kimi.

- Teatrda hansı problemlər var? Onları necə həll etmək olar?

- Yaşar Nuri, Siyavuş Aslan, Fuad Poladov... Və bir neçə aktyor ki, sağdırlar, amma artıq teatrdan uzaqlaşıblar. Onlardan sonra Azərbaycan teatrı süqut edib. Tolstoyun belə bir sözü var - əgər xeyirlə şəri bir yerdə götürsək, şər həmişə xeyiri görəndə məğlub olur. Xeyir heç nə etmir, amma varlığı bəs edir. Bunu bizim sənətə tətbiq etsək, Fuad Poladov, Yaşar Nuri, Fəxrəddin Manafov olanda teatrda pisliklər görünmürdü. Elin ağsaqqalı necə idisə, eldə nə qədər mənfi şey olsa da, ağsaqqal o elin siması idi.

Ən böyük problemlərdən biri İncəsənət Universitetidir - təhsilsizlik. Verir, amma düzgün təhsil vermir. Düzgün təhsil nədir? Peterburqun bir sözü var. Deyir, əgər soruşsalar ki, teatr necə olmalıdır? Teatr necə olmamalıdır, onu deyərdim. Məncə bu gedişlə biz qocalanda Azərbaycan teatrı olmayacaq. Aldığım təhsillə müqayisə edəndə bütün problemləri görürəm. Birinci ənənə, ikinci isə kafedra sistemi. Emalatxana sistemi ilə alınmır. Bir yerdən idarə olunan system yoxdur. Bir emalatxana başqa, o biri başqa sistemlə dərs keçir. Kursla kurs arasında mübadilə itir. Sanki böyük binadır və daxilində birbirinə aid olmayan ofislər var. İncəsənət Universiteti belədir. Bunları teatrla bağlı deyirəm.

- Bəs tamaşaçı problemi?

- Tamaşaçıda problem yoxdur. Onu kütbeyin yerinə qoymaq lazım deyil. Problem teatrdadır. Tamaşaçı gəlir, baxır, görür ki, o deyil. Aktyor seçimləri səhv olanda tamaşa alınmır. Bir qaqaş tipində adama Məcnunu oynada bilməzsən. Vaxtanqovun "zaman, məkan və trubba" məsələsini qeyd etmək istəyirəm. Əgər teatr Tarqovudadırsa, sən bu lokal çevrəni əhatələməlisən. Oraya uyğun tamaşa qurmalısan.

Yanaşma önəmlidir. Biz bir yerdə "Müsyo Jordan"da işlədik. Sən özün "zonq"ların, yəni musiqilərin söz müəllifisən və prosesi gördün. Yanaşma tamam yeni və fərqli oldu. Müsyo Jordan həmişə niyə qəribə, gey biri kimi göstərilir? Niyə də? Yaxud onun ot adları sadalamağı adi bir şey idimi? Axundov otları sadalamaqla nəsə demək istəyirdi axı. Filan ot baş ağrısı üçündür. Məqsəd nədir? Elvin Mirzəyev buna necə yanaşdı? Şahbazı aparmaq istəyirəm. Yadındamı, bir qara atlı gəlmişdi, o Qarabağa gələndən sonra varlandı. O vaxt ermənilərə qara atlılar deyirdilər. Hətəmxan ağa bu sirri bilirdi. Müsyo Jordan isə demək istəyirdi ki, bu ot baş ağrısı üçündür, başın ağrıyacaq, qoy Şahbazı aparım. Elvin buna dərindən yanaşdı. Ot kimi yox, onun alt qatına endi. Bu pyes siyasi pyesdir. Sən ona üzdən yanaşanda tamaşaçı baxmayacaq. Azərbaycanda Mikayıl Mikayılov, Elvin Mirzəyev, Asiman Ağayev kimi rejissorlar azdı. Hansı ki işə fərqli yanaşırlar. Çoxusu isə o ota elə başağrısı üçün olan ot kimi baxırlar.

- Rejissor təfəkkürü aktyorluğuna necə təsir edir?

- Kömək edir. Mən oynadığım rola rejissor kimi baxıram. Şarovskinin "Nənəmin nağılı" tamaşasında mənə ördək rolunu vermişdilər. Mən dedim ki, səhnəyə sadəcə ördək kimi çıxmayacam. Ördəyi araşdırdım. Gördüm ki, özündən çox razı heyvandır, yerişi, çönüb baxmağı. Sonra düşündüm ki, bu ördək gürcüdür. Mətndə də "qo qo qo" sözü vardı. Elə yalnız bu sözü deyib dövrə vurmalı idim. Gürcü dilində isə "qoqo" qadın deməkdir. Deməli, bu ördək gəlir, üzüyü itmiş qız uşağına gürcü ləhcəsində, amma rus dilində deyir ki, mən sənə kömək edəcəm. Elə gürcülər də bu ördək kimi eqoist millətdir. Mən o ördəyin mətninin alt qatına endim, onu gürcü kimi gördüm, belə yanaşdım.

- Rejissorluqla bağlı hansı planların var?

- Öz emalatxanamı açmışam. 2020-ci ilin noyabrından açsam da, pandemiyaya görə bir müddət iş dayandı. Hal-hazırda beş tələbəm var. Fevral ayından dərslərimiz başlayacaq. Rəhbəri Dağlar Yusif olan "TƏK" (teatr, ədəbiyyat, kino) yaradıcılıq platformasının nəzdində teatr studiyası. Teatr və kino ədəbiyyatdan sonra gəlirlər. Belə qərara gəldik ki, İncəsənət Universitetində verilən təhsildən narazıyıqsa, ortaya alternative qoymaq lazımdır. Nail olduğum budur ki, bu beş tələbə artıq ənənəyə sadiqdirlər. Hərəsbi bir teatrda işləyir. Baxıram ki, oyunlarında zəifdirlər, amma oyunlarında ənənə var. "TƏK"in ofisi Nizamidə yerləşir. Məncə aldığı təhsilə hal-hazırda Azərbaycanda ehtiyac var.

- Birdən İncəsənət Universitetinə çağırsalar, gedərsən?

- Gedərəm, hətta maaşsız işləyərəm. Bir şeyə görə ki, Şukinada öyrəndiklərimi tələbələrə verə bilim. Heyf k imagistr diplomum yoxdur. Və açığı, artıq tələbə kimi oxumağa nə vaxtım, nə də səbrim yoxdur. Məqsədim yaxşı rol oyanamaq, tamaşa qurmaq deyil, sadəcə aldığım təhsili burada öyrətmək.

Söhbətləşdi:
Eminquey

Elan

Hüseynov Zaur Hafis oğlunun adına olan 10 TN 139 nömrəli qeydiyyat nişanlı Vaz-2107 markalı avtomobilin texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 58
Çapa imzalanmışdır:
21.01.2022